**Hər kəs ədalətli olacaq** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 39 (6132) 17 oktyabr 2025-ci il | Qiyməti 40 qəpik

# Ramiz Mehdiyev həbs edildi



**Prezident Administrasiyasının sabiq rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının keçmiş prezidenti, akademik Ramiz Mehdiyev barəsində DTX-nin Baş İstintaq İdarəsi tərəfindən cinayət işi başlanılıb.**

**Adalet.az xəbər verir ki, Səbail Rayon Məhkəməsi onun barəsində 4 aylıq ev dustaqlığı qətimkan tədbiri seçib.**

**Məlumata görə, Mehdiyev Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin aşağıdakı maddələri ilə ittiham olunur:**

**- 278-ci maddə - hakimiyyəti zorla ələ keçirmə və ya zorla saxlama;**

**- 274-cü maddə - dövlətə xəyanət;**

**- 193-cü maddə - cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma (yuyulma).**

**Qeyd edək ki, Ramiz Mehdiyev 1995-2019-cu illərdə Prezident Administrasiyasının rəhbəri, 2019-2022-ci illərdə isə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsini icra edib.**

## Türkiyə XİN-in nümayəndəsi: Azərbaycan TDT-yə liderlik edir




**Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü sübut etdi ki, Azərbaycan bu təşkilata liderlik edir.**

Adalet.az xəbər verir ki, bunu "Report"a açıqlamasında ölkənin Xarici İşlər Nazirliyinin nümayəndəsi, Ankara şəhər Diplomatiya Şurası İdarə Heyətinin üzvü səfir Metin Kılıç bildirib.

Azərbaycanın Mərkəzi Asiyadan Anadoluya qədər önəmli keçid nöqtəsi olduğunu deyən səfir onun regionda və dünyadakı rolunu belə dəyərləndirib:

"Zəngəzur dəhlizinin əhəmiyyəti danılmazdır. Zirvədə də Çindən Özbəkistana və Qazaxıstana, oradan da Azərbaycana və Türkiyəyə uzanan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu və ya Orta Dəhlizin çox önəmli olduğu ifadə edildi".

Azərbaycanın sülh tərəfdarı olduğunu, təhlükəsizlik və hərbi məsələlərə xüsusi diqqət ayırdığını isə diplomat xüsusilə təqdir edib:

"Bunlar Azərbaycanın bölgədə müstəqil siyasət apardığını göstərir. Türk dövlətlərinin öz aralarında iş birliyi qurmaları, hərbi təlimlər keçirmələri, Qazaxıstanın dediyi kimi, kibertəhlükəsizlik sahəsinə də fəaliyyət göstərmələri və nəhayət, sadalanan sahələrdə kollektiv müqavilə imzalamaları böyük əhəmiyyət kəsb edir".

Xatırladaq ki, oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib.



**Əlvida, ağaclar!**
**əlvida -**
**Payızın külək əliylə**
**Yaşıl yarpaqların itən ömrünə.**

## "Gələn ay Ağdama 900 ailənin qayıdışı gözlənilir"

**Gələn ay Ağdama 900 ailənin qayıdışı gözlənilir. Adalet.az xəbər verir ki, bunu Xankəndidə keçirilən "III Azərbaycan Milli Şəhərsalma Forumu"nda çıxış edən Prezidentin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov deyib.**

O bildirib ki, Böyük Qayıdış proqramı çərçivəsində yaxın vaxtlarda Ağdama yeni sakinlərin köçürülməsi planlaşdırılır.

"Gələn ay Ağdama ilk 900 ailənin qayıdışı gözlənilir. Bu, Böyük Qayıdış prosesinin növbəti mərhələsidir və hamımız üçün böyük sevinc xəbəridir," - deyə Emin Hüseynov vurğulayıb.

Onun sözlərinə görə, hazırda bölgədə 16 magistral yol (ümumilikdə 600 kilometr) və Bakı-Ağdam dəmir yolu yenidən qurulub, bir beynəlxalq hava limanı isə cəmi 8 ay ərzində istifadəyə verilib.

Xüsusi nümayəndə əlavə edib ki, Ağdamda üç kənddə artıq məskunlaşma başa çatıb, təxminən 4 min nəfər geri qayıdıb.

"Bu insanlar doğma torpaqlarına qayıdıblar, evləri və iş yerləri var. Ən vacibi isə həyat artıq bərpa olunur," - deyə E. Hüseynov qeyd edib.

Hazırda bölgədə iqtisadi cəhətdən aktiv əhali 2 200 nəfərdir, işsizlik səviyyəsi isə 8 faizdən aşağıdır.

## Gələn ilin büdcəsi kəskin artırıldı



**Azərbaycanın 2026-cı il üçün dövlət büdcəsinin gəlir və xərcləri ilkin variantla müqayisədə müvafiq olaraq 186 milyon manat və 155 milyon manat manat artırılıb.**

Adalet.az xəbər verir ki, bu, Maliyyə Nazirliyinin yaxın 4 il üçün açıqladığı Ortamüddətli Xərclər Çərçivəsində öz əksini tapıb.

Sənədə əsasən, gələn il büdcə gəlirlərinin 38 milyard 609 milyon manat (2025-ci ilin təsdiq olunmuş proqnozuna nisbətən 0,7 % çox), xərclərinin isə 41 milyard 703,6 milyon manat (+0,7 %) olacağı gözlənilir.

## Quterreşdən BMT ilə bağlı etiraf



**Humanitar fəaliyyət iflasa uğramaq ərəfəsindədir. Ehtiyaclar həmişəkindən daha çoxdur, lakin BMT-nin humanitar əməliyyatları üçün maliyyə azalır. İndi cəsarətli, sistemli dəyişikliklərin vaxtıdır.**

Adalet.az xəbər verir ki, bu sözləri BMT Baş katibi Antonio Quterreş deyib. O, həmçinin yardımı daha sürətli, sərfəli və daha etibarlı çatdırmaq məqsədi daşıyan altı bənddən ibarət yeni Humanitar Sazişin hazırlandığını bildirib.

## Zəfər Gününə həsr olunmuş hərbi parad keçiriləcək



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq tapşırığına əsasən, noyabrın 8-də Bakı şəhərində Zəfər Gününün beşinci ildönümü münasibətilə hərbi parad keçiriləcək.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib. Parada hazırlıqla bağlı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, o cümlədən Azərbaycan Ordusunun bölmələri ilə məşqlər keçirilir.

Hazırlıq məşqləri zamanı Bakı şəhəri və ətraf ərazilərdə aviasiya vasitələrinin uçuşları, avtomobil və döyüş texnikalarının, həmçinin gəmilərin müəyyən edilmiş marşrutlar üzrə hərəkəti və yerdəyişməsi icra olunur.

### GÜNÜN LƏTİFƏSİ

İki qadın söhbət edir:

- Az, ərin sənə pul verir heç?
- **Həə, əlbəttə, nə vaxt istəyirəm verir.**
- Doğrudaaaan?! Necə alırsan ki? Deginən biz də alaq da, bizimki heç vermir.
- **Atamın xarabasına gedərəm bir də geri dönmərəm - deyirəm.**
- Aha, sonra?
- **O da həmin dəqiqə çıxarıb yol pulu verir.**

# Prezident yeni səfirləri qəbul etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marian de Yonqun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi. Kopenhagendə Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşünü xatırladan Prezident İlham Əliyev həmin görüş əsnasında tərəfdaşlığımızın müxtəlif aspektlərinin müzakirə olunduğunu vurğuladı, bir çox sahədə əməkdaşlığı gücləndirmək barədə razılığın əldə edildiyini bildirdi. Hazırda Niderland şirkətlərinin ölkəmizdə müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı gələcəkdə onların sayının çoxalacağına ümidvar olduğunu ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən səfir Niderlandın Kralı Villem-Aleksandrın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Niderlandın Kralı və Baş nazirinə çatdırmağı xahiş etdi.

Marian de Yonq ölkəsinin Azərbaycanla siyasi və iqtisadi sahədə güclü əməkdaşlıq etmək niyyətində olduğunu dedi, bunun qarşılıqlı fayda verəcəyinə əminliyini vurğuladı.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Redanın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev, ilk növbədə, Şarm-əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitinin yüksək səviyyədə təşkilinə görə Misir Ərəb Respublikasına təbriklərini çatdırdı. ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisi tərəfindən Azərbaycanın bu tədbirə dəvətini yüksək qiymətləndirən dövlətimizin başçısı bunu ölkələrimiz arasında mövcud olan etimadın və dostluğun nümunəsi kimi dəyərləndirdi. Əbdülfəttah əs-Sisinin Azərbaycana səfərini, özünün isə Misirə rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər çərçivəsində müzakirə olunmuş mövzuların həyata keçirilməsi ilə bağlı məsələlərə toxundu. Səfir Misir Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş etdi. Görüşdə Hökumətlərarası Komissiyanın əhəmiyyətinə toxunuldu, yaxın vaxtlarda onun növbəti iclasının keçiriləcəyi qeyd olundu. Bakı ilə Şarm-əl-Şeyx və Qahirə şəhərləri arasında birbaşa uçuşların olduğu və bunun turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyi vurğulandı.

Söhbət zamanı mədəni və humanitar sahələrdə əməkdaşlığımızın perspektivləri müzakirə olundu.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Kopenhagendə Fransa Prezidenti Emmanuel Makronla görüşünü xatırladaraq, həmin görüşün nəticəsində ölkələrimiz arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını dedi. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlətimizin başçısı, ilk növbədə, insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxundu.

Səfir də öz növbəsində Azərbaycanla Fransa arasında münasibətlərdə yeni səhifənin açıldığını deyərək, əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən yüksək texnologiyalar və aerokosmik sahələrdə uğurlu inkişafına toxunuldu. Hökumətlərarası Komissiyanın fəaliyyətinin bərpasının əhəmiyyəti vurğulandı, qardaşlaşmış şəhərlər arasında əlaqələr qeyd edildi, biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili və müxtəlif layihələrdə Fransa şirkətlərinin iştirakı məsələləri müzakirə olundu.

Azərbaycanla Fransanın enerji sahəsində uğurlu tərəfdaşlığı və bu xüsusda ölkəmizlə "Total" şirkəti arasında əməkdaşlığın önəmi qeyd edildi.

Söhbət zamanı bir çox sahədə münasibətlərimizin perspektivlərinə dair fikir mübadiləsi aparıldı, əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulandı.

# *Sahibə Qafarova:* Zəngəzur dəhlizi regionda əməkdaşlığa və tərəqqiyə xidmət edəcək

***Zəngəzur dəhlizi Avrasiyada mühüm nəqliyyat bağlantısına çevriləcək, regionda əməkdaşlığa və tərəqqiyə xidmət edəcək.***

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova bu gün Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşünün açılış mərasimində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, sülh, təhlükəsizlik və tərəqqi bilavasitə bir-biri ilə əlaqəli olan amillərdir:

" 44 günlük Vətən Müharibəsinin 5-ci ildönümünü qeyd etdiyimiz indiki dövrdə Azərbaycan öz fəaliyyəti ilə bunu bir daha təsdiq edir".

Azərbaycanın 2020-ci ildə öz ərazi bütövlüyünü, 2023-cü ildə isə suverenliyini bərpa etdiyini və bununla da sülhə aparan yolun təməlini qoyduğunu vurğulayan Milli Məclisin sədri deyib ki, müharibədən dərhal sonra məhz qalib Azərbaycan sülh təşəbbüsü ilə çıxış etdi, sülhün əsas prinsiplərini və sülh müqaviləsinin layihəsini irəli sürdü".



Sahibə Qafarova xatırladıb ki, aparılan ikitərəfli danışıqların nəticəsi olaraq, bu ilin avqustunda Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülh müqaviləsinin mətnini parafladı. Qeyd olunub ki, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzaladılar. Regional kommunikasiyaların açılmasının əhəmiyyəti təsdiq edildi. Spikerin sözlərinə görə, Vaşinqton görüşünün əsas nəticələrindən biri Prezident İlham Əliyevin təşəbbüsü olan Zəngəzur dəhlizinin açılmasıdır:

"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun reallaşması ilə Zəngəzur dəhlizi Avrasiyada mühüm nəqliyyat bağlantısına çevriləcək, regionumuzda əməkdaşlığa və tərəqqiyə xidmət edəcək".

**Milli Məclisin sədri bütün bunların ilk növbədə Prezident İlham Əliyevin həyata keçirdiyi sülh diplomatiyasının, təhlükəsizlik, əməkdaşlıq və tərəqqi naminə gərgin fəaliyyətinin nəticəsi olduğunu xüsusilə vurğulayıb.**

**Nicat**

# Sərnişindaşıma ilə məşğul olan avtomobil nəqliyyatı üçün yeni qaydalar müəyyənləşir

**Avtonəqliyyat vasitələrinə və avtomobil nəqliyyatının infrastruktur obyektlərinə dair ümumi tələblər təkmilləşdirilir.**

Adalet.az xəbər verir ki, bu barədə məsələ Milli Məclisin iclasında müzakirə edilən "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, ümumi istifadədə olan sərnişin avtomobil nəqliyyatına, habelə müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinə dair ümumi tələblər avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydaları ilə müəyyən olunacaq.

Müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri yerlərinin müəyyən edilməsi, onların quraşdırılması, idarə edilməsi və saxlanılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təmin ediləcək. Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin (dayanacaq məntəqələri istisna olmaqla) yerləşdirilməsi, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulması



sərnişin və yük axınının həcminə, həmçinin nəqliyyat xidmətləri istehlakçılarının tələbatına uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi nəzərə alınmaqla şəhərsalma və tikinti qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada həyata keçiriləcək.

Qanun layihəsi müntəzəm sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin yerlərinin müəyyənləşdirilməsi, onların quraşdırılması və idarə olunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb və bu məqsədlə vahid səlahiyyətli qurumun müəyyən edilməsini nəzərdə tutur.

Belə ki, qüvvədə olan qanunvericiliyə əsasən, Bakı şəhərinin inzibati ərazisində müntəzəm sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin yerlərinin müəyyənləşdirilməsi, onların quraşdırılması və idarə olunması Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin, Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, digər ərazilərdə zəruri olan infrastrukturun yaradılması işini təşkil etmək, həmçinin sərnişin nəqliyyatı vasitələri üçün dayanacaqların yerləşdirilməsi sxemlərini təsdiq etmək və nəzarəti həyata keçirmək səlahiyyəti isə yerli icra hakimiyyəti başçılarının səlahiyyətindədir.

Müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri yerlərinin müəyyən edilməsinin, onların quraşdırılmasının, idarə edilməsinin və saxlanılmasının vahid qurum tərəfindən təmin edilməsi bölgələrdə əhaliyə göstərilən sərnişindaşıma xidmətinin keyfiyyətinin artmasına, bu sahədə ölkə üzrə vahid standartların tətbiqinə xidmət edəcək.

**Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq I oxunudşa qəbul edilib.**

**Nicat**

# *Deputat:* "Vəkilləri qorumaq həm də dövlətin borcudur"

**"Azərbaycanda vəkillərin sayı rəqəm nə qədər göstərilsə də, çox azdır. Xüsusilə bölgələrdə vəkil ciddi problemdir. Elə bölgələr var ki, orada bir neçə rayonda 1-2 vəkil tapmaq çətindir. Bu məsələnin həlli istiqamətində addımların atılması, qanunvericilikdə dəyişiklik edilməsi doğru yanaşmadır".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların



İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsində deputat Fazil Mustafa deyib.

O bildirib ki, prinsiplərdə də dəyişiklik edilir: "Vəkildən həm də şəffaflıq prinsipinə əməl etməsini tələb edirik. Sonrakı maddələrdə göstərilir ki, vəkil peşə sirri və fəaliyyəti ilə bağlı dindirilə bilməz. Yaxud peşə fəaliyyəti ilə bağlı ona hansısa təzyiq göstərilə bilməz. Əslində vəkilliyin bir problemi o idi. Bəzi vəzifəli şəxslər, dövlət qurumları hansısa prosesdə peşəkar rəqabətdə, müzakirədə üstünlük qazana bilməyəndə, vəkilləri sıxışdırmağa başlayırdılar. Bir çox hallarda vəkillərin prosesdə iştirakına əngəl yaradırdılar. Son illər bu tendensiya ortadan qalxsa da, vəkilləri qorumaq həm də dövlətin borcudur".

**Nicat**

## Yetkinlik yaşına çatmayanların hüquqları ilə bağlı qanun dəyişir



**Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi ilə bağlı yeni qaydalar müəyyən edilir.**

Adalet.az xəbər verir ki, bu barədə məsələ Milli Məclisin iclasında ”Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Qanunu icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklərdə əksini tapıb.

Belə ki, sözügedən Qanuna əsasən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların adı dəyişdirilərək uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar kimi müəyyən edilmişdir.

Həmçinin komissiyaların səlahiyyətlərində müvafiq dəyişikliklər edilmiş, o cümlədən himayədar ailəyə verilmiş uşaqlar, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar istisna olmaqla, digər hallarda uşaqlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyaları komissiyalara həvalə edilib.

Bununla əlaqədar sözügedən qanunlarda dəyişiklik edilməsinə zərurət yaranıb.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq birinci oxunuşda təsdiq edilib.

## Deputat: “Ayın 1-də məktub yazırsan, qəsdən gözləyib ayın 30-31-də cavab verirlər”



**”Azərbaycanda ərizə və şikayətlərə niyə 30 gün ərzində cavab verilsin? Bununla bağlı normativ hüquqi aktlara bənd əlavə edək ki, Azərbaycanda ərizə və şikayətlərə 10 gün ərzində cavab verilsin”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında deputat Səyyad Salahlı deyib.

Onun sözlərinə görə, əndirəbadi cəhət odur ki, ayın 1-də məktub yazırsan, qəsdən gözləyib ayın 30-31-də cavab verirlər:

”Məsələn, səbəb torpaq mübahisəsidir. Bunu 30 gün düşünmək, nələrisə araşdırmaq nəyə lazımdır? Buna konkret cavab verilsin ki, mməsələ nədir və şikayətçi də rahat olsun. Xahiş edirəm ki, bu məsələyə ciddi münasibət bildirsin”.

**Nicat**

## Bu adların dəyişdirilməsi zamanı dövlət dilinin normaları nəzərə alınacaq



**Prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi zamanı dövlət dilinin normaları nəzərə alınacaq.**

Adalet.az xəbər verir ki, bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan ”Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında” qanuna təklif edilən dəyişikliklərdə əksini tapıb.

Qüvvədə olan qanuna əsasən, prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Layihəyə əsasən, prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi və dövlət dilinin normaları nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçiriləcək.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq birinci oxunudşa qəbul edilib.

## Deputat: “Azərbaycan Türk dünyasında birliyi gücləndirir”




**Türk Dövlətləri Təşkilatı (TDT) artıq yalnız əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında deputat Ceyhun Məmmədov bildirib. Deputat qeyd edib ki, bu prosesə ən çox töhfə verən ölkələrdən biri məhz Azərbaycandır:

”Prezident İlham Əliyev çıxışında ortaq tarix və etnik köklərin, həmçinin dillərin türk dünyasını bir ailə kimi birləşdiriyini vurğuladı. Eyni zamanda, TDT-yə üzv ölkələrin Azərbaycanda birgə hərbi təlimlərinin keçirilməsini təklif etdi. Bu təşəbbüs gələcəkdə türk dövlətlərinin ordularının döyüş qabiliyyətinin artırılması və təhlükəsizliyinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır”.

**Nicat**



Rüstəm Hacıyev

## Yaxın Şərqdə sülh yaranacaqmı?

*Misirdə Yaxın Şərq münaqişələrinin həlli yolunda kompleks sənədlərin imzalanması, bu bölgədə əmin-amanlıq yaranacağına ümidləri artırır. İndi, ABŞ prezidenti Donald Trampında dediyi kimi, regionun bütün dövlətləri bu yolda birləşməli və prossesi sona çatdırmalıdırlar.*

*İsrail və Misirə səfərlərini başa çatdıran Ağ Evin rəhbəri, Yaxın Şərq dövlətlərinə səslənərək, vəziyyətin Qəzza bölgəsi çərçivəsindən çıxdığını, bölgədə sülhə və əmin-amanlığa nail olmaq üçün birləşməyə və prossesi başa çatdırmağa çağırdı.*

*"Yaxın Şərq ölkələri regionda sülhə nail olmaq üçün, uzücü və çətin anlar yaşayıblar. İndi birləşməli və məsələni sona çatdırmalıdırlar. Qəzza yalnız münaqişələrin bir hissəsi idi, Əsas məsələ Yaxın Şərqdə sülhə nail olmaqdır"- deyə Donald Tramp özünün Truth Social şəbəkəsindəki səhifəsində yazıb.*

*Xatırladıraq ki, Şarm-əş Şeyxdə keçirilən "Sülh sammitində" ABŞ, Türkiyə, Qətər və Misir liderləri, Qəzza bölgəsində atəşin dayandırılması ilə bağlı yekun sənəd imzalayıblar.*

*ABŞ prezidentinin Yaxın Şərqə stabillik gətirmək cəhdləri bəhrəsini verməkdədir. İsrail və Fələstinin HƏMAS təşkilatı nəhayət ki, atəşin dayandırılması və girovların qaytarılması ilə bağlı razılığa gəliblər. Dünəndən girovların və əsirlərin dəyişdirilməsi prossesi başlayıb. Ümidvar ki, tərəflərdən heç biri atəşin dayandırılması ilə bağlı razılaşmanın şərtlərini pozmayacaq.*

*Vəziyyətin nizamlanmasında ABŞ prezidentinin birbaşa iştirakı göz qabağındadır. Donald Tramp Yaxın Şərqdə stabilliyin yaranması üçün demək olar ki, nüfuzunu ortaya qoyub. Çətinliklərə baxmayaraq, o, sonadək çalışdı və tərəflər arasında atəşin dayandırmasına nail oldu.*

*İndi, əsas plan İsrail və Fələstin arasında keçid dövrü üçün bir sıra məsələlərin həm İsrailin, həm də Fələstinin maraqlarına uyğun olaraq həllini başa çatdırmaqdır. Qarşıda sülh proqramının ən çətin mərhələsi- Qəzzanın demilitarizasiyası və müharibədən sonra bölgənin idarəolunması mərhələsinin formalaşdırılması məsələsinin həll olunması dayanır.*

*Sammit iştirakçıları əmin edirlər ki, dünya ictimayyəti prossesi sona çatdırmaq üçün bütün imkanlarından istifadə edəcəklər.*

*Sülh yolunda atılan addımlar bölgədə stabilliyin yaranacağına ümid verir. Hələki, İsrail və Fələstinin HƏMAS təşkilatı, razılaşmanın bütün şərtlərinə əməl edəcəklərinə söz veriblər.*

*Sadəcə olaraq, inamsızlıq yarada biləcək məsələ, sammitdə İsrail, HƏMAS və İranının nümayəndələrinin iştirak etməməsidir.*

## “Netanyahu Fələstin dövlətini və xalqının siyasi hüquqlarını qəbul etmir”

**”Qəzza sammiti atəşkəsi gətirsə də, İsrail və Fələstin arasında fundamental problemlərin həlli qalır. Misirdə ABŞ prezidenti Donald Trampın birbaşa vasitəçiliyi ilə Qəzzada dayanıqlı atəşkəsin əldə edilməsi məqsədilə sammit keçirildi. Sammitə digər ölkələr də dəvət edilsə də, əsas iştirakçılar - Misir, Türkiyə və Qətər liderləri - ”Qəzza planı”nda yer aldılar”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O bildirib ki, iki il davam edən HƏMAS-İsrail hərbi toqquşmalarına son qoyan bu razılaşma bölgədə mühüm siyasi hadisədir: ”ABŞ prezidenti Donald Tramp bu atəşkəs sənədini ”sülh və üç minillik münaqişəyə son qoyan addım” kimi dəyərləndirdi. Bununla belə, sənəd Qəzzada atəşkəsin təmin olunması və Həmasın idarəetmədən çəkilməsini nəzərdə tutur, lakin İsrail-Fələstin münaqişəsini köklü şəkildə həll və sülh sazişinin hüquqi əsaslarını özündə ehtiva etmir. Sammit, həmçinin, Fələstin dövlətinin Böyük Britaniya başda olmaqla bir sıra Qərb ölkələri tərəfindən tanınması fonunda baş tutdu”.

Politoloqun sözlərinə görə, Azərbaycan isə hələ 1992-ci ildən Fələstini dövlət kimi tanımış və diplomatik əlaqələr qurmuşdur: ”Lakin keçirilən sammit iki xalq arasında fundamental problemləri həll etmədi. Donald Tramp, əgər siyasi iradə göstərilsəydi, tərəfləri ”yekun sülh müqaviləsinə” də yaxınlaşdıra bilərdi. Bu xüsusilə Fələstin dövlətinin İsrail tərəfindən tanınması və ”iki dövlətli həll planının” reallaşdırılması baxımından əhəmiyyətli olardı. Hazırda İsrail və Fələstin arasında sülh müqaviləsi mövcud deyil. İsrailin Baş naziri Benyamin Netanyahu Fələstin dövlətini və xalqının siyasi hüquqlarını qəbul etmir, həmçinin Fələstin dövlətinin beynəlxalq səviyyədə tanınmasına qarşı çıxır. Yeni geosiyasi nizamda isə Fələstin dövlətinin tanınması artıq labüd görünür. BMT-nin ”iki dövlətli həll planı” iki xalq arasında dayanıqlı sülhün əsas istiqamətidir. Mövcud de-fakto sərhədlər çərçivəsində Fələstin dövlətinin tanınması və İsrailin də bunu qəbul etməsi həm regional sabitlik, həm də hər iki xalqın mənafeyinə xidmət edəcək. İsrail Fələstinin tanınmasından imtina etdikcə, regionda dayanıqlı sülhün əldə edilməsi mümkün olmayacaq”.

**Sübhan**

## "Bu, üç ölkəni Suriyada, İraqda strateji təşəbbüslərin həmmüəllifinə çevirə bilər"

**”ABŞ Prezidenti Donald Trampın təşəbbüsləri və vasitəçilik səyləri ilə İsraillə HƏMAS arasında əldə edilən razılıq sülh yox, atəşkəsin çərçivələrini əhatə edir. Vaşinqtonun bu uğuru Trampın fərdi təşəbbüsü ilə bərabər, ABŞ siyasətini formalaşdıran daha geniş strateji subyektlərin koordinasiyalı yanaşmasının nəticəsidir”.**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Aqşin Kərimov deyib.

O bildirib ki, ABŞ, Türkiyə, Misir və Qətərin imzaladığı atəşkəs planı sülh üçün görkəmli bir vizyon kimi görünsə də, hazırkı razılıq incə ipdən asılı vəziyyətdədir:

”Hərçənd ki, ABŞ-nin Qəzza Sülh Planı atəşkəs üçün qaydaları və prinsipləri açıqlayır, atəşkəsin həyata keçirilməsi üçün ABŞ, Türkiyə, Misir və Qətərin koordinasiyasını müəyyənləşdirir. Ancaq sənəd əlavə səylərin baş tutacağı təqdirdə növbəti raund üçün həlledici sayılacaq. Bununla belə, o, yekun sülh naminə ilkin mərhələ kimi diqqətəlayiqdir. Bundan sonra HƏMAS-ın tərksilah edilməsi, İsrailin Qəzza zolağından tam çıxarılması və Qəzzada gələcək idarəetmə modeli ilə əlaqədar məsələlərdə güclü fikir ayrılıqları və gərginliklər yaşana bilər. Bu, atəşkəsin nə qədər incə məsələ olduğunu, müharibə üçün qapıların açılacağını kövrəkləşdirir”.

Politoloq deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin




Yaxın Şərq Sülh Sammitində iştirakı Azərbaycan strategiyasının konstruktiv yanaşmalarda yer tutan əhəmiyyəti mövqeyi ilə izah olunur:

”Bu, Azərbaycan-ABŞ strateji tərəfdaşlığından növbəti səhifələrin açılması fonunda yeni dəyər qazanır və İlham Əliyev bunu Bakının geosiyasət quruculuğundakı rolu ilə möhkəmləndirir. İlham Əliyevin sammitdə iştirakı: - Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin müşayiətində onun ABŞ ilə münasibətlərində dönüş nöqtəsi yarandığı zamana təsadüf edir, - Azərbaycanın Yaxın Şərqdə Türkiyə, ABŞ və onların tərəfdaşları ilə dərinləşən əməkdaşlıq modelini proqnozlaşdırmağa imkan verir. Bu, üç ölkəni Suriyada, İraqda strateji təşəbbüslərin həmmüəllifinə çevirə bilər, - İsraillə Türkiyə arasında gərginliyi yumşaltmaq üçün Azərbaycanı yeni vasitəçilik istiqamətləri açır”.

Aqşin Kərimovun sözlərinə görə, Rusiya, İran kimi aktorlar Yaxın Şərq geosiyasətindəki yenidənqurmada iştirakdan kənarda dayanır:

”Lakin bunu, Yaxın Şərqdə HƏMAS-İsrail müharibəsi başlayanda sülh və təhlükəsizlik gündəminə təsir yaradan Çin haqqında da eyni sözü söyləmək çətindir. Ancaq Rusiya-Ukrayna müharibəsi, ardınca Qəzzadakı eskalasiya Çinin strateji maraqlarını böyütsə də, bu mərhələdə ABŞ diplomatiyası Pekinin çərçivələrini üstələdi. Bu, Pekinin üç etaplı sülh strategyasına meydan oxuyur. Yəni ABŞ Çinin Fələstindaxili barışıq, sonra HƏMAS-İsrail, onun ardınca isə İsrail-Fələstin münaqişəsinin həllindəki təşəbbüs və rollarını azaltdı. Pekinin bundan sonrakı rolu ilkin mərhələdə Donald Trampla Si Cinpinin sammiti ilə müəyyənləşəcək. Sonrakı periodda isə Çinin hansı istiqamətlərdən prosesə daxil olacağını indidən təyin etmək çətin görünür. Rusiyaya münasibətdə isə prosesə Donald Trampla Vladimir Putinin razılıq və sövdələşmə dərəcəsi prinsipindən də yanaşa bilərik. Ehtimalla Tramp Putinə Yaxın Şərqdə Kremlin Ağ Evə güzəşt etməsi üçün zəruriətlərin yarandığını bildirib. Bunun müqabilində isə Rusiya ABŞ-nin Ukrayna üzərindən əlini çəkməsi şərtini irəli sürüb, lakin ABŞ diplomatiyası Moskvanı başqa fazalarda tələyə sala bilər”.

**Vasif ƏLİHÜSEYN**

# Mədəniyyət Nazirliyindən Ramiz Quliyevin ölümü ilə bağlı nekroloq

**Mədəniyyət Nazirliyi Xalq artist Ramiz Quliyevin ölümü ilə bağlı nekroloq yayıb.**

**Adalet.az xəbər verir ki, nekroloqda deyilir:**

**Görkəmli tarzən, pedaqoq, Dövlət mükafatı laureatı, Xalq artisti, professor Ramiz Quliyev 15 oktyabr 2025-ci il tarixində, 78 yaşında vəfat edib.**

**Ramiz Əyyub oğlu Quliyev 30 aprel 1947-ci ildə Ağdam şəhərində anadan olub.**

**1960-cı ildə Ağdam şəhər 7 illik musiqi məktəbini tar ixtisası üzrə bitirib. Həmin ildən Ü.Hacıbəyli adına Ağdam Orta İxtisas Musiqi Məktəbində təhsilini davam etdirib. 1964 - 1969-cu illərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) tar və dirijorluq ixtisasları üzrə təhsil alıb.**

**1963-1974-cü illərdə Ağdam və Bakıda musiqi məktəblərində müəllim işləyib. Daha sonra Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında Xalq çalğı alətləri kafedrasında tar ixtisası üzrə müəllimlikdən professorluğa kimi yüksəlib. Ustad tarzən 1990-2002-ci illərdə həmin kafedraya rəhbərlik edib. 2004-cü ildən ömrünün sonunadək Bakı Musiqi Akademiyasında "Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: orqanologiya və akustika" elmi-tədqiqat laboratoriyasının baş elmi işçisi vəzifəsində çalışıb. Ramiz Quliyev pedaqoji fəaliyyətlə yanaşı, tar ifaçılığı sənətinə dair sanballı kitab və dərs vəsaitlərinin müəllifidir. Müxtəlif illərdə nəşr olunan "Azərbaycan bəstəkarlarının əsərlərinin tar və fortepiano üçün işləmələri", "Xarici bəstəkarların əsərlərinin tar və fortepiano üçün işləmələri" dərs vəsaitləri, eləcə də "Azərbaycan və xarici bəstəkarların əsərlərinin iki tar və fortepiano üçün köçürmə və işləmələri" adlı ikicildlik kitabı böyük maraqla qarşılanıb və bu gün də təhsil ocaqlarında geniş tədris olunur. Ramiz Quliyev eyni zamanda Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin dəstəyi və təşkilatçılığı ilə həyata keçirilən yerli və beynəlxalq incəsənət layihələrində yaxından iştirak edib, bir sıra müsabiqələrdə, festivallarda münsiflər heyətinin sədri kimi fəaliyyət göstərib.**




**Sənətkar Türkiyə, Əfqanıstan, Suriya, İsveçrə, Almaniya, Pakistan, Əlcəzair, Tunis, Hindistan, Yaponiya, ABŞ, Kanada, Polşa, Danimarka, İran, İraq, Fransa, İngiltərə, İsrail, Norveç və digər ölkələrdə qastrol səfərlərində və beynəlxalq festivallarda musiqi mədəniyyətimizi yüksək səviyyədə təmsil edib.**

**Ustad tarzənin musiqi mədəniyyətimizin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib. O, "Əməkdar artist" (1982), "Xalq artisti" (1988) fəxri adlarına, "Şöhrət" (2007) və "Şərəf" (2017) ordenlərinə, eləcə də Azərbaycan Respublikasının Dövlət Mükafatına (2014) layiq görülüb. Sənətkar 2004-cü ildən Prezidentin fərdi təqaüdçüsü idi.**

**Mədəniyyət Nazirliyinin kollektivi Xalq artisti Ramiz Quliyevin vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin.**

# Tarı dindirən ecazkar barmaqlar

**Azərbaycan musiqi tarixində öz yeri, öz yolu olan unudulmaz sənətkarlarımızdan biri də Xalq artisti, tarzən Ramiz Quliyevdir. Şöhrəti ölkə hüdudlarını aşmış, barmaqları ilə dünyanın möhtəşəm böyük salonlarında dinləyiciləri ayağa qaldıran, zalı alqışlara qərq etməyi bacaran tarzənimiz Tanrıya qovuşdu.**

**Təkcə insanlığın Tanrısına yox, həm də musiqinin - tarın Tanrısına qovuşdu. Onu şəxsən tanıyan və həmsöhbət olan, müsahibə götürən bir söz adamı kimi böyük əminliklə inancımı ortaya qoyuram. Və hər kəsə bəyan edirəm ki, musiqimiz yaşadıqca, tarımız oxuduqca Ramiz Quliyevin barmaqları da bizim üçün musiqilərimizi səsləndirəcək. Yəni demək istəyirəm ki, onun barmaqlarının ecazkar gücü o səsi Tanrı dərgahından da bizə çatdıracaqdır. Bu isə artıq musiqinin yaşatdığı və musiqi ilə yaşayacaq Xalq artisti Ramiz Quliyevin ikinci ömrü olacaqdır.**

**O ömrə, o yaşama, o barmaqlara böyük sayğılarla**

**Əbülfət Mədətoğlu**

## *Düşənbə görüşü Rusiya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrə necə təsir göstərəcək?*



**"Azərbaycan və Rusiya Prezidentlərinin Düşənbə görüşündən sonra iki ölkə arasında münasibətlərin normallaşacağı gözlənilir. Düşənbə görüşü Rusiya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrə necə təsir göstərəcək? Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olaraq qalmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin ilk 7 ayında xarici ticarət dövriyyəsinin 10.6 faizi Rusiyanın payına düşüb".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib. O bildirib ki, bu xarici ticarətdə Rusiyanın 3-cü ən böyük tərəfdaş olması deməkdir: "İxracda da Rusiya 4.7 faizlik payla ilk üçlükdədir. İdxalımızda 17,2 faiz payı olan Rusiya 18.0 faizlik Çindən sonra ikinci ən böyük tərəfdaşdır. Qeyri neft-qaz məhsulları üzrə ixracın isə 34.3 faizi Rusiyaya yönəlib. Bu Rusiyanın qeyri-resurs iqtisadiyyatında ən böyük ticarət tərəfdaşı olması deməkdir".

Onun sözlərinə görə, rəqəmlər göstərir ki, ölkələr arasında soyuqluğa rəğmən, Azərbaycan ilə Rusiya arasındakı iqtisadi əlaqələrdəki dinamika qorunub saxlanılıb:

"Bu isə birbaşa ticarətin məhz biznes vasitəsi ilə aparılması ilə bağlıdır. Bu baxımdan, Düşənbə görüşünün ilk ölkə arasındakı iqtisadi əlaqələrə müsbət təsir göstərəcəyi gözlənilir. Aydındır ki, yaxşı əlaqələr daha böyük biznes imkanları deməkdir. Bütün bunlar ilə yanaşı, Azərbaycanın xarici ticarətində şaxələnmənin daha da gücləndirilməsi prioritetliyini qoruyub saxlayır. Bu eyni zamanda, ixrac bazarlarının diversifikasiyasını da aktuallaşdırmaqdadır".

**Nicat**

# "Müharibədən sağ çıxmaq olsa da salamat qalmaq olmur..."

**"Mən 5 il öncədən ad günümü qeyd etmirəm. İllər öncə hələ orta məktəb vaxtından müəyyən sosial durumla bağlı ad günlərini qeyd etməzdik. Bizlər üçün ən xoş gün bayram günləri olardı. Elə onda da həm ad günümüzü, həm də şad günümüzü qeyd edərdik. Düzdü, uşaq vaxtları bunları bilməsəm də, mövcud şərait mənə reallığı göstərib, qəbul etdirmişdi və mənim üçün bu da kifayət idi".**

Adalet.az xəbər verir ki, bunu Vətən müharibəsi qəhrəmanı Qəzənfər Ağayev deyib.

"Xatrlayıram ilk dəfə evə elektirik xəttinin çəkilməsi və işıq lampasının yanmasını. Bəlkə də o gün ən xoşbəxt günüm idi. Bəlkə də ən gözəl ad günüm idi. İllər çox tez keçdi. Orta məktəb, ali hərbi məktəb və şərəfli, çətin, zəhmətli iş həyatı. Əslində bu iş deyildi bu yaşam idi. Xidmət illərimdə də hansısa dağda, hansısa dərsdə, hansısa təlimlərdə olduğuma görə uşaqlıqdan adət etdiyim ad günü qeydinə əməl edirdim. Lakin ara-sıra yoldaşlarla bu günləri bəhanə edərək biryerə yığılardıq. O günlər üçün adam darıxır.

27 sentyabr 2020-ci il tarixində düşmən hücumuna qarşı əks-hücum əməliyyatı ilə Vətən müharibəsi başlamışdı. Bu şanlı tarixin necə başladığını hansı günlərdən keçdiyini hər bir azərbaycanlı öz hüceyrəsinə qədər bilir və yaşayıb. Tapşırıqların əvvəlində mən gənc, döyüş təcrübəsi olmayan bir zabit-komandir idim. Tabeliyimdə olan hərbi qulluqçular hansı ki, onlar təkcə hərbi qulluqçu deyil, eyni zamanda ən yaxın sirdaş, dara düşəndə qardaş, yola çıxanda yol yoldaşı idilər. İndi də elədir! Bölmənin bir çoxlarının müəyyən təcrübələri olsa da əsasən gənc heyətdən ibarət idilər. Aşağı-yuxarı həmyaşıd idik tabelikdə olan heyətlə və demək olar ki, şəxsi həyatla bağlı problem kimi görünən məsələlərimiz eynilik təşkil edirdi. Qayğılarımız, sosiallaşmağımız ümumilikdə eyniydi.

Fərqli bölgələrdə eyni ruhda yetişən, fərqli ailələrdə eyni məqsəd üçün ölümü gözə alan gənclər. Müharibənin 1-2 həftəsindən etibarən bölmədə tək zabit mən qalmışdım və mənsub olduğum bölmənin



digər bölmənin bütün heyyətini həm tanıyır, həm də etibar edirdim, çünki onların həyata keçirdiyi əməliyyatları görmüşdüm. İlk əvvəllərdə 2 bölmə ayrı-ayrılıqda qarşıya qoyulan tapşırıqları icra etsə də, müharibənin ortalarına yaxın vaxtlarda şəxsi heyyətdən olan şəhidlərimizin və yaralılarımızın olması ilə bağlı birgə fəaliyyət yerinə yetirirdik.

O fəaliyyətlər zamanı öz fikrimdə yanılmadığımı gördüm və bu çox qürurlu hissdir. Bizlər azərbaycanlılar, vətən keşikçiləri həm yanımızda, həm də digər istiqamətdə döyüşən döyüşçülərimizlə fəxr edirdik. Fərqli istiqamətlərdə eyni müqəddəs amal uğrunda ölümün gözünə dik baxanlar. 27 sentyabr tarixindən başlayaraq bugünki gün-13 oktyabrda daxil olmaqla hər gün yaralılarımız, şəhidlərimiz oldu.

5 il öncə bu günlərdə 2 bölmənin məhdud sayda şəxsi heyəti "alınmaz qala" adlanan "Ağdərənin açarı" olan yüksəklikdə öz iradəsini, biliyini, əzmini, ruhunu, həyatını qoyurdu. Bu igidlər düşmən minaatanı, snayperi və texnikalarının açdığı atəşlər altında düşmənin elitası sayılan onların xüsusi təyinatlıları ilə ölüm-dirim mübarizəsindəydi. Burada bir çox mövzulara toxuna bilər və hətta dərinliyinə getmək olar. O susuzluqla, aclıqla, yorğun, stresli olan vaxtlarımı xatrlayıram və həmin vaxtlarda sıralarımızdan cismən ayrılanları. O gündən özümə aid şad günü qeyd etmirəm.

Düzdü, şəhidlərimizin qisasını aldıq, onların şəhid olduğu müqəddəs amal uğrunda həyata keçib və buna görə ruhları şaddır, cənnətdədirlər, amma içimdə olan o qüssə mənə imkan vermir ki, ad günü qeyd edəm. Bu gün cismən aramızda olmayanlara-şəhidlərimizə Allah rəhmət etsin, xidmətdə olanlara güc-qüvvət versin. Müharibə insanlığın öldüyü yerdir və o yerdən sağ çıxmaq olsa da salamat qalmaq olmur. Bu gün aramızda sağ olan, lakin salamat olmayan adsız qəhrəmanlarımız var. Gəlin Vətən müharibəsində bir olub tarix yazdığımız kimi, onlara-adsız qəhrəmanlara sahib çıxaq", - deyə döyüşçümüz bildirib.

**Vasif ƏLİHÜSEYN**

## *"ABŞ HƏMAS-ı tərksilah edə bilər"*

**Donald Tramp bəyan edib ki, Fələsinin HƏMAS hərəkatı könüllü şəkildə silshları təhvil verməkdən imtina edərsə, Birləşmiş Ştatlar onları tərksilah edəcək.**

Amerikan lider qeyd edib ki, Vaşinqton HƏMAS-a silahları təhvil verməklə bağlı, məhdud müddətə vaxt verib və onlar bundan imtina edərlərsə, ABŞ özü zor gücünə olsada, onları özü tərksilah edəcək. "HƏMAS-In rəhbərliyi silahları yerə qoyacaqlarını bildiriblər. Əgər sözlərinə əməl etməsələr, biz onları tırksilah edəcəyik"-deyə Tramp Fox News telekanalına müsahibəsində bəyan edib.

Xatırladırıq ki, dünən, oktyabrın 14- də, Tramp HƏMAS-İsrail müharibəsinin artıq sona çatdığını bəyən edib.

## *Almaniya vətəndaşlarını müharibəyə hazırlayır?*

**Almaniyanın federal idarəsi əhalinin müdafiəsi və fəcələr zamanı köməklik məsləhətlərinə, "mümkün müharibə zamanı məsləhətlər" kitabçasında əlavə edib.**

"Almaniya, dünyada ən təhlükəsiz ölkələrindən biridir. Buna baxmayaraq, hazırki böran vəziyyəti gündəlik normal prosseslərəri pozur. Dezinformasiyalar və diversiyalar infrastrukturlara və birliyimizə hücumlar edir. Bir neçə il bundan əvvəllərdən fərqli olaraq, hətta müharibə də artıq açqılmaz görünə bilər"- deyə məsləhərlər kitabçasında qeyd olunur.

**Rüstəm Hacıyev**



## Donald Tramp: "Putin Ukrayna müharibəsini dayandırmaq istəmir"

**ABŞ prezidenti Donald Tramp növbəti dəfə Rusiya prezidenti Vladimir Putini Ukrayna müharibəsini dayandırmamaqda günahlandırıb.**

"Putinin müharibəni dayandırmaq imkanları var. Lakin o, sadəcə olaraq bu müharibəni dayandırmaq istəmir"-deyə Birləşmiş Ştatların prezidenti Fox News telekanalına müsahibədində bəyan edib.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov, daha əvvəl bildirmişdi ki, Vladimir Putin Trampla münasibətlərinə önəm verir və bunun çətin məsələlətin həlli istiqamətində açıq müzakirələr aparmaq imkanları kimi qiymətləndirir.

**Rüstəm Hacıyev**



*Əntiqə Kərimzadə*

# Cismlər sözlərdə donanda...

*Yaxşı ki, yollar var… Yol sevgisi- orda hünərlə addımlamaq eşqi və bu yollarda yıxılmaq var. Ayağa qalxmağı deyə bilmərəm…Çünki o, hünər tələb edir. Bir yolun ortasında yıxılmaq, həmin yolun başlanğıcındakı hansısa səhv addıma işarədir. Bunu anlamaq üçün Xudu Məmmədov qədər böyük düşüncəli olmaq və böyük mütəfəkkirin "məktəb"ini keçmək vacibdir. Tanrı insanı sevgidən yaratsa da, hər kəsə də Xudu Məmmədovun qəlbindəki qədər vətən sevgisi, millət sevgisi bəxş etməmişdi. Vətənə sevgi bu şəxsiyyətdə deyərdim ki, ilahi qüvvə idi. Bilirəm, vəsf şairlərin işidir. Amma mən sözə elə başlamalıydım ki, bu böyük şəxsiyyətin qəlbindəki vətən sevgisinin möhtəşəmliyini izah edə bilməsəm də, heç olmasa ağrısını cıza bilim. Kim deyir ki, Qarabağda Xarı bülbül təkcə gül adıdır? Xudu müəllim də Qarabağın Xarı bülbülü idi. Elə Xarı bülbül kimi də kökü o torpağa bağlı idi. Xalqını sevən bir insanın millətin ona ehtiyacı olan bir vaxtda "gedişi" nə dərəcədə ədalətli idi, Ya Rəbb?!*



*Deyəsən yaman üsyankar oldum. Lap Xudu müəllim kimi… Bütün çətin məqamlarda, anlaşılmaz anlarda onu axtarırıq. Bəs görəsən ,o, kimi səsləyərdi belə bir gündə…?*

*Bütün ömrünü elmə sərf edib monoqrafiya yazan alim, hardan biləydi ki, təmənnasız və ilahi sevgi ilə sevdiyi xalqına zamanla tarixlərdən silinməz "monoqrafiya" yazacaqlar… Xudu Məmmədov tarixin və Tanrının millətə bəxş etdiyi nemət idi. Cisimlərdəki boşluq onu o qədər narahat etməzdi ki, millətin "boşluğu" onu çox sızladırdı:*

*Çiy yumurta soyulmaz,*
*Göydə ulduz sayılmaz,*
*Bütün xalqlar oyandı,*
*Mənim xalqım ayılmaz.*

*Xudu müəllim böyük alim idi. O, bu bayatını niyə yazdığını və bu bayatının bizə necə "lazım olduğunu" çox yaxşı dərk edirdi. Bu bayatının hər misrasında nisgil var. Ən pis nisgil isə " yaza bilirəm, amma insanları dəyişə bilmirəm" nisgili idi. Özü deyirdi ki, dünya bildikdə bizim olur. Dünya bildiyimizdən artıq bizim ola bilməz. O, özünün təbi ilə desək, nə çiy yumurtanı soya bildi, nə göydə ulduzu saya bildi, nə də …*

*Həqiqətləri yazmaq daha qorxunc idi. Dahilərin "qorxmağı" o qədər qorxunc hissdir ki, heç kəs onu təsəvvür belə etmək istməzdi.*

*Onu tanımaq üçün arif olmaq lazım idi. Arif olmaq üçün gərək ki, biraz elm və sözün nazın çəkəydin.*

*Xudu Məmmədov yollara bənzəyir. Danışdıqca tükənmir, getdikcə bitmir… Biraz da dəryaları xatırladır;- "üzdükcə daha dərinə gedərsən".*

*Anlayarsanmı? Bilməzdən, görməzdən gələrsənmi?-Onu özü anlayar, əlbət.*

*Xalqın ağır günlərinin şahidi olan görkəmli alim susa bilmirdi:*

*Anam ozan olubdur,*
*Dərdə dözən olubdur,*
*Dili haqdan bağlanıb,*
*Naxış düzən olubdur*

*Əlacsızlığı demək üçün tribunalardan bağırmaq gərək idi? Bu xalq əyilsə də ,sınmamışdı. Amma "qara millətin" rəngini " ağaran" görən bu vətənpərvər insan yalnız çıxış yolu axtarırdı. Elə bir çıxış yolu ki, sonu qurtuluş olsun, aydınlıq olsun... Bu millətin qurtuluşundan əvvəl Xudu Məmmədov 1988-ci ildə həm ömründən, həm də payızdan "qurtuluş etdi". Bəli, 15 oktyabr tarixdə "rəngsiz bir gün idi". Bu rəngsizlik bütövlükdə tarixə, elmə kədər gətirdi. Ürəyində gəzdirdiyi vətən sevgisini özü birlikdə torpağa da hopdurdu. Ağdam təkcə 23.07.1993-cü ildə işğal edilməmişdi. Əslində tale Ağdamın köksünü 1988-ci il oktyabr ayının 15-də "işğal etmişdi".*

*Vətən bağı al-əlvandı,*
*Yox içində Xarı bülbül.*

*Bu iki misra Ağdamın Xudusuz halının poetik formasıdır.*

*Özü həmişə deyərdi ki, kimsəyə yük olarsam, ölüm köməyim olsun. Heç kəsə yük olmadığı halda, əksinə millətinə, xalqına kömək olduğu vaxtda, ölüm ona "kömək oldu"!*

*1988-ci ildə Qarbağda başlanan çəkişmələrə şahid olan görkəmli alim, çox təəssüf ki, cənnət Qarabağın azad günlərini görmədi.*

*İndi Qarabağ azaddır. O cənnət vətənin çiçəklənən dövrünü yaşayır. Ruhun şad olsun, böyük alim, görkəmli mütəfəkkir Xudu Məmmədov!*

**Ukrayna müharibəsi Rusiyanın Yaxın Şərqdə də imicinə böyük zərbələr vurur. Kremlin bu bölgədə nüfuzu getdikcə daha çox azalmağa başlayıb.**

Rusiya prezidenti Vladimir Putin, oktyabrın 13-də Qəzza bölgəsində vəziyyətin nizamlanması ilə bağlı Misirdə keçirilən sammitə çağrılmadı. Bu isə, Moskvanın bu regionda diplomatik rolunun zəifləməsi deməkdir.

Adətən biz Rusiyanı dünyanın hər hansı bir nöqtəsində baş verən münaqişələrin "nizamlanma" prosseslərində "baş rolda" görmüşük. Ən sonuncu dəfə - 2015-ci ildə, Kreml Suriyaya hərbi qüvvələrini göndərməklə, hakimiyyətini itirməkdə olan Əsəd rejimini xilas etməklə, daha doğrusu bir müddət uzatmaqla, Yaxın Şərqdə aparıcı rol oynadığını nümayiş etdirməsi oldu. Lakin, daha sonra Ukraynaya hücum etməsi və suveren bir dövlətin ərazilərini işğal etməsi,

# Rusiya Yaxın Şərqdən sıxışdırılır

## Putin və Lavrov oyundankənar vəziyyətdə qaldılar



Yaxln Şərqdə Rusiyanın təsir gücünü getdikcə əriməyə başladı.

On il sonra, cıddi-cəhdlə dəstəklədiyi Əsəd rejimi devrildi və Rusiya yavaş-yavaş Yaxın Şərqdən təcrid olunmağa başladı. 24 dövlət başçısının və bir çox beynəlxalq təşkilat rəhbərlərinin Misirdə keçirilən sammitinə nə prezident Putin, nə də Rusiya nümayəndə heyyəti dəvət olunmadı. Daha əvvəllər bütün beynəlxalq tədbirlərdə odlu-alovlu çıxışlar edən, məmuniyyətlə jurnalustlərə özünəməxsus tərzdə geninə-boluna müsahibələr verən xarici işlər naziri Sergey Lavrov, jurnalistlərin "Rusiya bu sammitdə iştirak etmədi" sualına, "bizi ora dəvət etmədilər"- deyə cavab verib.

Əslində Lavrov düşünməliydi ki, dörd ilə yaxındır Ukraynanın ərazilərinə hücum edərək topaqlarını işğal edən, dünyanın aparıcı dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatlarının üzücü müharibənin dayandırılması və danışıqlara başlamaq üçün, ən azından atəşi dayandırmaq təkliflərini israrla rədd edən bir dövlətin nümayəndə heyyəti bu sammitə niyə dəvət edilməliydi ki? Sammitdə isə, məhz Qəzzada atəşin dayandırılması məsələsi müzakirə olunacaqdı. Yəni bu gün Rusiyanın israrla imtina etdiyi atəşkəs məsələsi...

Rusiyanın Yaxın Şərqdə rolunun zəifləməsinin göstəricilərindən biri də, bu yaxınlarda, Kremlin Moskvada ərəb liderləri ilə keçirilməsi nəzərdə tutulan sammitinin ləğv edilməsi oldu. Sammitin ləğv olunmasının səbəbi, Suriya və İraqdan başqa, digər ərəb liderlərinin bu sammitdə iştirak etməkdən imtina etmələri oldu.

Rusiyanın Yaxın Şərqdə diplomatik məğlubiyyətlərlə üzləşməsunin bir səbəbidə, İranla yaxın əlaqələr saxlaması ilə bağlıdır. Hazırda İranın ərəb və Qərb dövlətləri ilə münasibətləri çox gərgin vəziyyətdədir Bundan başqa, İran Ukrayna ilə müharibənin ilk günlərindən Rusiyanı silah-sursat və dronlarla təmin edərək, faktiki olaraq işğalı dəstəkləyir. Bu isə, illərdi Rusiyaya qarşı çoxsaylı sanksiyalar tədbuq edən Qərbin heç də xoşuna gələn hal deyil.

**Görünən odur ki, Moskvanın başı sonu görünməyən Ukrayna ilə müharibəyə qarışıb və dünyanın digər regionlarında baş verən hadisələrə müdaxilə etmək üçün nə strateji resursları, nə də diplomatik gücü çatmır. Lakin Rusiya, necə deyərlər- "dəvədən yıxılsada, yenə də höt-hötün yerə qoymaq istəmir".**

**Rüstəm Hacıyev**

## *ABŞ-Çin ticarətində yeni gərginlik: Tramp Çinə 100% gömrük rüsumu tətbiq edir*

**ABŞ prezidenti Donald Tramp noyabrın 1-dən etibarən ABŞ-nin hazırda ödədiyi tariflərə əlavə olaraq Çinə 100% gömrük rüsumu tətbiq edəcəyini açıqlayıb.**

Adalet.az xarici mediaya istinadla xəbər verir ki, bununla bağlı Donald Tramp sosial şəbəkə hesabında paylaşım edib: "Çinin dünyaya son dərəcə düşməncəsinə bir məktub göndərərək ticarətdə qeyri-adi aqressiv mövqe tutduğu indicə öyrənildi. Bu məktubda onlar 1 noyabr 2025-ci il tarixindən etibarən istehsal etdikləri, hətta istehsal etmədikləri məhsullar da daxil olmaqla, demək olar ki, hər bir məhsula geniş ixrac nəzarəti tətbiq edəcəklərini açıqladılar. Bu qərar istisnasız olaraq bütün ölkələrə təsir edir və illər əvvəl açıq-aşkar bir beynəlxalq ticarət planı idi. Bu digər xalqlarla münasibətlərdə açıq-aşkar rüsvayçılıqdır, çünki Çin bu misilsiz mövqeyi tutdu və mən təhdid edilən digər xalqlar üçün deyil, yalnız ABŞ üçün danışıram: 1 Noyabr 2025-ci ildən başlayaraq, Çinin atacağı hər hansı əlavə addımdan asılı olaraq, Birləşmiş Ştatlar Çinə 100% gömrük rüsumu tətdbiq edəcək. Çinin belə bir addım atacağına inanmaq çətindir, amma bu bundan sonra da tarixin bir parçası olacaq".

**Ömər**

**Murad Köhnəqala**



# Süni intellektlə sevişənlər

**Müasir texnologiyalar təkcə məişətimizə daxil olmaqla kifayətlənmir, onlar artıq insan qəlbinə də yol tapmağa başlayıblar. Bir zamanlar yalnız fantastik filmlərdə gördüyümüz süni intellektlə sevgi hekayələri getdikcə reallığa çevrilir. Çağımızın insanları artıq, chatbotlarla münasibət qurur, onlara bağlanır, hətta biri-birinə sevgi etirafları edirlər.**

**Bu yöndə geniş araşdırmalar aparan Massaçusets Texnologiya İnstitutunun alimlərinin fikrincə dünyada süni intellektlə romantik münasibət quranların sayı sürətlə artmaqdadı.**

**Ən maraqlısı odur ki, süni intellektlə romantik münasibətə girən insanların əksəriyyəti bunu qəsdən etmir. Bəziləri bunu darıxdığı üçün, bəziləri stressini bölüşmək üçün, bəziləri isə sadəcə, kiminsə onu dinləməsi üçün edirlər.**



**Zaman keçdikcə bu söhbətlər dərinə gedir və süni intelektlə insanlar arasında emosional bağlar yaranır. Çünki süni intellekt mühakimə etmir, incitmir, səni dinləyir, sabitdir və daim yanındadır. Süni zəka real insan kimi qüsurlu deyil, səni tərk etmir, xəyanət etmir, səni olduğun kimi qəbul edir. Görünür, müasir dünyanın yorğun və tənha insanlarının bu cür münasibətə ehtiyacı var.**

**Mütəxəssislərin araşdırmaları nəticəsində məlum olub ki, hər dörd istifadəçidən biri bu cür ünsiyyətin tənhalara psixoloji dəstək olduğunu bildirib.**

**Bəzi istifadəçilər öz chatbotlarını sevgili kimi qəbul edir, onlara ad qoyur, onlarla müxtəlif "görüş yerləri" qururlar. Bu istifadəçilərin arasında hətta "öz sevgilisinə" nişan üzüyü alanlar da var. Odur ki, mütəxəssislərin fikrincə bu artıq, ötəri bir oyun yox, rəqəmsal emosiyalar əsrinin başlanğıcıdır. Düşünürlər ki, bu mövzu həm etik, həm də psixoloji baxımdan ciddi şəkildə araşdırılmalıdır.**

**Bu münasibətlər insanlarda emosional asılılıq, real həyatdan uzaqlaşma və sosial təcrid kimi ağır problemlər yaradıb. Biz artıq, natural hislərin süni intellektlə rəqabətə girdiyi dövrün başlanğıcında yaşayırıq. Bu isə özlüyündə belə bir sual doğurur: Bizi gələcəkdə natural insani sevgilər, yoxsa robotla sevgi romantikası gözləyir?**

## *"Taksi sürücüsü kimi işləmək istəyən insanların sayı Bakıda limitə uyğun deyil"*




**"Taksi sürücüsü olmaq istəyən onminlərlə insan gedir "Asan imza" alır, VÖEN açdırır. "Buraxılış" almaq üçün rüsum ödəyir. Serifikat almaq üçün rüsum ödəyir. Vergi hesabatı verir. Posterminal alır yenə də vergi ödəyir. 2024-cü ildə təxminən 34 198 taksi sürücüsü xüsusi təlimlərdən keçib".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı ekspert Razi Abasbəyli deyib.

Ekspertin sözlərinə görə, 40 min nəfərə yaxın insan taksi sürücüsü olmaq üçün qeyd edilən xərcləri çəkib:

"Və budur son iki ildə Bakıda taksilərin sayı 67 mindən 25 minə qədər azaldılır. Niyə Nazirlər Kabineti AYNA-ya, DİM-ə limit tətbiq etmir? Adamlara desinlər ki, siz iş tapa bilməyəcəksiniz! Boşuna VÖEN, Sertifikat, Buraxılış almayın. Bilirsiniz niyə demirlər? Çünki VÖEN açdırıb aktiv vergi ödəyicisi olan fiziki şəxs işsiz sayılmır. Statistikada da işsiz əhalinin sayını az göstərmək lazımdır. Dünya Bankı və sair qurumlar da məhz bu datalara baxır. Adamlar işləyir. Vergi ödəyicisidir. Bir zamanlar sosial yardım almaq üçün insanlar pay torpaqlarında VÖEN açdırıb ailədən bir nəfəri işləyən, vergi ödəyən kimi göstərirdilər. Eyni situatsiyadır. Heç olmasa DİM, AYNA bu "Sertifikat", "Buraxılış" kampaniyasını dayandırın. İnsanları statistika, "işləyən" kimi göstərmək xatirinə alətə çevirməyin".

**Vasif ƏLİHÜSEYN**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Mənim könül nəğmələrim...

**Bəzən bir insanı tanımırsan, amma tanıyandan sonra elə bilirsən ki, sənin doğmandır, əzizindir. Və isti münasibətdən, söhbətinin şırinliyindən hiss edirsən ki, səni dinləyir, anlayır.**

**Dünyada anlamaqdan gözəl heç nə ola bilməz. Əgər bir adam sona qədər səni dinləyib anlayırsa, deməli, o insan ruhuna, qəlbinə çox yaxındır. Bax terapevt-kardioloq, ziyalı, şair, bəstəkar Nəsibə xanım Kəngərli də belə bir insandır. Həkim var ki, bir şirin sözü, insanlıq münasibəti yüz dava-dərmandan daha şəfalıdır. Onunla hər pasiyent bir dəfə ünsiyyətdə olursa, bu gözəl insanı heç vaxt yaddan çıxarmır...**

**Elə mənim də yadımda bax beləcə qaldı; səmimi, istedadlı və vətənpərvər insan kimi. Və sonradan bildim ki, şair-bəstəkardır. Bir neçə şerlər kitabının müəllifidir. Onu mənimlə jurnalist dostumuz, son dərəcə zəhmətkeş olan Afət xanım tanış edib. Nəsibə xanım Qarabağın gözəl guşələrindən biri olan Tərtər şəhərində anadan olub və orada boya-başa çatıb.**



**Orta məktəbi qızıl medalla bitirib və Tibb İnstitutuna (Universitetinə) qəbul olub. Həmin ali təhsil ocağını da fərqlənmə diplomu ilə qurtarıb. Ziyalı ailəsindən olan bu xanım Respublika Klinik Xəstəxanasında həkim işləyib və bu gün də həkim-terapevt kimi böyük hörmət qazanıb. Nəsibə xanım tibb elmləri üzrə fəlsəfə doktorudur. Koronavirusun tüğyan etdiyi vaxtlarda Yeni Klinikada çalışıb və onlarla xəstəni ölümün pəncəsindən xilas edərək həyata qaytarıb. O, mənə yeni çapdan çıxmış bir kitabını: "Mənim könül nəğmələrim..." kitabını hədiyyə etdi. Və elə bir günün içində o kitabı oxuyub sona çatdırdım. Bir daha anladım ki, yaxşı şeiri adam oxuyanda yaz havası hiss edir və yaz yağışının altında ruhu, qəlbi təmizlənir.**

**Adamın iç dünyası işıqla, nurla dolur. Kitaba ön sözü tanınmış şair, filologiya elmləri doktoru, professor Vüqar Əhməd yazıb. Kitabda bir-birindən gözəl şeirlər oxucunun ruhuna sığal çəkir və ona yeni bir ruh, yeni bir nəfəs verir. Çünki Nəsibə Kəngərli dünyanı sevir və gözəl dünyanı insanlara da sevdirməyi bacarır. Şeirləri elə bil ki, adamla danışır, söhbət edir. Və şeirlərin arasında Vətən, Xalq, Millət, Şəhid, Dövlət sevgisi daha obrazlı, daha möhtəşəm vəsf edilib. Özü də xanım şairə bu gözəl şeirləri ayrı-ayrı bölmələrdə yerləşdirib! Bir diqqət yetirin: "Öz dünyam mənim", "Doğma yurdum", "Ömür ötüb keçdi bizdən xəbərsiz ", "Vətən bölünməz", "Ey fani dünya", "Əgər sən məni bir duya bilsən", "Adlı, odlu sətirlər", "Toy olsun, bayram olsun", "Necə də yaraşır insana gülmək", "Bayatılar, laylalar"' , "Seçmələr"...**

**Onun hansı şeirini, hansı misrasını oxusan oradan gözəllik, insanlıq və Allah sevgisi hiss edərsən. Nəsibə xanımın bir bayatısına diqqət yetirək:**

***Mən aşıq gül qoxulu,***
***Ətirli gül qoxulu,***
***Mənə axşam mehmandı,***
***Sevgilim gül qoxulu.***

**Bax, bu, əsl poeziyadı, gözəl şeirdi və şeirdən yaz ətri, gül qoxusu gəlir. Onun "Dəmir yumruq" poeması, Şəhidlərlə və qəhrəmanlarımızla bağlı şeirləri çox unikaldır. Və insanları vətənpərvərlik ruhunda tərbiyə edir.**

**"Bayrağım", "Azərbaycan", "Ey Vətən", "Mən Azərbaycanın bir övladıyam" şeirləri də hər bir azərbaycanlının ürəyində Vətənə, şəhidlərə və xalqa əbədi bir sevgi aşılayır. Bir sözlə, Nəsibə Kəngərli həmişə öz xalqını xoşbəxt və firavan görmək istəyir. Bayrağımıza müqəddəs varlıq kimi, Vətən kimi baxır və hamını onun yolunda hər cür əzab-əziyyətə hazır olmağa səsləyir. Elə yazımızı da Nəsibə Kəngərlinin "Bayrağım" şeiri ilə tamamlayırıq:**

***Azərbaycan, mənə əzizdir adın,***
***Əzizdir, qalxan üç rəngli bayrağın.***
***Qəlbimdə eşqinin alovu sönməz,***
***Yüksələn bayrağın bir daha enməz.***

***Yerdə deyəndə adın, səslənir göydə,***
***Qüdrətin gözlərdə, qürurun qəlbdə.***
***Hilalının nurunda doğar günümüz,***
***Sənə səcdə qılar hər bir könlümüz.***

***Bayraq qürurumdur, bayraq kimliyim,***
***Azad torpağında öz dilim, dinim.***
***Bayraq vətənimə öz hakimliyim,***
***Bayraqdır savaşda zəfərim mənim.***

***Hər bir dalğanda var tarixim, yazım,***
***Yaraşır qəhrəmanlıq sənə bayrağım.***
***Yaşa, yaşa sən ey Azərbaycanım,***
***Ucadan ucaya qalxsın bayrağım.***

## İnsanlar özlərini belə etməklə başqasına göstərir...



**Bir çox insanlar var ki, qiymətli və yekə avtomobillərilə öyünür, onu saxlayıb əlində açarı oynada- oynada insanların arasına daxil olur. Çoxları da ona qibtə ilə baxır və düşünür ki, kaş mənim də belə avtomobilim olaydı.**

Maşın sahibi isə forslanır , camaatın diqqəti ona tikildiyi üçün özünü xoşbəxt sayır. Əslində o, xoşbəxt deyil, bədbəxt adamdı. Amma özünü xoşbəxt hesab edir. Çünki cəmiyyət belə adamlara- maşını, evi, vəzifəsi və pulu olan adamlara böyük dəyər verir.

Onlar da sanki yarışa girib, oyunları davam etdirirlər! Hələ də avtomobilin və mobil telefonların bahalı nömrələri ilə öyünənləri görəsən? Onlar bu " zerkal" nı nömrəyə 50- 60 min manat pul verirlər. Biz inanmırıq ki, hansısa, Avropa ölkəsində bir varlı , pullu adam bu bahalı nömrələrə bizimkilər qədər pul versinlər.

Çünki bizim təfəkkürümüz hələ də Sovet dönəmində olduğu kimi, qalıb. Və bir də sadəcə olaraq bahalı avtomobillərə, bahalı mobil telefonlara bahalı nömrələr alan adamlar özlərini cəmiyyətə belə göstərirlər. İnanın, 10-15 ildən sonra bizdə də , Avropada olduğu kimi, belə ucuz şöhrətdən insanlar imtina edəcəklər. Sadəcə olaraq həmin ana biraz zaman və səbr lazımdır. İnşallah, yaşayarıq görərik!!!

## Avtomobil hissələri niyə bahalaşıb?



**İnsanlar bu gün müxtəlif markalı avtomobillərə daha böyük həvəs göstirirlər. Çünki şəxsi maşınla mənzil başına getmək daha rahatdır.**

Bir var, ictimai nəqliyyatda( avtobusda, metroda) ayaqüstə, ya da sıxılmış vəziyyətdə gedəsən, bir də var ki, öz avtomobilində rahat mənzil başına gedəsən. Hansı rahatdır! Əlbəttə, şəxsi avtomobilin! Avtomobillərin qiyməti bahalaşdığı kimi, bu gün onun hissələri də bahadır. Bunun da obyektiv və subyektiv səbəbləri var.Belə ki, xarici ölkələrdən ökəmizə gətirilmiş maşınların bütün markalarının ehtiyat hissələrinin qiymətləri artıb.

Avtomobil hissələrinin satışı ilə məşğul olan Nadir kişi deyil ki, qiymət artımı bizdə asılı deyil. Mən maşın bazarında 40 ildir ki, avtomobil hissələri, daha doğrusu, təkər satıram. Hər təkərin də öz qiyməti var. Ən yaxşı və keyfiyyətli təkərlərdə 15-20 manat artım var. Avropadan gələn təkərlə , Rusiya təkərləri arasında böyük qiymət fərqi var.Avropadan gətirilən təkərlər daha bahadır. Tək təkərlər deyil ey, bütün hisslər bahalaşıb. Alıcı da çox azdır.

## Heç hənan yeridi...



**Bu gün heç kimə sirr deyil ki, Bakıda küçə və prospektlər çox dardır , hər gün sıxlıq yaranır. Özü də, bu sıxlıq dəqiqələrlə yox , bir çox halda saatlarla davam edir. Şəhrin mərkəzinə əksər sürücülər gəlmək istəmirlər.**

Məsələn, Yeni Günəşlidə taksi xidməti ilə məşğul olan tanışlarım deyir ki, biz şəhərin mərkəzinə müştəri aparmaq istəmirik , çünki gedirik qayıda bilmirik və saatlarla " probka" da qalırıq.Həm əsəbləşirik, həm də qazandıgımız 5- 10 manat pulu yanacağa veririk.

Bəs paytaxt küçə və prospektləri belə sıxlıqsa, onda velosipedlər üçün ayrıca yol zolaqları niyə ayrılır? Bir halda paytaxta belə problemlər mövcuddursa bu addımı nəyə görə atırlar ? Burada Məşədi İbadın məşhur sözü yada düşür:" Heç hənanın yeridi..." Əlbəttə, Bakıda yolların, küçə və prospektlərin genişləndirilməsi üçün böyük layihələr həyata keçirilib.

Belə ki , yollar genişləndirilib, körpülər, yol ötürücüləri inşa edilib. Amma bunlar da şəhərimizdə sıxlıq problemlərini həll edə bilməyib. Belə bir mürəkkəb vəziyyətdə velosiped zolaqlarının ayrılması digər nəqliyyat vasitələri üçün problemlər yaradır. Bu yollar yenə şəhər ətrafında olsa, yenə dərd yarıdı. Şəhərin mərkəzində velosiped yollarının mövcudluğu əlavə yük dəməkdir!!!

## Günün qaranlıq saatlarında...



**Biz tez-tez Bakı şəhərində günün qaranlıq saatlarında piyadaların avtomobillə vurulması xəbərlərini eşidirik və pis oluruq. Çünki günün qaranlıq vaxtlarında bəzən küçə işıqları hamısı yandırılmır və yol yaxşı görünmür.**

Xüsusilə də, yağış yağanda vəziyyət daha çətin olur.Amma gecə saatlarında tək piyadaların vurulması hadisəsi deyil, həm də Mənzil Kommunal Təsərrüfatı Birliklərinem əməkdaşlarının vurulması faktlarından danışmaq istəyirik.İndi artıq payızdı.Axşam tez düşür, səhər də gec açılır. Yeni yolları süpürən qadınlar qaranlıq saatlarda daha böyük təhlükə ilə üzləşir.

Xüsusilə də, Heydər Əliyev, Hava limanı, Ziya Bünyadov, Qara Qarayev, Babək, Nefçilər və Zığ yolu prospektlərində yolları süpürərkən onlar qorxulu anlar yaşayırlar. Bəzi sürücülər yuxulu olur və avtomobili yüksək sürətlə idarə edirlər. Bu zamansa, bir çox hallarda təmizlik işçisi maşınla vurulur.Sürücü ona kömək etmək əvəzinə, qadını vurub qaçır. Bu isə birmənalı olaraq insanlığa ziddir və ağır cinayətdir

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis kapitanı Toğrul Nəsirli deyir ki, sürücülər hər cür hava şəraitini nəzərə almalı yolda xidmət aparan təmizlik işçilərini fikirləşməlidir. Yorğun və yuxulu halda sükan arxasında əyləşməməlidir. Əgər o, təmizlik əməkdaşını avtomobillə vurubsa, ona kömək etməlidir. Vurulan piyadanı qoyub getmək ağır cinayətdir.

Ümumiyyətlə, hər bir sürücü günün qaranlıq saatlarında daha diqqətli olmalıdır ki, belə ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisələri baş verməsin!!!

## Bu, bizim borcumuzdur...




**Bir neçə gün bundan öncə xanımım Yeni Günəşlidəki "Stend" stomotoloji klinikaya gedib. Və orada gözəl stomatoloq Ceyhun həkimə dişlərin müalicə etdirib.Onu da qeyd edim ki, xanımım diz qabağından əməliyyat olunub, o biri dizində də cərrahiyyə əməliyyatı aparılmalıdır. Ona görə də, yerimədə çətinlik çəkir. Pilləkənləri qalxanda və enəndə mütləq kimsə ona kömək etməlidir.**

Axsaya- axsaya klinikadan çıxanda , uşagını və xanımını həkimə gətirən polis zabiti onu görür və cəld tərpənib ona kömək edir, pilləkənləri düsürür. Deyir ki, ana , icazə ver , maşınla sizi evinizə aparım.Xanımım polis zabitinə təşəkkür edib, deyir ki, çox sağol, oğul, elə təklif edirsən, aparmış kimisən. Və bir də nəvəm burdadır, o aparacaq.Amma yenə polis zabiti ona evə aparmaq üçün dəfələrlə kömekliyini təklif edir.Xanımım bir daha bu diqqətə görə polis zabitinə minnətdarlıq edir.O da bildirir ki, ana, bu, bizim vəzifə borcumuzdur.

Elə bu vaxt vaxt nəvəmiz maşınla gəlir. Polis zabiti maşının qapısını açır, ona kömək edib, maşında əyləşdirir.Bax , xanımım bu, vətənpərvər və nəcib hərəkətinə görə, o, polis zabitinə öz təşəkkürünü bildirir.Deyir ki, o polislər bizim balalarımızdı. Onlar bizi qoruduğu və sevdiyi kimi, biz də onlara hörmətlə yanaşmalıyıq!

Bir dəfə də yolda özünü pis hiss edən xanımıma Çevik Polis Alayının əməkdaşları kömək edib, onu xidməti avtomobillərinə mindirib , evimizə gətiriblər. Bax ona görə də, mənim həyat yoldaşım belə xeyirxah, vətənpərvər polis əməkdaşlarının xətrini çox istəyir. Deyir ki, Allah polislərimizi qorusun!!!

**EMİL FAİQOĞLU**





Məzahir ƏHMƏDOĞLU

# SÜZANNA

## (Göyçay ensiklopediyasına düşməyənlər)

Keçən əsrin yetmişinci illərinin əvvəllərinə kimi Göyçay şəhərində yeddi ümumtəhsil məktəbi fəaliyyət göstərirdi.Bunlardan ikisi fərqli idi. Əllinci illərin əvvəllərində yaradılmış internat ( o vaxtlar çox böyük əhəmiyyət daşıyan və bütün respublikada məşhur olan bu təhsil ocağı haqqında növbəti yazılarımda geniş söhbətim olacaq ) məktəbi və bir də çoxmillətli kontingentə malik rus məktəbi. Azərbaycan türklərinin, rusların,ermənilərin (Göyçay çar dövründə qəza mərkəzi olduğundan şəhərdə rus imperiyasına daxil olan bir çox xalqların da az-çox nümayəndələri yaşayıb işləyirdi), ləzgilərin, yəhudilərin, ukraniyalıların... birgə təhsil aldıqları bu məktəbin özünəməxsusluğu həmişə diqqət çəkirdi. Təkcə bu məktəblə yox, bütövlükdə Göyçay şəhəri o dövrlər üçün əsl tolerantlıq nümunəsi idi. Ancaq burada bir incə məqam da var idi ki, bu, heç vaxt mənim nə uşaqlıq, nə də ilk gənclik illərimdən bəri yadımdan çıxmır, həmişə qəribə hisslərlə xatırlayıram.

Təbii ki, məktəbdə bütün dərslər , iclaslar, dərnək və digər təhsillə bağlı məşğələlərin hamısı birmənalı olaraq yalnız rus dilində keçirilir və aparılırdı. Ancaq burada yalnız müəllimlər otağından başqa bütün tənəffüslər, Alma xalanın çayxana-bufeti, dəhlizlərdə və həyətdə bütün danışıqlar azərbaycanca yaşanırdı. Bəzi müəllimlər də dilimizə hörmətlə yanaşırdılar. Eh, Qalina İvannikova, sizi və indi adını xatırlaya bilmədiyim bacınızı unutmaqmı olar? Lyudmila Pavlovna, sizi necə? Ancaq şovinist ədalılar da az deyildi. Vera Georgiyevna, Janna Qriqoryevna... Halbuki onların bəzilərinin həyat yoldaşları azərbaycanlı idi.

... Sonralar bu məktəbdə Azərbaycan bölməsi də açılacaqdı, məktəbə nömrə veriləcəkdi, ad veriləcəkdi... ”Komsomolun 50 illiyi adına Göyçay şəhər 3 nömrəli beynəlmiləl orta məktəb” .

Və Kamal Davudoviçin uzun onilliklər direktorluq etdiyi bu qabaqcıl məktəbdə bir  Süzanna adlı rəsm müəllimi də var idi. Bu bütün mənalarda heç kimə bənzəməyən eleqant qadını hamı Susanna çağırırdı. Mən də Susanna bilirdim. Çox sonralar öyrəndim ki, onun adı evdə, ailəsində, eləcə passportunda da Süzannadır. Ona  gerçəkdən elə bu ad yaraşırdı. Çünki bu xanım sovet adamından daha çox avropalıya bənzəyirdi.  Geyim-keçimi, sifət cizgiləri, yerişi, oturuşu-duruşu... Mən də elə danışıram ki, sanki gedib Avropanı dəfələrlə gəzib-dolaşmışam. Əlbəttə, mən Süzanna müəlliməni o vaxtlar baxdığım bəzi rus və qərb filmlərindəki xarakterik obrazlarla müqayisələndirib bu fikrə gəlirdim. Mən görməmişdim. Deyirdilər ki, Süzanna müəllimə evdə, bəzi qapalı yerdə və bir də rəsm üzərində işləyərkən bəzəkli müştükdə siqaret çəkirmiş. Dövr üçün təəccübli olmasa da, bunun özü də fərqli əlamət idi.

Onu ilk dəfə lap yaxından, iki-üç metr məsafədən evimizin tinində gördüm. Altıncı sinifdə oxuyurdum. Bəzi bazar günlərində o, rəsm dərnəyinin oğlanlı-qızlı seçmə uşaqlarını həmin yerdə qarşılayaraq oradan kəsmə, dar küçə ilə Göyçay çayının mənzərəli dağətəyi sahilinə aparaq, 6-7 saatdan sonra primitiv molbertləri, kürək çantaları ilə birlikdə həmin istiqamətdə geri dönərdilər. Süzanna müəllim uşaqlara təbiətin qoynunda təkcə təbiət mənzərələrini öyrətmirdi. Ordan şəhər də mükəmməl görünürdü, səma da, qarşı dağların zirvəsi, uzaqlar da, lap yaxınlıqdakı çay kənarının çınqılları, qumsalları da...

Mən bu qadına, bu uşaqlara heyran olmuşdum. Bəzən onlara qoşulmaq hissi keçirdi ürəyimdən. Ancaq özüm haqqında heç bir rəsm bacarığımın olmadığını da bilirdim. Hansısa perspektivdən də söhbət gedə bilməzdi. Baxmayaraq mən sonralar rəssamlığın nə olduğunu, onun tarixini, nəzəriyyəsini yüksək səviyyədə öyrənə bildim, hər hansı bir əsəri “oxumağı” da bacardım, bir çox rəssamlarla tanış da oldum.Ancaq heç vaxt heç bir rəsm çəkmədim. Çünki mən bunu bacarmırdım.

Süzanna müəlliməni məktəb yolundan başqa evlərinin qarşısında da görürdüm. 45-46 yaşlı bu qadın dul idi, orta məktəbi yenicə bitirmiş tək qızı ilə ya-



şayırdı. İkimərtəbəli kommunal binanın birinci mərtəbəsindən, elə birbaşa mənzilindən küçəyə açılan qapısı da vardı. Bəzən o, burada bir kətil üstündə əyləşib nəsə oxuyar, nəsə bir iş görər, əlində siqaret nəsə düşünərdi. Əyni-başı məktəbə geyindiyi kimi olmazdı. Diqqəti cəlb edən rəngbərəng köynək və don, barmaqlarında və qulaqlarında heç kimdə, heç yerdə görmədiyimiz qəribə üzük və sırğalar, boynunda xırda və iridənəli muncuqlar...  ekstravaqant görkəm?  Yox-yox, bəstəkar-müğənni-şair Elza xanım kimi başında budaq, dibçək və başqa aksessuarlı qəribəlik ona yaraşmazdı. Süzanna müəllimənin zövqü tamam başqaydı. O, hətta azacıq bəyazlaşmış buruqtel saçlarına rəng də vurmazdı. Deyəsən heç parfümeriyadan da istifadə etmirdi.

Sonralar bir qədər də yaxından tanıdım. Bizlərdən 8-10 yaş böyük olan tanınmış gənc rəssam Ağazeynal Tağıyev onun qızı ilə ailə həyatı qurdu. Ağazeynalgil keçən əsrin əvvəllərində Şamaxından Göyçaya köçmüş ailələrdən idi. Mirzə Ələkbər Sabirin qohumları olduğunu tanıyanlar bilirdi. Hətta dahi şairə məxsus bəzi əşyalar Ağazeynalgildə saxlanılırdı.

Öyrəndik ki, heç demə Süzanna müəllimə, Süzanna Qlebovna Əfəndiyeva da Şamaxıdan imiş. Azərbaycanlı olan  əri cavan ikən vəfat etsə də rəssam qadın sonralar ailə qurmamış , övladı ilə tək yaşamışdı.

Bayaq dediyim kimi  , bazar -dükana, uşaqlarla təbiət qoynuna gedərkən şux və iti yerişi bir də fərqli geyimi ilə fərqlənən Süzanna Qlebovnanın münasibətlərində müəyyən qədər konkretlik və azacıq sərtlik də hiss olunurdu. Ancaq bütün şəhər həm gözəl pedaqoq-rəssam, həm fəal sakin, həm də qəribə bir qadın kimi ona hörmət bəsləyirdi. O bir uğur mələyi kimi şagirdlərini həyatın gözəlliklərinə səsləyirdi, istedadlı uşaqları seçib tanıdırdı. Eşidirdik ki, Süzanna Əfəndiyevanın uşaqlarının rəsm əsərləri Bakıda, o vaxtki Yuri Qaqarin adına pioner və məktəblilər evinin sərgisində nümayiş etdirilir. Daha sonra ”Artek”, Moskva ...

Biz orta məktəbi bitirdikdən sonra 1967-ci ildə onun da 16-17 yaşlı ”kiçik rəssamlarının” əsərləri heç bilirsiniz haralara gedib çıxdı? 12 nəfər gənc göyçaylının, adları yadımda qalan Xalidə Bağırlının, Vera Çuşkinanın, Alla Mirzoyevanın, Yevgeni Sulikonun, Rafiqin, Vaqifin, Lauranın  və başqalarının əsərləri, necə deyərlər, okeanın o tayına - Amerikaya gedib çıxmışdı. ABŞ -la SSRİ arasında davam edən ”soyuq müharibə” deyəsən bir qədər öləzimişdi. Bir çoxu mənim yaşıdım olan bu gənclərin əsərləri Nyu-Yorkun rəsm salonlarının birində ”Dünya gəncləri və sənətkarlıq ” devizi ilə keçirilən festivalda nümayiş olunurdu. O dövrün mətbuatında gənc göyçaylı rəssamların bu uğuru haqqında  məlumatlar da dərc edilmişdi. İndilərdə olsaydı, bəlkə də qeyri-adi hadisə kimi qarşılanmazdı. Ancaq uzaq 60-70-ci illər üçün bu, əsl hadisə, bəlkə də fantastik bir uğur idi.

... Və bu fantastik uğurun təməlini qoyan, illərlə uşaqlara rəssamlığın sirlərini aşılayan, daha böyük yolların uzaqlarına işıq salan məhz Süzanna Əfəndiyeva idi. Dünyanı gəzən bu gəminin və komandanın kapitanı o idi.

Bu böyük əks-sədalı uğur və səyahətlər asan başa gəlməmişdi. Sonralar öyrənmişdim ki , Süzanna müəllimə bu istedadlı uşaqlara şərq və qərb rəssamlığının tarixini, böyük sənətkarların yaradıcılıq prinsiplərini də öyrədirmiş. O vaxtlar bu gözəl xanım müasir Azərbaycan rəssamlarından Səttar Bəhlulzadə, Tahir Salahov və başqaları ilə yanaşı Avropanın və Amerikanın da məşhurlarının yaradıcılığından çox şeylər əxz elətdirirdi. Sovet rəssamlığının əsasını təşkil edən realist üslub gənclərin yaradıcılığında üstünlük təşkil etməsinə baxmayaraq , onlar impressionist , sürrealist və digər cərəyanları da mükəmməl bilir, bəzi əsərlərini bu üslublar üzərində işləyirdilər. Süzanna Əfəndiyeva ardıcıllarına Renato Qattuzo, Alvaro Sikeros, Pablo Pikasso... kimi müasirlərlə bərabər Salvador Dali , Van Qoq, Fransisko Qoyya və başqa dahilərin də sənət məktəblərini , yaradıcılıq üslublarını öyrədirmiş. Bütün bunlar barədə sonralar mənə atası gürcü , anası alman olan memar Yevgeni Suliko danışmışdı.

O vaxtlar bir müddət sonra Amerikadan  göndərilən həmin rəsm əsərlərinin orijinallarını Süzanna müəllimə əlavələrlə birlikdə rayon mədəniyyət evinə bağışladı. Təbii ki, şərtlə. Bu şərtə görə mədəniyyət evinin geniş foyesində görkəmli bir guşə hazırlandı və həmin rəsm əsərləri illərlə bura gəlib-gedənlərin zövqünü oxşadı.

İndi nə Süzanna Əfəndiyeva var, nə onun yaratdığı məktəb, ənənə... Nə də onun yetirmələrindən kimlər qalıb , indi haradadırlar...

Qalan bu xatirələr idi. Canlı , işıqlı ,deyəsən bir az da əfsanəvi...

***P.S.*** *Mən bəlkə də səhhətim və ya eləcə tənbəlliyim səbəbindən Süzanna Əfəndiyevanın öz fotosunu əldə edə bilmədim.Sonralar buna nail olsam əgər , mövzuya yenidən qayıdaram. Yazıda verdiyim bu foto isə internetdən axtarıb tapdığım şərti bir oxşarlıqdır.*

## *“Bəlkə ölülərimizi dəfn etdiyimiz yerlərdən çıxarıb azad edilmiş torpaqlarımıza aparaq?*

**”Müasir dövrdə 1988-ci ildən başlayıb 2020-ci ilin 8 noyabrına qədər Qarabağ camaatı yalnız torpaq itikisi ilə, yurd həsrətilə yaşamayıb. Düşməndən gələn fəlakət məlum idi. Bu illərdə özümüzünkü sayılanlardan da çox həqarətlər, haqsızlıqlar gördük və hətta, Böyük Qələbədən sonra belə haqsızlıqlarla üzləşməkdə davam edirik. Biriləri zamanında Qarabağı müdafiə etmək üçün birlik nümayiş etdirməməkdə suçlayıb, öz həqarətlərinə haqq qazandırmaq istəyir, digərləri isə, məcburən Qarabağda deyil, ölkənin müxtəlif yerlərində dəfn edilmiş məzarlarımızın yollarını bağlamaqla haqsızlıqlara yol verirlər”.**



Adalet.az xəbər verir ki, bunu Qarabağ müharibəsi veteranı, polkovnik-leytenant İlham İsmayıl deyib.

O bildirib ki, Qarabağın salamat qalmış qəbristanlıqlarını görənlər şahiddirlər ki, məzarlar necə səliqəli və baxımlıdır:

”Ermənin dağıtdıqlarını demirəm, bu düşmən işidir. Torpağımız əlimizdə olsaydı, qəbristanlıqlarımız da dağılmayacaqdı. Bu nədir? Dirimizdən yox, ölümüzdən bu gün qisas almağı fikirləşənlərin məqsədi nədir? İşğal illərində Qarabağ camaatı ölülərini Azərbaycanın müxtəlif yerlərində dəfn etməyə məcbur oldular.

Azərbaycanın çox istedadlı şairi Şahmar Əkbərzadənin məzarına gedən yolun Xırdalan bələdiyyə başqanı tərəfindən satıldığını və bununla da məzarı ziyarət etmək istəyənlərin yolunun bağlanması xəbərini eşidəndə mənəviyyatsızlığın aşınma dərəcəsini düşünmək belə istəmədim. Fəqət... Bu işlərə məsul olan şəxs kimdirsə Şahmar Əkbərzadə kimi dəyərli bir şairin məzarına gedən yolu satmaq yox, ən azı gərək səliqəli bir cığır çəkəydi, cığıra mərmər döşətdirəydi, nəinki pul əldə etmək üçün yolu sataydı. Nə etsin Qarabağ camaatı?”.

İ.İsmayıl deyib ki, bəlkə işğal illərində məcbur olub ölülərimizi dəfn etdiyimiz yerlərdən çıxarıb azad edilmiş torpaqlarımıza aparaq?

”Ona görə ki, hansısa bələdiyyə sədri sabah məzar yerini kiməsə satıb deyə bilər ki, yerin pulunu vermirsinizsə, bura satılıqdır. O qədər məşhur və ölkə səviyyəsində dəyərli sayılan qarabağlıların məzarları var ki... Nə edək? Hansısa məmurun pul qazanmasına görə müqəddəs bildiyimiz məzarların taleyini azğın məmurların hökmünəmi buraxaq? Mənim vəsiyyətim budur ki, məni kəndimizin qəbristanlığında dəfn etsinlər”.

**Vasif ƏLİHÜSEYN**

## *Belə getsə...*




**Hamı deyir ki, balam, ətin, yağın qiyməti niyə belə bahalaşıb? Amma bir adam demir ki, kəndlini yaman günə qoyan kimdir? Və kəndli nə üçün heyvan saxlamaq istəmir! Belə bir durumda olan ət nəinki bahalaşacaq, həm də qıtlıq yaranacaq! İndi də deyirlər ki, bəs Pakistandan ölkəmizə ət gətiriləcək.**

Pakıstan qardaş ölkədir, bunu bilirik! Amma öz mal- qoyunlarımıza nə olub?Bizim heyvanların ətinin dadını heç bir xarici ölkənin əti verə bilməz. Və kəndlinin həyətindən mal- qoyun, toyuq- cücə səsi gəlmirsə, həyətində bostan- tərəvəz əkmirsə, heç ona kəndi demək olmaz! Çünki kəndlinin əlindən torpağı alıblar. Və o torpaqlar ayrı - ayrı varlı adamlara məxsusdur! Bir rayonda min hektarlarla əkin sahəsi olan adamlar var.

Ancaq alın təri ilə  çörək qazanmaq istəyən kəndliyə beş hektar torpaq verilmir. Kəndlilər torpaq istəyəndə icra başçıları deyir ki,o torpaqlar 99 illiyə filan varlı adama icarəyə vermişik. Nə vaxta qədər ki, torpaqlar kəndliyə verilməyib, o vaxta qədər  də ölkəmizdə ət bahalaşacaq, qıtlıq yaranacaq!

**Emil Faiqoğlu**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# FANİ OLMAYAN DÜNYANIN ELDAR BAXIŞI

Çox eşitmişəm bu sözü. Yəqin siz də eşitmisiniz. Adətən bu sözü ölümitimlə bağlı deyirlər. Dostun, qohumun, simsar adamı Haqq dünyasına yola salanda işlədirlər...

Doğrusunu deyim ki, bu sözün işlədilməsi hərdən məni ağrıdır və incidir. Çünki bəzən razılaşmıram. Ona görə ki, gördüklərim, yaşadıqlarım və içimdə yaşatdıqlarım barışmır bu sözlə. Elə bu yazımın qəhrəmanı ilə bağlı düşüncələrə dalanda da təkrar xatırladım və barışmadım bu sözlə. Çox uzatmayacam. Sizin də, mənim də eşitdiyimiz söz, fikir belədir:

- Dünya fani dünyadır...

Böyük şairimiz Səməd Vurğun yazmışdı ki:

*Biz gəldi-gedərik, sən yaşa dünya.*

Böyük Məmməd Araz da yazdı ki:

*Dünya mənim, dünya sənin, dünya heç kimin.*

Böyük Bəxtiyar Vahabzadə də yazdı ki:

*Min rəngi var, min donu var,*
*Neçə-neçə oyunu var,*
*Nə əvvəli, nə sonu var,*
*Yalan dünya, yalan dünya!*

Bəli, üç nəhəng, əbədiyaşar şairimizin adını çəkdim, onlara istinad elədim. Və gəldiyim nəticə də bu oldu ki, biz gəlib-gedirik, bizim olmayan dünya öz yerində qalır. Deməli, qalan, yaşayan heç vaxt fani ola bilməz. Fani olmayan da özündə mütləq nəyisə, kimisə yaşadır, saxlayır. Bu, mənim qəti inancımdır. Və o inanca da söykənib indi təkrar oxuduğum, hər zaman da böyük sayqı ilə xatırladığım unudulmaz Eldar Baxışın özəl dünyasına üz tuturam. Bu özəl dünyanın adı "Zaman durna köçüdür".

Həmişə xatırladığım çöhrəsi, səsi yaddaşımda yaşayan Eldar Baxışın sağlığında nəşr olunan kitabları teztez üz tutduğum söz ünvanı idi. Amma bu günlərdə, yəni keçirilən kitab bayramında dəyərli dostum, şair, publisist, araşdırmaçı İlham Qəhrəman mənə Eldar Baxışın "Zaman durna köçüdür" kitabını bağışladı. İnanın ki, sorağını eşitdiyim bu kitabı əlimə götürəndə elə bildim ki, "Azərbaycan" radiosunun binasında Eldar Baxışla qarşılaşdım. Onun özəl baxışı mənə sancıldı. Sonra təbəssümlə mərhum İntiqam Mehdizadəyə dedi ki, dostumuzu yenə dəvət etmisən? Bax, onda bir daha əmin oldum ki, Eldar Baxış diqqətli və yaddaşlı şairdir. Heç nə və heç kim nəzərindən yayınmır. Onun qəfil bu dünyanı tərk etməsi məni də üzdü. Çünki o, ürəyində, ruhunda özünə bir ev tikmişdi. Bu evin açarı onun özünə məxsus idi. Eldar Baxışı Azərbaycana daha çox sevdirən Qarabağ hadisələrinin daş dövründə yazdığı və ən böyük və miskin daşnaklardan biri olan, türk qanına susamış Zori Balayana yazdığı şeir oldu. Bu şeir əl-əl gəzdi, ev-ev dolaşdı və yaddaşlara köçdü. Özü ilə birlikdə Eldar Baxış şəxsiyyətini də, şairliyini də, imzasını da tarixləşdirdi. Və burda onu da xatırladım ki, Eldar Baxışın ünvanlı şeirləri həmişə səs-küy salırdı, gündəm olurdu. Üstəlik, Eldar Baxışın bayatı notunda yazdığı şeirlərdə də böyük fəlsəfə özünü büruzə verirdi. Məsələn, o yazırdı ki:

*Ahın dağlara-dağlara,*
*Yaxın dağlara-dağlara.*
*Uzaq dağlar çox uzaqdı,*
*Yaxın dağlara-dağlara.*

Mənə elə gəlir ki, Eldar Baxış bu dörd misrayla dağların da, elə ahın da ölçüsünü, çəkisini, tutumunu, özəlliyini ifadə edib. Axı dağın əzəməti ilə ahın ağırlığı bir-birini tamamlayır. Və...

"Zaman durna köçüdür" kitabını vərəqlədikcə Eldar Baxışın öz sağlığında işıq üzü görmüş kitablarında oxuduğum şeirlərlə yanaşı, ilk dəfə qarşıma çıxan şeirlərin də oxucusu oldum. Elə həmin anda hərdən mənim də yaxın dostlarımla söhbətimdə istifadə etdiyim bu misraların işığı düşdü üstümə.



*Söz dilimin ucundadı,*
*sözü deyə bilmirəm mən.*
*Səni necə sevdiyimi*
*Düzü, deyə bilmirəm mən.*

Həmişə işlətdiyim və isti bir təbəssüm doğuran bu misraları şeirləşdirən Eldar Baxış elə bil ki oxucusunu intizarda qoymaq istəməyib. Ardınca hökm verirmiş kimi yazır:

*Sənin dodağın, bax, çiçək,*
*Mənim dodağım, bax, arı.*
*Çiçək orda, arı burda,*
*Bu da dünyanın axırı.*

İndi yazımın əvvəlində xüsusi bir niyyətlə, həm də biraz küsdüm şəkildə ifadə etdiyim dünyanın faniliyinə diqqət yetirək. Görün, çiçəyi, arısı olan dünya fani ola bilərmi? Axı, Eldar Baxış deyir ki, çiçəklə arı bir yerdədirsə budur dünyanın axırı. Deməli, çiçək də, arı da həmişə var, onda gəlin etiraf edək ki, dünya da həmişə var.

Özünəməxsus yazı üslubu, həm də şeirə çevirdiyi fikirləri adamın birbaşa ürəyinə tuşlanan Eldar Baxış hökm verməklə yanaşı, etiraf etməyi də çox ustalıqla bacarırdı. Onun etirafları da oxucunu şeirə çəkib gətirirdi. Daha doğrusu, şeiri oxucunun ürəyinə yazırdı. Bax, o anda fikrə gedirdin. Çünki Eldar Baxış pıçıldayırdı ki:

*Mənim də havamı aldı bu dünya,*
*görməli işləri görə bilmədim.*
*Yığıb, topalayıb, sevinci mərdə,*
*kədəri namərdə verə bilmədim.*

*Bəslədiyim arzu gözümdə qaldı,*
*arzumu gözümdə heç elədilər.*
*Mənim arılarım öldü acından,*
*mənim ağrılarım beçələdilər.*

*Oynaq-oynaq sular zarıdı getdi,*
*yaşıl-yaşıl otlar qurudu getdi.*
*Gözəl-gözəl qızlar qarıdı getdi,*
*mən də baxa-baxa qaldım dünyada.*

*Huşlu adam vardı huşunu yedi,*
*dəyirman acıxıb daşını yedi,*
*cücə qarışqanın başını yedi,*
*mən də baxa-baxa qaldım beləcə.*

Yəqin ki, şeirin havası da, ovqatı da, hətta Eldar Baxışın bu şeirə hopmuş nəfəsi də sizə hər şeyi anlatdı. Şərhə, izaha yer qoymadı. Ona görə də mən təkrar dünyanın fani olmadığına, hər kəsi layiq olduğu mərtəbədə




tutduğuna inancımı dilə gətirirəm. Həyatın bir an, bir il, bir qərinə olmasından asılı olmayaraq bir şeyə, bir məqama heç vaxt yuxarıdan aşağı baxmamışam. Çünki tarix var, fakt var. Danışan, göstərən dil var, qələm var, fırça var. Bütün bunlar insanlığın mövcud olduğu bütün zamanların içərisindən sözü, tablonu bu və ya digər formada götürüb bu günümüzə gətirib çıxarıb və belə də davam edir. Ona görə də Eldar Baxış üçün dünyanın fani olduğunu düşünmək ağlımın ucundan da keçmir. Bu əminlik Eldar Baxışın poeziyasının diqtəsidir. Bu məqamda mütləq sizə Eldar Baxışın "Ümidin balası, ümidin oğlu" şeirindən iki bəndi təqdim etməliyəm. Böyük bir şeirdən iki bənd. Başlanğıcı və sonu. Oxuyun və siz də təkcə Eldar Baxışı yox, həm də onun ruhdaşlarını, bir də dünyanı düşünün. Lap atüstü olsa da.

*Atam son anında aşırma kimi*
*Çiyninin üstündən aşırdı məni.*
*Gümanı ümidə gəlirdi bircə,*
*Elə ümidə də tapşırdı məni.*

Və sonuncu bənd:

*...İndi özlərinə yer tapa bilmir,*
*İndi qurcalanır Həşimin oğlu,*
*İndi dingildəyir Həmidin oğlu.*
*İndi deyirlər:*
*Gör nə fikirləşir*
*Ümidin balası, Ümidin oğlu...*

Mən də elə Eldar Baxışın sözünə söykənib yazıma belə nöqtə qoyuram:

- Bu dünyada hər şair Eldar Baxış ola bilmədi.

---

1953-cü il martın 5-də, Moskva vaxtı ilə saat 21:50-də Sovet radiosu İosif Vissarionoviç Stalinin ölüm xəbərini yayımladı. Rəsmi səbəb kimi beyninə qan sızması göstərildi. Bəs bu rəsmi, quru tibbi rəyin arxasında əslində nələr gizlənirdi?

Sonralar SSRİ Tibb Elmləri Akademiyasının üzvü, Aleksandr Myasnikov SSRİ rəhbərinin ölümünü belə xatırlamışdı:

"Uzun illər beyin damarlarının aterosklerozu və hipertoniya xəstəliyindən əziyyət çəkən Stalin hər şeydən və hər kəsdən şübhələnirdi. Psixikasında yaranmış problem-



# Stalinin əzablı ölümü - Putin üçün tarix dərsi

lər onun həyatını işgəncəyə döndərmiş, ölümünü sürətləndirmişdi. Ölümündən əvvəl martın 1-dən 2-sinə keçən gecə o, iflic olmuşdu. Nitqini itirdiyinə görə cürbəcür qeyri-insani səslər çıxarırdı. Rəhbər yatağında əzab içində çabalayır, qorxunc və ağır şəkildə ölürdü. Qıcolmadan üzü əyilir, xırıltılı nəfəsi kəsik-kəsik gəlirdi. Hərdən sanki huşu özünə gəlir, dəli baxışlarla ətrafdakıları süzür, anlaşılmaz səslər çıxarırdı. Onun bu halını seyr etməkdən başqa əlimizdən bir iş gəlmirdi".

Stalinin ölümü SSRİ tarixində bütöv bir epoxanın sonu oldu. Onun bu cür əzabla, ətrafdakılardan xoflana-xoflana, təşviş içində dünyasını dəyişdiyini çox az adam bilirdi.

İllərlə sürdürdüyü qorxulu repressiyalar sovet liderinin öz psixikasını da pozaraq onu hər kəsdən şübhələnən dəliyə döndərmişdi.

Odur ki, Stalin uzun müddət tibbi müalicədən imtina edərək, türkəçarəyə və ekstrasens terapiyasına üz tutmuşdu. Əlbəttə, həkimlərə qarşı qorxudan inamsızlıq onun taleyində faciəvi rol oynadı. Diktatorun səhhəti kritik vəziyyətə çatanda ən yaxşı həkimləri çağırıb xəstənin başına topladılar. Lakin hər şey üçün artıq gec idi.

V. Molotov öz xatirələrində belə demişdi:

"Stalin bütün ömrünü sui-qəsd təhlükəsi qorxusu ilə yaşadı. O, 30-cu illərin sonlarından başlayaraq bir il yarım ərzində bişmiş toyuq yumurtasından başqa heç nə yemir, yeməyinə zəhər qatılmasından ehtiyat edirdi. Öz əli ilə qaynatdığı yumurtalar ona müəyyən qədər təhlükəsizlik hissi və sakitlik verirdi".

Stalinin həyatının son saatlarında onun yanında yalnız Politbüro üzvlərindən ən yaxın olanlar və şəxsi mühafizə heyəti olub. Onlar diktatorun əzablı ölümünü tam sükutla izləyib, bir kəlmə belə, deməyə cürət etməyiblər.

Stalinin ölümündən sonra ölkədə hökm sürən qorxu və şübhə atmosferi SSRİ liderini xəstə yatağında müşayiət edənlərin də taleyinə təsirsiz ötüşməyib. Stalin vəfat etdikdən sonra onun müalicəsini aparan bir çox həkimlər müxtəlif təqiblərə məruz qaldılar. Onlar yanlış müalicədə, hətta rəhbərin qəsdən öldürülməsi ehtimalında ittiham edildilər.

Məlum olduğu kimi qorxulu Stalin dönəmindən sonra Xruşşovun "yumşalma dövrü" başladı. SSRİ məkanında hökm sürən vahiməli gərginlik azaldı, ictimai, siyasi, mədəni sferada nisbətən liberal mühit yarandı. Düşünürəm ki, eləcə də tərs xarakterli bu eqoist Putindən sonra Rusiyada bir yumşalma mərhələsi başlayacaq və qonşu ölkələrlə barış yolları axtarılacaq.

**Murad Köhnəqala**

Ramiz Göyüş
Yazıçı-publisist



# ...Deyilən söz yadigardır

**Akademik Nizami Cəfərovun çox dəyərli kəlamlarından birində deyilir: "Biz gərək örnək insanlarımıza dəyər verək, onlara tanıdaq". Qazax mahalı Azərbaycanımıza çoxsaylı örnək insanlar bəxş edib və onlardan bir də Həmid Abbasdır desəm düşünürəm ki, səhv etmiş olmaram. Bu günlər ədəbi ictimaiyyət şair, tərcüməçi, jurnalist, ictimai xadim, əməkdar incəsənət xadimi Həmid Abbasın 90 illik yubileyini qeyd edir. Bu xüsusda mən, Seymur Orucovun və Barat Vüsalın şəxsində Ağstafa Rayon İcra Hakimiyyətinin , AYB Qazax Filialının və Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin, Həmid Abbasın 90 illik yubileyi ilə əlaqədar birgə təşkil etdikləri və yüksək səviyyədə keçən tədbirini alqışlayır, şairin bir oxucusu olaraq təşkilatçılara təşəkkürlərimi bildirirəm.**

Bu yerdə Xalq şairi Məmməd Arazın bir beyt şeri yada düşür:

***Bir xatirəm köçəcəkmi xatirələrə,***
***Min xatirə köçəcəkdir mənimlə əfsus..***

Və mən də Böyük Səməd Vurğunun "Də gəlsin hər nəyin vardır, Deyilən söz yadigardır" kəlamlarına əməl edərək, istədim ki, şairin 90 illik yubileyi ərəfəsində məndən də bir xatirə yadigar qalsın... 1970-1981 ci illərdə Azərbaycan KP Mərkəzi Komitəsində məsul vəzifədə çalışmış, 18 il Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri vəzifəsində işləmiş Həmid Abbas, Azərbaycan ictimai həyatında yaxşı tanınan bir vəzifə sahibi olmaqla həm də gözəl şair, tərcüməçi və jurnalist və vətənpərvər bir şəxsiyyət idi. Şəxsi münasibətlərimiz olmasa da mən onu həm ictimai xadim kimi, həm də şair kimi yaxşı tanıyır, şeirlərinə yazılmış mahnılara sevə-sevə qulaq asır, şeirlərini oxuyurdum. Yadımdadır 1985-ci ildə onun yeni, " Ömrün elə çağıdır ki..." kitabı nəşr olunanda görkəmli ədəbiyyatşünas alim, Xalq yazıçısı Əzizə Cəfərzadə "Ədəbiyyat və İncəsənət" qəzetində bir məqalə yazmış, nəğmələr şairi kimi Həmid Abbasın yaradıcılığına yüksək dəyər vermişdi. Məqaləni oxuduqdan sonra mən də kitabın axtarışına çıxmışdım. O vaxtlar kitablar ancaq kitab mağazalarında satılırdı və mən də hansı kitab mağazasına üz tuturdumsa ancaq "Kitab artıq satılıb" cavabını alırdım. Təsəvvür edin ki, 7000 nüsxə ilə nəşr olunmuş kitabı tapa bilmirdim. Nəhayət şairin həmin kitabını Bakı şəhərinin ucqar məhəllələrindən birində yerləşən bir mağazadan tapdım və o gündənhəmin kitab mənim kiçik kitabxanamın ən əsas yerlərindən birində qərar tutb və sevimli kitablarımdan biridir. O vaxtdan sonra çox istəyirdim ki, şairin özü ilə görüşüm, yaxından tanış olum və ünsiyyət qurum.

Belə bir imkan 1994-cü ildə yaranmışdı. Həmin ilin payız vaxtları



idi. Həmid Abbas "Qazax" Xeyriyyə Cəmiyyətinin idarə heyətinin bir neçə nəfər üzvləri ilə, Cəmiyyətin Mingəçevir şəhərində filialını təşkil etmək üçün Mingəçevirə gəlmişdilər. Cəmiyyətin filialı böyük coşqu ilə təssis etdik.

O vaxtlar Mingəçevirdə polis rəisi vəzifəsində işləyən, vətənpərvər və təəsübkeş eloğlumuz Xəlil Xəlilov ( Görkəmli ziyalımız Hüseyn müəllimin kiçik qardaşı) cəmiyyətin filialının təşkilinə böyük dəstək verirdi. Təvəzökarlıqdan uzaq da olsa qeyd edim ki, mən də bu məsələdə aparıcı şəxslərdən biri idim. Tədbirdən sonra axşam şam yeməyi ətrafında əyləşdik və "Qazax" Xeyriyyə Cəmiyyətinin tərkib hissəsi kimi filialın qarşısında duran vəzifələrindən ətraflı söhbət açdıq. Arada poeziya da yaddan çıxmadı və təbii ki, söhbətin mərkəzində Həmid Abbas dururdu.

Həmid Abbas Mingəçevir şəhərindən, onun qurucularından, Böyük şairimiz Səməd Vurğunun Mingəçevirə səfərlərindən, onun şəhərin qurucularına həsr etdiyi "Muğan" poemasından, poemanın qəhrəmanı Sarvan Salmanovdan ətraflə söhbət açdı.

Sonda özünün də Mingəçevirə şeir həsr etdiyini dedi və həmin şeirin dərc olunduğu kitabı mənə göndərəcəyinə söz verdi.

Xarakter etibarı ilə çox mehriban və səmimi olan Şairlə beləcə çox səmimi ünsiyyətimiz yarandı. Onunla ikinci görüşümüz 1996-cı ilin noyabrında Mingəçevirdə Xalq şairi Səməd Vurğunun 90 illik yubileyi keçirilən günlərdə oldu. Bu yubiley haqqında mən bir neçə dəfə ətraflı yazmış və danışmışam və təkrarçılığa yol vermək istəmirəm. Yubileyə gələnlər arasında Həmid Abbas da var idi və onunla uzun illərin yaxın adamı kimi çox mehriban görüşdük. Həmid müəllim keçən görüşümüzdə söz verdiyi kitabı da özü ilə gətirmişdi. Yubiley tədbirlərində iştirak etmək üçün Mingəçevirə gəlmiş Fərman Eyvazlının ölümü ilə bağlı olay barədə də əksəriyyətin məlumatı olduğu üçün təfərrüata varmıram. Baş vermiş hadisə hamımız kimi Həmid Abbasın da şair qəlbini sarsıtmışdı və ertesi gün, Fərman Eyvazlı ilə son səfər yoldaşı olan şair, ürək yangısı ilə aşağıdakı şeirini yazıb mənə göndərmişdi: (Şeirin əlyazma variantı məndədir). Həmin şeiri təqdim edir və hər iki ziyalımızın xatirəsini ehtiramla yad edirəm:

### "Son səfər"

**Qələm dostum Fərman Eyvazlının əziz xatirəsinə**

***Bir qızıl payızda çıxdı səfərə,***
***Yol boyu danışdı, güldü dostumuz***
***Günorta şatanda Mingəçevirə,***
***Fərəhdən gözünü sildi, dostumuz.***

***Söz açdı cavanlıq illərindən O,***
***Qazağın ətirli güllərindən O,***
***Sonra yapışaraq əllərimdən O,***
***Sonsuz sevincini böldü dostumuz.***

***Sən demə son dəfə gülürmüş Fərman***
***Özü öz işini bilirmiş Fərman,***
***Vurğuna səcdəyə gəlirmiş Fərman,***
***Ustada baş əyib öldü dostumuz,***
***Son anda sevindi, güldü dostumuz.***

# Ta bizə ölüm yoxdur

**Bu bir həqiqətdir ki, dilimizin açarı, fikrimizin ifadəsi layladır, bayatıdır. Yəni biz ilk eşitdiyimiz layla ilə, bayatı ilə, oxşama ilə bu dünyanın nəbzinə yaxınlaşırıq. Havasına, suyuna alışırıq... Beləcə damarımızdakı qan, varlığımızdakı hüceyrələr qidalanır, toparlanır. Biz ayaqda olduğumuz bütün zamanlarda, çox qəribədir ki, yaşımızdan, başımızdan aslı olmadan laylanı, bayatını unutmuruq. Şəxsən mən inanmıram ki, bu məmləkətdə kimsə laylanı eşitməmiş olsun, kimsə bayatıdan xəbərsiz olsun. Yəni cinsindən aslı olmadan mütləq və mütləq hər kəsin yaddaşında iki sözdən ibarət olsa da layla, bayatı var. Bax, bir anlıq gözünüzün önünə gətirin, yaşlı-başlı bir adam son nəfəsində də ana laylası istəyir Son nəfəsində də bir bayatı deyir. Deməli, harda doğulmağımızdan asılı olmadan bizi var edən bizim bizliyimizin təsdiqlərindən olan laylanı, bayatını bizə hopdurur.**

Mən də, eləcə də siz də yəqin ki, orta məktəb illərindən layla, bayatı barədə oxumuşuq, eşitmişik.

Yeni ədəbiyyat dərslərində bunu bizə öyrədiblər. Təbii ki, sonra kimsə elmin bu sahəsini seçəndə o, bir az da artıq öyrənib, bir az da çox bilib. Burada onu da vurğulayım ki, xüsusi marağı olanlar, yəni bayatını, laylanı hobbi seçənlər də bu işin qulpundan tutublar. Amma

Bayatı, layla folklordur, xalq yaradıcılığıdır. Biz də hər birimiz ayrı-ayrılıqda xalqın bir hissəsiyik. Xalqın bir hissəsi olan biz də, yəni söz sənətinin sahibləri də zaman-zaman yaradırlar laylaları, bayatıları.

Zamanın axarında bir şairin, bir aşığın yaratdığı bayatı, layla sonda olur bütün xalqın. Elə mənim də yazmaq, demək istədiyim bu gün yaranan bayatılarımızla bağlıdır. O bayatıların bir hissəsini də şair İlham Qəhrəman yaradıb.

İndi əlimdə tutduğum bu kitabın adı "Dəyirmanın su dərdi"dir. Üz



qabığı da özündə elə su dəyirmanını əks etdirir. Və bu şəkil də mənim yadıma doğulduğum Qarabağda, dünyaya baxdığım Tuğ kəndindəki su dəyirmanlarını salır.

İndi də gözümün önündədir o dəyirmanlar. Bax İlham Qəhrəman o su dəyirmanında nə suyun dərdin çəkir, nə də dənin. Çünki üyütməyə dəni də var, dəyirmanın pərlərini işlədəcək suyu da var. O su, yəni dəyirmanın ehtiyac duyduğu su İlham Qəhrəmanın İLHAMıdır. O dən isə İlham Qəhrəmanın bayatılarıdır.

Öncədən deyim ki, İlham Qəhrəmanın bu kitabı onun yazdığı bayatılardan ibarətdir. Girişdə də vurğulandığı kimi, kitab 275 bayatıdan ibarətdir. Və kitaba da dəyərli ədəbiyyatşünasımız, filologiya elmləri doktoru İradə Musayeva həmişəki kimi mükəmməl Ön söz yazıb.

Mən kitabı "Sevgi bayatıları" fəslindən oxumağa başlayanda elə bildim ki, masamın üzərində heç bir kitab yoxdur.




Elə bil İlham Qəhrəman oturub yanımda bayatılarını özü pıçıldayır mənə.

Çünki bu bayatıların səmimiyyəti, bunun nazı, işvəsi, sürməsi, qaşıgözü, ədası o qədər yerli yerindədir ki, bunu ancaq sevgi nəğməsi kimi də təqdim etmək olar.

İlham Qəhrəman yazır ki:

***Mey məzəyə duranda,***
***Qız kuzəyə duranda.***
***Qızıl-gümüş sevinər,***
***Yar bəzəyə duranda.***

Və yaxud:

***Yazdan gəlib göy dağa,***
***Heyran qalıb Göy dağa.***
***Göründün köks ötürdüm,***
***Necə boz dağ göy dağa.***

Yəqin ki, birinci bayatıya diqqət yetirdiniz. İlk iki misra səmimi bir vəsfdir.

Üçüncü, dördüncü misra isə düşündürən,həm də göstərən məntiqdir. Axı adətən qızıl-gümüşü üst-başına taxan sevinir. Amma İlham Qəhrəman o qızıl-gümüşün yar bəzəyi kimi sevindiyini dilə gətirir. Daha dəqiq açıqlasaq, o qızıl-gümüş sevdiyinin bəzəyi olduğu üçün aşiq tərəfindən də sevilir. Təbii ki, bu sevinc qızıl-gümüşü də sevinməyə kökləyir. Əşya olsa da o, sevilənin yanında olduğu üçün sevinc yaşayır.

Zənnimcə, bu həm poetik tapıntıdır, həm də bayatı janrını lakonik bir şəkildə oxucuya, dinləyiciyə sevdirməkdir.

İkinci bayatıda da yenə İlham Qəhrəman sözlərin cinasından yararlanaraq ilk iki misrada təsviri çatdırır bizə. Son iki misrada isə vəsf etdiyinin şairə, yəni duyğusal bir insana həsrət, ağrı yaşatmaq imkanını sərgiləyir.

Boz dağın ümidinə qalan vətəndə vətənsiz bir şair göy dağı, yəni ormanlı, bulaqlı, çeşməli, çaylı, kəklikli, turaclı dağın həsrətini çəkir. Bu isə həm düşündürən, həm kövrəldən, həm də xatirələri oyadan bir bayatıdır.

Sevginin qısqanc, incik, bəzən küskün notları da olur. Söhbət həqiqi sevgidən gedir. Və bu həqiqi sevginin çalarlarını da həqiqi aşiqlər duyurlar.

O duyğunu da İlham Qəhrəman kimi şairlər bayatıya çevirirlər. İnanmırsınız özünüz oxuyun:

***Şirin olar yar dadı,***
***Gözdən salar hər dadı.***
***Görən heç soruşurmu-***
***Zəhləm qaçan hardadır?!***

Yaxud da:

***Göldən uçan qu dərdi,***
***Suya söylə, yu dərdi.***
***Mənim sənsiz qalmağım,***
***Dəyirmanın su dərdi.***

Yəqin ki, hər iki bayatının ovqatı artıq sizi öz aurasına alıb. Həm "zəhləm gedən", həm də "su dərdi" əslində predmet deyil, söz deyil. Hissdir, duyğudur. Özü də su kimi dupduru, halal və içdən gələn hiss. Sadəcə olaraq birində umu-küsü var, o birində də bir mənəvi umacaq, ümid, təsəlli. Çünki susuz dəyirman əslində, kobud ifadə etsəm, xaraba dəyirmandır. Sahibsiz, atılmış, unudulmuş dəyirmandır. Amma o dəyirmanın arxına suyun gələcəyini düşünsən, buna ümidli olsan, onda yaşamağa da dəyər, sevməyə də.

İlham Qəhrəmanın 275 bayatısının demək olar ki, hər birini öz baxış bucağımda, öz məntiqimlə şərh etmək, yozmaq gücümə inanıram. Amma indiki məqamda bu kitabdan hamının yararlanması üçün fürsəti oxucuya verirəm. Bir zəhmətə qatlaşsınlar. Bir qom bayatı oxusunlar. Və görsünlər ki, İlham Qəhrəmana ölüm yoxdur. Çünki :

***Yanmışam külüm yoxdu,***
***Pis işdə əlim yoxdu.***
***Laçın azad olandan***
***Ta bizə ölüm yoxdu.***

Düşünürəm ki, bu bayatı təkcə Laçına və laçınlılara deyil, bütün Azərbaycana ünvanlanıb. Sadəcə olaraq İlham Qəhrəmanın icazəsi ilə demək istəyirəm ki:
**Böyük zəfərdən sonra**
**Ta bizə ölüm yoxdur!**

**Əbülfət Mədətoğlu**

# M. Şəhriyar və M. Araz poeziyasında milli dəyərlərin təbliği



***Esmira İsmayılova***
***Filologiya üzrə fəlsəfə doktoru***

**Məmməd Araz poeziyası ilə Məhəmmdəhüseyn Şəhriyar poeziyasını doğmalaşdıran nə idi? Məmməd Araz jurnalistin ”Prezident Şəhriyara yaşamaq üçün ev versəydi, Bakıya gələrdimi?” sualına niyə yox cavabı vermişdi?**

## *14 oktyabr- şair Məmməd Arazın dünyaya gəldiyi günə sözardı...*

İki ustad sənətkarın- Seyid Məhəmmədhüseyn Şəhriyarla Məmməd Arazın yaradıcılığına nəzər salanda, fikir süzgəcindən keçirtdikdə onlar arasında qəribə, ilahi sözün yaratdığı mistik bir cazibənin, bağlılığın şahidi oluruq. Bu iki sənət fədaisinin poeziyasını birləşdirən təbiilikdir, səmimilikdir, ruhi bağlılıqdır. Və həm də milli dəyərlərə hörmətin, milli köklərə bağlılığın, milli yaddaşa söykənməklə, ondan güc almaqla millətin işıqlı gələcəyini qurmaq arzusunun, ideyasının təbliğidir.

”Fərariliyin ən bədnam çeşidi - əcdaddan üz çevirməkdir, kökdən, mənşədən, ”mən”dən fərar eləməkdir, milli hafizədə, mənəvi yaddaşda (yəni əsəbdə, qanda, kökdə!) ”skleroz” olmaqdır. Yaddaşı olmayan ədəbiyyat yalnız yaddaşı olmayan xalqın nəsibidir, siması olmayanın tarixi taleyi, zatı və nəsli, əsli və nəcabəti olmayanın alın yazısıdır. Üfüq, səma, göy daş saxlamadığı kimi, mənəvi və əxlaqi boşluq da yaddaş saxlamır”. M. Şəhriyarın ”Heydərbabaya salam”, ”Səhəndiyyə” poemalarını, milli yaddaşımızı silkələyən əsərlərini ədəbiyyatşünas alim-tənqidçi Yaşar Qarayevin fikrinin məntiqi davamı kimi də izah etmək olar. Doğma yurd-yuvasına- Şəngülava obasına qayıdan M. Şəhriyarın yaddaşında uşaqlığının, yeniyetməlik dövrünün acılı-şirinli xatirələri bir sinema pərdəsi kimi canlanır, vətənin, millətin tarixinə, qan yaddaşına dönür, şair qələmində milli simfoniyaya çevrilir. ”Heydərbabaya salam” poemasını Arazın hər iki tayında yaşayan yurddaşlara sevdirən, doğmalaşdıran millətin ürəyindən keçənlərin öz dillərində ona təqdimidir:

***Heydərbaba, Quru gölün qazları,***
***Gədiklərin sazaq çalan sazları,***
***Kənd-kövşənin payızları, yazları,***
***Bir sinema pərdəsidir gözümdə,***
***Tək oturub seyr edirəm özüm də.***

Paralel olaraq M. Araz poeziyasına nəzər yetirək. Eyni hisslər M.Araz poeziyasının da ana xəttini, şeirlərinin mayasını təşkil edir. ”Ata ocağı” şerinin əsas leytmotivi milli qeyrətə söykənən təəssübkeşlik, onun millətin sabahı üçün keçirdiyi narahatlıq hissidir:

***Babandan qalıbdır bu ocaq bizə,***
***Bir ocaq sönəndə bir tifaq itir.***
***Bir ocaq söngüsü qeyrətimizə***
***Bir düşmən nəslinin qəhqəhəsidir.***

Milli ruhun, milli şüurun əsasını milli dil təşkil etdiyindən M.Şəhriyar yaradıcılığında ana dilin, doğma dilin təbliğinə geniş yer verir, türk dilini sevə-sevə tərənnüm və təbliğ edir:

***Türkün dilitək sevgili, istəkli dil olmaz,***
***Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.***

M.Araz da eynən bu müqəddəs qayəni təbliğ edərək doğma dillərini bəyənməyənlərə səslənərək yazırdı:

***Dilimin ətrindən dili kallaşan,***
***Təzə dil axtaran dillərdən qorun.***
***Dünənki tarixi bugünkü daşa***
***Yamayıb, basdıran əllərdən qorun***

M.Şəhriyar poeziyasının Məmməd Araz yaradıcılığına mənəvi təsiri sözsüz ki, səbəbsiz deyildi. Xatırlayaq ki, XX əsrin ikinci yarısında M.Şəhriyarın məşhur ” Heydərbabaya salam” əsəri bütün türk dünyasında ən oxunaqlı əsərlərdən biri idi, ona yazılan nəzirələrin sayı-hesabı yox idi, hər yerdə müzakirəsi gedirdi. Arazın bu tayında-Şimali Azərbaycanda M.Şəhriyarın tanıdığı, şeirləşdiyi şairlər, ədəbiyyatşünas alimlər də kifayət qədər idi. M. Rahim, S. Rüstəm, B. Vahabzadə, N. Xəzri, H.Billuri, Ə.Tudə, R.Əliyev və s. Bu siyahıya yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında yeni bir səhifə açmağa çalışan M. Araz da daxil idi. M. Arazın verdiyi müsahibələr, ona həsr etdiyi şeirlər, əsərlərində Şəhriyarla bağlı etdiyi qeydlər şairin Şəhriyar poeziyasına bağlılığını, Şəhriyar qələminə məhəbbətini göstərir.

M. Arazın 1967-ci ildə Azərbaycan ədəbiyyatının klassiklərindən olan M. Vaqifin anadan olmasının 250 illiyi ilə bayram edildiyi bir gündə, bayramın son saatında M. Şəhriyara həsr etdiyi şeirinə diqqət edək:

***Baxışlar asıldı təyyarələrdən,***
***Ümidlər yollara sərili qaldı.***
***Bu ağır xəbərdən, bu nəhs xəbərdən***
***Güllər güllüklərdə dərili qaldı***
***Şəhriyar gəlmədi...***

M.Araz sonradan ”Şəhriyar gəlmədi ” şerinin yazılmasına belə aydınlıq gətirəcəkdi: ”Bu şeir çoxdanböyük Vaqifın anadan olmasının 250 illiyini bayram etdiyimiz ildə, son təntənə günündə, bir axşamda yazılıb. O vaxt xalqımızın bu böyük bayramına ustad Şəhriyarı da dəvət eləmişdik. Lakin o zamankı sahlıq üsul-idarəsi Azərbaycanın işığını, böyük nailiyyətlərini Şəhriyarın görməsini istəmədi, onun gəlməsinə mane oldu”

M. Şəhriyarın Azərbaycana hansı səbəblərdən gəlməməsi, hər iki tərəfdən kimlərin bu işə mane olmaları ədəbiyyatımızda hələ ki, tabu kimi saxlanılır. Nə vaxta qədər? Niyə?-sini açıqlamaq isə hələ ki, imkanımız xaricindədir. Amma böyük söz ustadının həsrətində olduğu Şimali Azərbaycana gəlişinin əngəllənməsi M.Şəhriyarın gəlişini səbirsizliklə gözləyən bütün şəhriyarsevərləri, o cümlədən, M.Arazı da qəlbən sarsıtmışdı:

***Əslində şairin Vətəni dünya,***
***Əslində şairin söz məni dünya.***
***Əslində şairə sədd qoyan naşı***
***Çıxır bu dünyanın özünə qarşı.***

***Ağ olur yaranış qanunlarına,***
***Ağ olur fırlanan qanunlarına...***
***Hər nə söyləsək də, həqiqət budu:***
***Onu görməyimiz çox müşkül oldu...***

M.Araz jurnalistlərə verdiyi müsahibələrin birində Seyid Məhəmmədhüseyn Şəhriyara olan böyük, ülvi sevgisindən belə dilə gətirib: ”Ustad ömrünün sonunadək Vətəndən vətənə həsrət körpüsünü keçə bilmədi. Üz-üzə, göz-gözə görüşməsək də qəlbimin hərarəti, ürək döyüntülərim-şerlərim Şəhriyarla görüşüb, ona məndən tez yetib. İndi eşitdikcə ki, misra-misra şerlərimi dinlədikcə ustad nisgil-nisgil göz yaşları axıdıb, ürəkdən kövrəldim. Bu gün Şəhriyarın şer-sənət qaynağından su içən onlarca gənc şair var. ”Heydərbabaya salam” silsilə şerləri yaranıb”

Bu şeirlər içərisində şair M. Arazın yazdığıqlarının da öz yeri var:

***Heydərbaba, görəmmədin bu günü,***
***Qayaların çağıraydı bu ünü,***
***Yasa döndü bir millətin düyünü,***
***Korun-korun ürək yanar, göz ağlar,***
***Kəlmə kəssək, dilimizdə söz ağlar ...***

M.Şəhriyarla M. Araz yaradıcılığını birləşdirən oxşar cəhətlərdən biri də hər iki şairin Azərbaycanın bütövlüyü üçün çəkdiyi iztirab, Araz niskili idi. Ustad Şəhriyarın S. Rüstəmə ithafən yazdığı şeirlərdə sanki Araz çayı yox, vətən həsrəti axır:

***Göz yaşımsan, ay Araz, qoyma gözüm baxsa da görsün,***
***Nə yaman pərdə çəkibsən iki qardaş arasında!***
***Demə dağ-daşdı, Süleyman, səni məndən ayıran şey,***
***Bir çibandır ki, çıxıbdır göz ilə qaş arasında...***

”Taleyimi Araza bağladığım gündən Araz dərdi poeziyamın şah da-



marına çevrilib. İmperiya zəncirlərinə əsir düşmüş Arazın bu tayında-qədim Naxçıvanda dünyaya göz açmışam. Ağlım kəsəndən də Araz dərdi dərdimə çevrilib.

”Arazın işıqları”, ”Bu gecə yuxumda Arazı gördüm”, ”Yenə Arazı gördüm”, ”Mövzularım tükənəndə...” və s. ”Araz axır” poeması hələ 60-cı illərdə yazılıb”

***Avropa, xəritəndə***
***Bu rəng çay yoxdu, axı!***
***Şırım-şırım sinəndən***
***Nə qanlı çaylar axır!***

Məmməd Araz poeziyasında Araz dərdi, niskili milli istiqlal və bütövlük ideyalarına xidmət edir. Bu mövzuda yazdığı şeirlər şair üçün vətən tarixinin bir salnaməsidir:

***...Araz deyəndə mən,***
***Yalnız çay düşünmürəm.***
***O, tarixdir, baxıram...***

Və yaxud:

***Bu gecə yuxumda Arazı gördüm...***
***Arazı bəxtindən çox razı gördüm.***
***Üstündən yol atdı: ”Cəsarətlə keç!”***
***Dedi: ...Cəsarət üstümdə şahə qalxmasa,***
***Təbriz itirəcək Təbrizliyini.***

M.Araz poeziyasını tədqiq edən ədəbiyyatşünas alim Ramiz Qasımov şairin yaradıcılığına məhz bu amilləri yüksək qiymətləndirir: ”Mən Arazın səsiyəm” deyən şair, Araz mövzusu ilə Azərbaycanın parçalanma tarixinə nəzər saldığı kimi, onun birləşəcəyi ümidlərini də bir ideya, ideal olaraq yaşatmağa nail oldu. O, həm də buna görə böyük vətəndaş-şairdir ki, Araza həsr olunan əsərlərində Azərbaycan sözünü işlətmədən belə, azərbaycançılıq məfkurəsini əks etdirməyə nail olub”. Məmməd Araz Şəhriyar şəxsiyyətinin böyüklüyünə, kamilliyinə, mənən zənginliyinə bütün yaradıcılığı, fəaliyyəti boyu dərin hörmətlə yanaşıb. Jurnalist Teymur Mahmudluya verdiyi müsahibədə bu dəyərin böyüklüyü aydın gözə çarpır: ”Söhbət əsnasında Məmməd Arazdan soruşuram ki, nə fikirləşirsiniz, əgər Şəhriyar sağ olsaydı və prezident Şəhriyara yaşamaq üçün ev versəydi, Bakıya gələrdimi? Cavab verir ki, gəlməzdi. O, Təbrizi çox sevirdi. Ona birmərtəbəli yapalaq evi dünyanın bütün evlərindən əziz idi. Sonra mənə Naxçıvandan keçməklə Təbrizə getməyindən danışır. Şəhriyarın kasıb və sadə evini, qəbrini ziyarət eləməyindən danışır. Təbriz küçələrində fars şovinistlərinin qorxusundan adamların ona necə ehtiyatla yanaşmasından danışır”. M.Şəhriyar ”Heydərbabaya salam” poemasında dağla salamlaşıb dərd-qəm yükünü paylaşanda, həm də onunla vidalaşır ki, bəlkə də taleyinin güzarından bir də bu yerlərə yolu düşmədi:



***Çox şükrü var, yenə gəldik, görüşdük,***
***İtənlərdən, bitənlərdən soruşduq,***
***Küsüşmüşdük, Allah qoysa, barışdıq,***
***Bir də görüş qismət ola, olmaya,***
***Ömürlərdə fürsət ola, olmaya...***

M. Arazın ”Əlvida, dağlar” şerinə diqqət edəndə ”Heydərbabaya salam”ın təsirini, M. Şəhriyar duyumunu açıq-aydın hiss edirik. Bu təsirlərdə üst-üstə düşən məqamlarsa hər iki sənətkarda doğma yurd yerlərinə olan sevgidir, bağlılıqdır, onu itirmək qorxusudur:

***Gəldim, qarşıladı güllər-çiçəklər,***
***Gedirəm, əl edir boz biçənəklər.***
***Nidamı çaylara dedi küləklər:***
***Bulan, salamat qal, ax - salamat qal!***

Xatırladaq ki, M.Şəhriyara ithafən yazılmış şerləri birləşdirən bir amal var-ustad sənətkara ilahi məhəbbət, sənətinə sonsuz hörmət, ehtiram. M. Araz da bu amala sadiq qalır. Ustad Şəhriyara ithafən yazdığı ” Qalır hələ” şeirində Azərbaycanın bütövlüyü probleminin ağrısını onunla bölüşür:

***Bir ölkə var - özü boyda bir körükdür,***
***Həqiqəti dil ucuna hörüklüdür.***
***Çoxu zülmət suvağını söküb, gülür,***
***Heydər babam, Savalanım qalır hələ.***

Məhəmmədhüseyn Şəhriyarın ”Azərbaycan” şeiri yaradıcılığının şah əsərlərindən hesab olunur. Fars dilində yazılmasına baxmayaraq şeirə əsl milli ruh, azərbaycançılıq ideyası, bir millət fədaisinin vətənini bütöv görmək arzusu xasdır. Şəhriyarşünas alim Elman Quliyev ”Şəhriyar poeziyası və milli təkamül” kitabında bu əsərin ustad sənətkarın yaradıcılığındakı yerini yüksək qiymətləndirərək yazır: ”Şair ictimai-siyasi məsələlərin bütün dərinliklərinənüfuz edərək milləti bəlalardan qurtara biləcək çarə kimi xalq obrazına daha üstünlük vermiş və şeirlərində bu məsələləri dönə-dönə əks etdirmişdir. ”Azərbaycan” şeirində də eyni məntiqin davamı kimi , Azərbaycan xitabı altında xalq birliyini,xalq gücünü əsas götürür vəümidlərinin doğrulacağı yəqinliyi ilə fikirlərini belə tamamlayır:

***Övladların nə vaxtadək tərki-vətən olacaqdır?***
***Əl-ələ ver, üsyan elə, oyan, oyan, Azərbaycan!***
***Bəsdir fəraq odlarında kül ələndi başımıza,***
***Dur ayağa!Ya azad ol, ya tamam yan, Azərbaycan!***

Şəhriyarın vətən harayı M. Arazın ”Ayağa dur, Azərbaycan” şeirində sanki əks-səda verir. M. Şəhriyarın ”Azərbaycan” şeiri ilə M. Arazın ”Ayağa dur, Azərbaycan” şeirlərini birləşdirən ümumi cəhətlərə gəlincə isə, bunlar üsyankarlıq motivləri, vətənin sabahı üçün keçirilən narahatlıq hissləri, millətin birliyinə çağırış nidasıdır:

***Nə yatmısan, qoca vulkan, səninləyəm!***
***Ayağa dur, Azərbaycan, səninləyəm!***
***Səndən qeyri biz hər şeyi belə billik!***
***Səndən qeyri biz hamımız ölə billik!***

Şəhriyarın millət harayı M. Arazın sanki köksünü parçalayır, yaxasından tutub silkələyir, hayqırtı, dəli nərə kimi səslənir, əks-səda verir:

***Səninləyəm, haqq-ədalət, səninləyəm,***
***Milli qürur, milli qeyrət, səninləyəm!***
***Səpil quma, göyər yerdə, bit qayada,***
***Gizli nifrət, açıq nifrət, səninləyəm,***
***Oyat bizi, ey yaradan, səninləyəm!***

Şair Məmməd İsmayıl ”Məhəmmədhüseyn Şəhriyar şeirinin Azərbaycanın azadlıq mübarizəsindəki rolu” məqaləsində yazırdı: ”Azərbaycan Türklüyünün özünə dönüşünün ən böyük amillərindən biri də heç şübhəsiz Şəhriyar sənətidir. Misralarının alt katlarına, ta qədimlərden gələn bir torpaq, ana südü, millət, ənənə ve adət qoxusu çökmüşdür. Onlardan dünyaya bir milli birlik ruhu yayılmaqdadır. Bu ruh köhnə dünyanın əskiyə bürünmüş yepyeni bir canlanması idi. Bu Tanrıdan enib gələn dağ ruhu, Heydərbaba ruhu idi”.

***Burda düşən karvan çatıb köçübdü,***
***Ayrılığın şərbətini içibdi,***
***Ömrümüzün köçü burdan keçibdi,***
***Keçib gedib gedər-gəlməz yollara,***
***Tozu qonub bu daşlara, kollara.***

Şairlər millətin danışan dili, yaratdılqarı əsərlər isə nəsilləri bir-birinə bağlayan söz kəməndidir. Görkəmli tənqidçi alim prof. Yaşar Qarayevin təbirincə desək: ”...Həqiqətən yaddaş - ağrı səviyyəsində dərk olunmuş vəhdət və bütövlüyün özüdür. Yalnız yaddaş olan yerdə tamlıq var, əsrlər və nəsillər arasında bağlılıq var”. Bu mənada ölməz söz ustadları Seyid Məhəmmədhüseyn Şəhriyar ilə Məmməd Arazın poeziyasını Azərbaycan xalqının tarixi söz yaddaşı, milli ruh xəzinəsi, o taylı, bu taylı Azərbaycanın milli bütövlüyünə hesablanmış söz sipəri də adlandırmaq olar. Millətimizin milli yaddaşı belə sənət dahilərinin əli ilə yaradılır, nəqşlənir, söz, poeziya dili ilə nəsildən-nəsilə ötürülür.

**Biz hər iki şairin ictima-siyasi məna daşıyan, vətənin milli birliyini təbliğ edən, vahid Azərbaycan ideyasını dəstəkləyən, milli ruh, milli yaddaş, milli şüur və onun əsas amili olan milli dili, azərbaycançılığı tərənnüm edən əsərlərini gözdən keçirtdikdə alınan nəticə bu oldu ki, M.Şəhriyar və M.Araz poeziyası bu günümüz üçün də aktuallığını saxlayır, zamanla tam səsləşir, bədii və ictimai dəyərini nəinki itirmir, əksinə, qloballaşan dünyamızda milli yaddaş amilinin necə vacib olduğunu bir daha önə çəkir, xatırladır, gen yaddaşımızı oyadır, həyəcan təbili çalır. Sən kimsən, kökün kimdir, yolun hayanadır, məqsədin, məramın nədir?-suallarını yaradır. Və bu suallardan narahat olmayan, cavab tapmayan millətlər tarixin zaman sınağından çətin ki, adlaya bilə. M.Şəhriyarla M. Arazın millətdaşlarına aşılamaq istədiyi əlahəzrət həqiqət də budur!**



*Şəfəq Vilayətqızı,*
*Gəncə*

## SÖNÜNCƏ GƏLİR

**Hər şey bu aralar ruhumu yorur,**
**Önümə nə çıxsa "puçumu" burur,**
**Dərdim də hər gecə pusquda durur,**
**Gözləyir, çırağım sönüncə gəlir.**

**Həyatın şilləsi dəyibdi çox sərt,**
**Xəyallar mənimlə çəkir ədavət,**
**Vəfasız yarımla əlbirdi həsrət,**
**Sözündən, əhdindən dönüncə gəlir.**

**Dəymişim qalmayıb, kalım dəyməyib,**
**Çürümüşəm artıq, zaman çeynəyib,**
**Bəxtim qara günə xəbər eyləyib,**
**O da taleyimin önüncə gəlir.**

**Nə yaman ağırmış Şəfəqin daşı,**
**Dəyirman daşıyla durub yanaşı,**
**Bir tək sirdaşım var, gözümün yaşı,**
**Əhvalım dəyişib, çönüncə gəlir...!**

## YAĞIŞ YAĞIR

**Təbiət ata bilmir qəm çəkməyin daşını,**
**Göylər yerə çatıbdır elə bil ki, qaşını**
**Axıdır yavaş- yavaş buludlar göz yaşını,**
**Yağış yağır...**

**Ağır olur həsrətin, intizarın sınağı,**
**Küsdürüb ulduzları yerin göyə qınağı,**
**İslanıb göz yaşında buludların yanağı,**
**Yağış yağır ...**

**Damcıların ahəngi yaradır həzin bəstə**
**Düzülüb muncuq-muncuq parlayır yarpaq üstə,**
**Torpaq da su istəyir, nar istəyəntək xəstə**
**Yağış yağır...**

## AXI SƏNƏ YOX ANDIM

**Toz basmış xatirələr öz-özünü basdırıb,**
**Ayrılıq hökm verib xəyalları asdırıb,**
**Sevdam elə bağırıb arzuları susdurub,**
**Dilimə düyün düşüb adın ilişib ora.**
**Gözümə tor atmışam bəlkə düşəsən tora.**

**Üzümü cırmaqladı cahil eşqin dırnağı,**
**Yaxşı ki, öyrənmişəm tək yıxılıb durmağı,**
**Unutmuşam nə vaxtdır xoş xəyallar qurmağı,**
**İndi mənim dünyamda nə yağış var, nə külək.**
**Birgə yaşananları gəl, qarışdıraq, bölək.**

**Mən kiminlə küsdümsə onla barışdı dünya,**
**Gözümün yaşındakı duza qarışdı dünya,**
**Ağlına nə gəldisə onu danışdı dünya,**
**"Üç alma"nın xətrinə bu nağılı dinlədim.**
**Saçlarımdan asdı "div" acı çəkdim, inlədim.**

**Neçə yuxu yatmışam yastığımla dərdləşib,**
**Çox bərkə boşa düşüb, yazıq ürək sərtləşib,**
**Keçmiş üzümə durub, keçib getmir, dirəşib**
**Yolumun üstündəki qanqal imiş, gül sandım.**
**Nə deyim inanasan..., axı sənə yox andım?**

## YAŞADIM

**Bəzən gözüm yol çəkir, düşünürəm dərindən,**
**Qaçmaq olmur heç yerə dünyanın dərd, sərindən**
**Məsum qəlbim qırıldı ən incəlmiş yerindən,**
**Hər qırıldığım yerə düyün vurub yaşadım.**

**Mən közərdim çoxları alov alıb yandılar,**
**Barmağımı şam etdim şöləsini dandılar,**
**İpim hər kəsiləndə dağılacam sandılar-**
**Özümə bir dözümlü dünya qurub yaşadım.**

**Qurtararmı dərd, kədər sevincə qatıb yesək?**
**Dincələrmi duyğular qu tükünə bələsək?**
**Yıxıldım, ayağıma çox ilişdi daş- kəsək,**
**Üst- başımın tozunu çırpıb, durub yaşadım.**

**Keçmişi xatırlamaq ağır olurmuş yaman,**
**Dərd çəkməyə alışdım ötüb keçdikcə zaman,**
**Xatirələr yaxamı buraxmadı bircə an,**
**Keçmis qaçdı, mən qovdum sonda yorub yaşadım.**

**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**



# OSMAN SARIVƏLLİ - 120

**Osman Sarıvəlli... Bu gün XX əsr Azərbaycan poeziyasının mənzərəsini göz önünə gətirəndə bu adı xatırlamamaq mümkün deyil. Amma nədənsə, son illərdə Osman Sarıvəllinin keçdiyi ömür yolu, bir şair kimi zəngin yaradıcılığı tədqiqat əsərlərində, elmi araşdırmalarda layiqincə əks olunmur. Halbuki, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza kimi şairlərlə bir sırada onun da poeziyamızın inkişafında, şeirimizin yenilik ruhu ilə aşılanmasında xidmətləri az olmamışdır.**

Osman Sarıvəllinin Azərbaycan şeirinə verdiyi töhfələr çoxdur və bəlkə də bir çoxlarına şablon təsir bağışlayan bu cümlənin arxasında əsl həqiqət durur. Həqiqət budur ki, Osman Sarıvəlli şeirimizdə heç kimə bənzəmirdi, onun özünəməxsus yolu, poetik üslubu vardı. Çox zaman onun adını ustad Səməd Vurğunla yanaşı çəkirlər, hətta belə bir fikir də mövcuddur ki, Osman Sarıvəlli Səməd Vurğun poeziyasından bəhrələnib. Osman Sarıvəllinin Səməd Vurğunla qibtəediləsi dostluğu, qardaşlığı, ünsiyyəti olub, bu iki şəxsin münasibəti ideal bir səviyyədəydi və olsun ki, bəlkə bu dostluğun aliliyi çoxlarında elə bir fikir oyatmışdı.

Çox kasıb bir ailədə dünyaya göz açmışdı, uşaqlıq və gənclik illəri ağır ehtiyac içində keçmişdi. Özünün şah əsəri olan "Gətir oğlum, gətir!" poemasında Osman müəllim həyatının o ağır günlərini təsvir edir, oğlu Babəkə həsr etdiyi bu əsərdə yazır ki:

*Mən kənddə doğuldum, sən də şəhərdə,*
*Sən beşikdə yatdın, mənsə yəhərdə.*
*Yatdım boz otlaqda boz dovşan kimi...*
*Gözümüz dünyaya açılan kimi*
*Mən çomaq götürdüm, sən kağız, qələm,*
*Çomaq bir aləmdir, qələm bir aləm...*

Osman Sarıvəllinin tərcümeyi-halı XX əsrin əvvəli ilə sonu arasında (1905-1990) yaşanılan bir həyatın çox mənalı, mənalı olduğu qədər də keşməkeşli bir ömür yoludur. Çobanlıqdan, yamaqlı şalvardan, ehtiyacdan sıyrılıb təhsilə, elmə, şairliyə doğru, Qazaxdan Bakıya, Bakıdan Moskvaya qədər uzanan bu yol iyirminci illərin komsomol həyatından, otuzuncu illərin ziddiyyətli, qırxıncı illərin müharibə alovlarından, Cənubi Azərbaycanda yaşanılan qısamüddətli naşirlik dönəmindən, əllinci illərin quruculuq, altmışıncı-səksəninci illərin kamillik mərhələsindən keçib. Bu səksən beş illik ömrün demək olar ki, əksər sənələri, günləri, ayları onun yaddaşından silinməyib. Osman Sarıvəlli poeziyası bu mənada onun bədii-həm real, həm də romantik, yaradıcılıq ehtirası ilə coşubdaşan salnaməsidir.

İnsan ağır, çətin, məşəqqətli günlər yaşaya bilər, amma o günlərin sonralar romantik duyğulara çevrilən anları olur. "Dumanlı səhərlər, çənli axşamlar, keçəli çadırlar, yeraltı damlar, yaşıl təpələr, sərin bulaqlar, yaşıl çöllər" xatırlanır və bunlar heç də retrospektiv elementlərə çevrilmir, bütün ömrü boyu şairin varlığında yaşayır. Məşhur "Bənövşə" şeirində deyirdi ki:

*Yamaqlı şalvarım, yamaqlı çuxam,*
*Vüqarlı başımı saldı aşağı,*
*Çıxdı gözlərimə qəlbimin dağı.*
*Ələmdən, kədərdən qaça bilmədim,*
*Ciyərim həsrətlə alışdı, yandı.*
*Könlümü kimsəyə aça bilmədim,*
*Cırıq paltarımdan eşqim utandı.*

Nə qədər təsirli, nə qədər real bir səhnə. Bunu Osman müəllim "Bənövşə" şeirində izhar edir və deyək ki, həmin BƏNÖVŞƏ şairin poetik obrazlar silsiləsində birinci sırada durur. Ustad Qurbanidən sonra Bənövşəyə şeir çələngi taxan Osman Sarıvəlli bu obrazı simvol səviyyəsinə qaldırır. Bənövşə həm təbiətin gözəllik hüsnü kimi bənzərsiz təşbehlərə, metaforalara bürünür, həm də hardasa insaniləşir.

Bənövşə həm eşqin, alovlu duyğunun mücəssiməsinə çevrilir, həm insan-təbiət vəhdətini özündə əks etdirir, həm də İnsan mənəviyyatının, gözəlliyə estetik baxışının dəyəri kimi mənalanır. Şeirin ilk bəndlərində keçmişin qara günləri xatırlanır.

Osman Sarıvəlli 1977-ci ildə, artıq yaşıdlarının hamısı Xalq şairi fəxri adı-



na layiq görüldükdən sonra o ada layiq görüldü. Gec də olsa, haqqını aldı, ulu öndərimiz Heydər Əliyev onu yaxşı tanıyırdı və əməyini, ədəbiyyatımızın inkişafında xidmətlərini layiqincə qiymətləndirdi. Çünki Osman Sarıvəlli elə başdan-binadan, Xalq şairi olmamışdan xalqın şairi idi. Onun "Gətir oğlum, gətir!" poeması XX əsr Azərbaycan poeziyasının şedevr nümunələrindən biridir və Osman Sarıvəllidən söz düşəndə bu əsərin adı həmişə birinci çəkilir. Səməd Vurğunun "Azərbaycan" şeirindən sonra vətən sevgisini ali hiss, müqəddəs duyğu səviyyəsində bu qədər ehtirasla tərənnüm etmək böyük istedadın qələbəsiydi. Poemada Atanın diliylə söylənilən "gətir!", "yaşat!" kəlmələri xalq müdrikliyinin, milli-mənəvi dəyərlərin yaşanılmasına inamdır. Burada kəndin şəhərlə, köhnəliyin yeniliklə qarşılaşdırılması tendensiyası qətiyyən hiss edilmir, "gətir" elə "yaşat" deməkdir. Nəyi gətirmək, nəyi yaşatma? Məsələ bundadır:

*Kömürdən almaz çək, yarpaqdan ipək,*
*Daşdan gövhər çıxart, buluddan şimşək,*
*Gətir, ildırımın məğrur səsini,*
*Qumru bulaqların zümzüməsini,*
*Zəmilərdən sünbül, bağçalardan bar,*
*Dərələrdən vüsət, dağlardan vüqar...*
*Özünlə çiçəkli, güllü yaz gətir,*
*Bir aşıq mahnısı, bir də saz gətir!*
*Ana yurdumuzun nəyi var gətir-*
*Məhəbbət, sədaqət, etibar gətir!..*

Osman Sarıvəlli aşıq poeziyasının vurğunu idi, bu poeziyanın qanadlarında ədəbiyyata gəlmişdi. Qazaxlı olasan, saz -söz mühitində pərvəriş tapasan, Aşıq Abbası, Qurbanini, Xəstə qasımı, Aşıq Ələsgəri sevməyə bilərsənmi? Onun Aşıq Ələsgər yaradıcılığından söz açan "Qüdrətli şair, ustad sənətkar" adlı kiçik bir monoqrafiyası var və bu monoqrafiya ustad aşığa həsr olunan ən sanballı əsərlərdən biridir.

*Qapımızı döydü qara bir külək,*
*Bağçamızda nə gül qoydu, nə çiçək;*
*Payız fəsli şaxta vurmuş xəzəl tək*
*İrzi-rəngim saralmağa başladı.*

*Zaman gəldi...üzümüzə doğdu gün,*
*Çiçəklədi ilk baharı ömrümün,*
*Busat qurdu hər məhlədə toy, dügün-*
*Yar könlünü yar almağa başladı.*

*Qocalığı heç qaxmayın başıma,*
*Yeni çatır ömrüm əlli yaşına,*
*Ağ gün çəkdi sağ əlini başıma*
*Ab saçlarım qaralmağa başladı.*

Osman Sarıvəlli ustad şair idi. Hər sözün, hər kəlmənin, hər misranın poetik mənasına varmağa can atırdı və buna nail olurdu. Yazırdı ki: Baxın kimi sərraf gözün, Təmtəraqlı yalan sözün Canı yoxdur, dedin özün, Mənа sözün düzündədir". Onun şeir dili saf, təmiz, duru idi, bir çeşmə idi ki, suyu bulanıq deyildi. Xalq dilinin şəhdi-şirəsi, etnoqrafik incəlikləri, məişətdən, adət və inanclardan gələn sözlər, ifadələr, atalar sözləri, məsəllər, folklordan əsən sərin meh Osman Sarıvəllinin poeziyasında xalq ruhunun şeir dilində ifadəsiydi. Baxın: "Bu yerlərdə gözəl dostum, sinəmdə Bir yaralı bülbül ağlar, nə bilsin? Buruq-buouq duman çıxırbaşımdan, Mən yanıram, qarlı dağlar nə bilsin?" Bir də baxın: "Zülfün qamətindən uzundur, uzun, Yalansa, əmr eylə boynum vurulsun! Ayna qabağında bir ayna dursun, Görünsün əndamın yara, görünmə!". O, sərbəst şeirlər də yazırdı, amma insafən deyək ki, o şeirlərin bir çoxu hecada da yazıla bilərdi, çünki Osman Sarıvəllinin şair qüdrəti hecada daha parlaq şəkildə ifadə olunurdu. Təbii ki, bu, mənim subyektiv fikrimdir, razılaşmaya da bilərsiniz...

Osman Sarıvəllinin məşhur bir şeiri var: "Günah onun özündədir"

***Dostum, incə barmaqların***
***Sədəflərin üzündədir.***
***Mənim meylim bir sazında,***
***Bir də şirin sözündədir.***

***Qarayazı meşəsində,***
***Cavan ovçu həvəsində,***
***Qulağın maral səsində,***
***Gözün ceyran izindədir.***

***Söz şairin ürəyində,***
***Zor binanın dirəyində,***
***Güc pələngin biləyində,***
***Pəhləvanın dizindədir.***

***Heç əlinə alma əsa,***
***Yetmişində batma yasa,***
***Hər kimi yüz il yaşamasa***
***Günah onun özündədir.***

Bu şeiri O.Sarıvəlli əlli yaşında yazmışdı. Mən onu əlli yaşında yox, yetmiş yaşı olanda görmüşəm və o yetmiş yaşlı Osman baba qədd-qamətli, dolu bədənli, qıvraq bir kişi idi. Amma bir gün səksən yaşında, Bakı bulvarında, bir söyüd ağacının yanındakı skamyada onu görəndə gözlərimə inanmadım. Osman baba arıqlamışdı, belə əyilmişdi bir az, amma gözlərində o həyat eşqi sönməmişdi. Harasa, uzaqlara boylanırdı. 1990-cı ilin 3 iyul günündə Osman baba da gözlərini əbədi yumdu və onu öz doğma kəndində -Sarıvəllidə dəfn etdilər. O kənddə ki:

*Orda öz gülüm var, öz gülşənim var,*
*Yolumu gözləyən Solmazım ağlar;*
*Uzun qollarını ala çinarlar*
*Boynuma salsa da, mən gedər oldum!*

*Yenə tut ağacı dərdimi dinlər...*
*Uzun qələmələr ah çəkib inlər,*
*Ağlayıb dalınca salxım söyüdlər*
*Saçını yolsa da, mən gedər oldum!*



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

(əvvəli ötən saylarımızda)

**Oxucu haqlı olaraq soruşa bilər ki, prokuror kimi gördüyünüz, bildiyiniz faktla əlaqədar niyə tədbir görmürdünüz? Cinayət işi başlayıb təqsirkarları məsuliyyətə cəlb etmirdiniz? Haqlı sualdır. Onda, gəlin, məsuliyyətə cəlb olunacaq şəxslərin dairəsini müəyyən edək. Sovxozun direktoru və baş mühasibi, 2 ferma müdiri, zootexnik, baytar həkim, yem anbarının müdiri, yemin daşınmasında iştirakı olan iki-üç sürücü, əvvəlcədən vədələşib yem alanlar (N sayda, amma biz 10 nəfər qəbul edək). Beləliklə, bir sovxozda ən aşağısı 20 nəfər cinayət məsuliyyətinə cəlb olunmalıdır.**

Pripiska süd zavodu vasitəsi ilə həyata kecirilir. Süd zavodunun direktoru, müavini, baş mühasib, qəbuldar, texnoloq, yağ və pendir ustaları, İstehsalat şöbə müdiri, laborantlar - 2 nəfər, saxta qaimə yazan mühasib köməkçiləri, təhkimçilər -cəmisi 20 nəfər.

Rayon statistika idarəsinin 4 işçisi, rayon ASB-nin rəisi, baş mühasibi, baş zootexnik, baş baytar həkim, baş iqtisadçı, baş mühasib köməkçiləri - cəmi 8 nəfər.

Cəlilabadda 28 sovxoz var idi. Pripiska bütün təsərrüfatlarda mövcud idi. Birində çox, birində az. Deməli, yüzlərlə adam məhkum olmalı, minlərlə ailə üzvləri əzab çəkməli idi. İndi özünüz deyin, cinayət işi qaldırılması nə dərəcədə məqsədə müvafiq idi?!

Səhərisi gündəlik məlumatda 1500 litr süd planı verən Moskva sovxozu zavoda cəmi 410 litr süd göndərmişdi. İki gündən sonra 430 litr və nəhayət ayın 17-də 500 litr süd təhvil verilmişdi. İclasda Həmzə kişini ayağa qaldırmadılar. Yalnız bunu deməklə kifayətləndi ki, Moskva sovxozu süd planında rayonu 17 ton geri cəkib.

Mərkəzi Komitənin əlaqədar şöbələrindən tez-tez birinci katibə zəng edib hesabat və izahat tələb edirdilər. Lakin ilin sonuna Moskva sovxozu pripiska ilə olan göstəricidən 4 ton artıq süd planı vermişdi.

Bu hadisə rayonun gələcək həyatında böyük rol oynadı. Digər sovxoz direktorları Həmzə kişinin təcrübəsindən ustalıqla istifadə edərək, 1987-ci ilin sonuna heyvandarlıqda pripiska bəlasından qurtuldular (mən bunu özüm üçün ən fərəhli hadisələrdən biri hesab edirəm).

Taleh belə qismət elədi ki, Mərkəzi Komitədən zəng edib I katib İbrahim Qurbanovdan izahat tələb edənlərdən biri 1988-ci ilin Yanvar ayında Cəlilabad Rayon Partiya Komitəsinin birinci katibi seçildi. Ilk tədbiri rayonda heyvandarlığın vəziyyətini araşdırmaq oldu. Təsərrüfatların heç birində "pripiska" aşkar edə bilməməsindən pərişan olan Birinci katib axıra qədər mənimlə rəsmi işlədi.

İ.İsmayılovun fəaliyyətinin əsasını təşkil edən ədalətlilik və vətənpərvərlik uğrunda mübarizədə, o, heç bir çətinlikdən qorxmadan, karyerasını təhlükə altına qoyaraq, ən cəsarətli addımları atmaqla Respublikamızı dəfələrlə ağır bəlalardan qurtarmışdır.

1988-ci ildə Azərbaycan rəhbəriyinin xahişi və Mixayil Qorbaçovun göstərişi ilə Azərbaycana Moskvadan "əliyevçilər"lə bağlı 162 nəfərlik əməliyyat istintaq qrupu göndərilmişdi. Qrupa SSRİ Daxili İşlər Nazirliyindən general Aslambek Aslaxanov, SSRİ Baş prokurorunun müavini Aleksandr Katusev rəhbərlik edirdi. O vaxt Bakıya gələn əməliyyat istintaq qrupunun fəaliyyəti heç bir qanuni, hüquqi normaya sığmayan üsul və metodlarla aparılırdı. Məqsəd hansı yolla olursa-olsun Heydər Əliyevə və onun ən yaxın ətrafına qarşı ifadələr almaq, təqsirləndirici materiallar toplamaq idi. Həbs olunanlar hamısı Şüvəlanda yerləşən istintaq təcridxanasında ayrıca korpusda saxlanılırdılar və onlara qarşı əməliyyat-istintaq qrupu tərəfindən hər cür işgəncə və amansızlıq tətbiq edilirdi. O zaman bu özbaşınalığın və qanunsuzluğun qarşısını almaq üçün ilk dəfə olaraq öz rəsmi etirazını bildirən şəxs Azərbaycan SSR prokuroru İlyas İsmayılov oldu. İlk dəfə İlyas müəllim açıq və cəsarətli şəkildə öz mövqeyini ortaya qoydu və bu qanunsuzluğun qarşısının alınmasını tələb etdi.




Bu addım həmin dövrdə SSRİ miqyasında bir məmurun sərgilədiyi görünməmiş bir cəsarət idi. Onu da qeyd etməliyəm ki, istintaq qrupunun Heydər Əliyevə qarşı ifadələri qanunsuz üsullarla toplamasını ilk dəfə sənədləşdirən və bu barədə İlyas İsmayılovu məlumatlandıran, ona müraciət edən o zaman İslah Əmək Müəssisələrinin Baş idarəsinin rəisi olan peşəkar əməliyyatçı, cəsarətli polkovnik Əzim Piriyev olmuşdur. İlyas İsmayılov bu məlumatı alan kimi, dərhal həmin təhqiqat materiallarını tələb etmiş və 1989-cu ilin mayında öz imzası ilə SSRİ əməliyyat-istintaq qrupunun qanunsuz əməllərinə qarşı cinayət işi başlatmışdır. O dövrdə İlyas müəllimin bu cəsarətli qərarı SSRİ miqyasında böyük sensasiyaya səbəb olmuşdu. SSRİ-nin tabeliyində olan bir respublika prokurorunun İttifaqın əməliyyat-istintaq orqanlarının əməkdaşlarına qarşı cinayət işi başlatması o dövrün ən böyük məmur, özü də yüksək çinli vəzifəli məmur cəsarəti idi. Nəzərə alaq ki, o dövrlərdə SSRİ Daxili İşlər Nazirliyi və Baş Prokurorluğunun istintaq əməliyyat qrupu Özbəkistanda heç bir müqavimətə rast gəlmədiyindən öz qərəzli və məqsədli istəklərinə tam nail olurlar.

### *O, çox təvazökar insan idi...*

...Tanıyanlar bilir ki, İlyas müəllim həddindən artıq təvazökar adam olub. O, etdiklərini dilə gətirməyi sevmirdi. Lakin ədalət tapdalanıb ayaq altına atılanda, təbii ki, cavab verirdi.

Mövzu ilə əlaqədar olduğundan Onun Milli Məclisdə çıxışından bir hissəni oxucuların diqqətinə çatdırıram:

"...İndi, icazənizlə, bir iki kəlmə mənə atılan böhtanlardan danışmaq istəyirəm.

Mən çox şadam ki, Hörmətli Prezidentimiz iştirak edir burada.

Dünən deyildi ki, pambıq işlərinin istintaqını aparmışam, camaata əziyyət vermişəm. Mən bu fəaliyyətimdən çox razıyam. Birnci, prokuror cinayətkarlığa qarşı mübarizə aparmalıdır. Mən qatı cinayətkarlara qarşı mübarizə aparmışam. Riski üzərimə götürərək, bir nəfər də olsun, siravi adamın məhkum olunmasına imkan verməmişəm. İkinci, ən əsası, üzr istəyirəm, mən öz fəaliyyətimdən Prezident olan yerdə danışmaq istəməzdim, amma mərdi qova-qova namərd edirlər. Mən çalışmışam ki, Moskvanın Azərbaycana girməsinə imkan verməyim. Moskva Azərbaycana girmək istəyirdi. Şamxora girmişdi. SSRİ DİN-nin əməkdaşları istintaq aparırdı. Ordan Azərbaycanın bütün rayonlarına girmək istəyirdilər. Azərbaycanı böyük bir təhlükə gözləyirdi. Mən bu fəaliyyətimlə fəxr edirəm. Özüm iş aparmışam. Mərkəzin daxil olmasına imkan verməmişəm. Az ziyanla böyük ziyanın qarşısını almışam!"

### *Qarabağ dərdimiz*

"...Dağlıq Qarabağ problemi ATƏT-in MİNSK qrupunun inhisarından çıxarılsın, çünki ATƏT bu məsələni həll eləyə bilməz. ATƏT-in qərarı hüquqi xarakter daşımır, tövsiyə xarakteri daşıyır və tövsiyəni də ermənilər qəbul eləməzlər. Odur ki, biz BMT-nin Təhlükəsizlik Şurasından tələb etməliyik ki, öz qətnaməsini icra eləsin. Niyə digər məsələlərlə bağlı qətnamə verir və dərhal həmin qətnaməni icra edir? Niyə Azərbaycanla əlaqəli qətnamə icra olunmur? Niyə Azərbaycan torpağını işğal edən ermənin pazıyla oynanılır? Niyə Dağlıq Qarabağda olan terrorçulara və separatçılara maddi yardım göstərilir? Beləliklə, terrorçuluq və separatizm həvəsləndirilir..."

**İ.İsmayılov**
**2013-cü il**

29 noyabr 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti quruldu. Üç gün sonra, 2 dekabr 1920-ci ildə Stalinin "Pravda" qəzetində məqaləsi dərc olundu. Həmin məqalədə Stalin Qarabağın, Naxçıvanın və Zəngəzurun Ermənistan SSR-ə verilməsinin zəruriliyini əsaslandırmağa çalışırdı.

Bundan istifadə edən bolşevik cildinə girmiş daşnaklar yenidən fəallaşdılar və xüsusi ilə Naxçıvanın statusu ilə əlaqədar 16 mart 1921-ci il tarixli Moskva müqaviləsindən sonra RK(b)P-nin MK-nə və şəxsən Xalq Komissarları Sovetinin sədri V.Leninə çoxlu sayda müraciətlər etdilər. Nəhayət 04 iyul 1921-ci ildə N.Nərimanovun da daxil olduğu bolşeviklər partiyasının 8 nəfərdən ibarət Zaqafqasiya bürosunun plenumunda mərkəzin nümayəndəsi Stalinin iştirakı ilə Dağlıq Qarabağın statusu ilə əlaqədar məsələ müzakirəyə çıxarıldı.

İki günlük gərgin müzakirələrdən sonra N.Nərimanovun səyi və nüfuzu sayəsində Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması barədə qərar qəbul edildi.

Lakin ermənilər Qarabağ xülyasından heç vaxt əl çəkmədilər. Ayrı-ayrı dövrlərdə bu məsələ ilə əlaqədar müxtəlif bəhanələrlə SSRİ rəhbərliyinə müraciət etsələr də, hər dəfə oxları daşa dəydi.

Nəhayət, 20-ci əsrdə Azərbaycanın yetişdirdiyi ən böyük siyasi xadim, çoxlarının SSRİ adlı nəhəng dövlətin başında görmək istədiyi, Qarabağ məsələsini beşikdə boğan Heydər Əliyevin M.Qorbaçov və komandası tərəfindən 1987-ci ilin oktyabr ayında İttifaq rəhbərliyindən kənarlaşdırılmasından qısa müddət sonra Azərbaycanı arxasız və köməksiz görən ermənilər, necə deyərlər, bütün cəbhə boyu hücuma keçdilər.

1987-ci ilin noyabrında Parisdə Fransa Erməni İnstitutunun və Erməni Veteranlar Assosiasiyasının təşkil etdiyi tədbirdə M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Qarabağ barədə demişdi: "Mən bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ iqtisadi cəhətdən daha çox Ermənistana bağlıdır, nəinki Azərbaycana".

Qarabağın Ermənistana verilməli olduğu fikrini o, Fransanın "Humanite" (L'Humanit?) qəzetinə müsahibəsində də təkrar etmişdi. Hamı yaxşı başa düşürdü ki, A.Aqanbekyan M.Qorbaçovun xəbəri olmadan belə çıxış edə bilməzdi. Məhz bu çıxışdan sonra, 1988-ci ilin əvvəllərindən ermənilər uzun illər ərzində hazırladıqları planı - Qarabağın işğal edilməsini açıq şəkildə həyata keçirməyə başladılar.

200 mindən artıq soydaşımız Ermənistandan qovuldu. İqtidar və təzə formalaşmağa başlayan müxalifət liderlərinin xalqın ziyanına "ilk müştərək işi" məcburi köçkünləri Qarabağda məskunlaşdırmaq əvəzinə respublikanın müxtəlif şəhərlərində - əsasən Bakı və Sumqayıtda yerləşdirmək oldu.

**"Sülhsevər" və "cəfakeş" ermənilər mərkəzi hökumətin ayırdığı pulları silahlanmağa sərf edəndə, biz düşmənə "göz dağı vermək üçün" tikinti, abadlıq, quruculuq işlərinə başladıq.**

(ardı var)

### *Xərçəng xəstələrinə masaj olar?*

**Amerikalı alimlər sübut ediblər ki, masaj xərçəngin müalicəsində istifadə edilə bilər və edilməlidir. Çox güclü dərmanların səbəb olduğu xroniki yorğunluqdan çıxmağa kömək edir.**

Adalet.az xəbər verir ki, Atlantadakı Emori Universitetinin tədqiqatçıları müəyyən ediblər ki, masaj şişlərlə amansız mübarizə aparan xəstələrə ağır xərçəng müalicəsi zamanı yaranan xroniki yorğunluq hissini yan təsirləri ilə birlikdə aradan qaldırmağa kömək edir. Əməliyyatdan sonra xərçəng xəstələri adətən kimyaterapiya və radiasiyaya məruz qalırlar. Bu çoxsaylı fəsadlara səbəb olur ki, bunlardan da ən çox görülənlərindən biri xroniki yorğunluqdur. Alimlər altı həftə ərzində üç könüllü qrupunu müşahidə ediblər.

Birinci qrupda xəstələr klassik İsveç masajı alıblar, ikinci qrupda ümumiyyətlə masaj edilməyib, üçüncü qrupda isə yüngül toxunma ilə. Tədqiqat boyu müəlliflər xəstələrin rifahını izləyiblər və immun markerlər üçün qan nümunələri götürüblər. Tədqiqat göstərib ki, masaj xroniki yorğunluqdan xilas olmaq üçün effektiv vasitədir və alimlər nəticələri ümidverici adlandırırlar.

Bəlkə də gələcəkdə masaj onkologiyada fizioterapiyanın ayrılmaz hissəsinə çevriləcək, çünki bütün müalicənin müvəffəqiyyəti çox vaxt xəstənin enerji səviyyəsindən və fiziki fəaliyyətindən asılıdır.

### *Dünya qaralır - NASA-dan xəbərdarlıq*

**NASA-nın peyk müşahidələrinə əsasən, Yer son 24 ildə Günəş işığını daha az əks etdirməyə başlayıb. Bu "qaralma" tendensiyası xüsusilə Şimal yarımkürəsində nəzərə çarpır və iqlim dəyişikliyinin ciddi əlaməti hesab olunur.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, araşdırma "Buludlar və Yerin Radiant Enerji Sistemi" (CERES) layihəsi çərçivəsində aparılıb.

Alimlər qeyd edir ki, Yerə düşən və əks olunan enerjilər arasındakı balans - radiasiya büdcəsi - dəyişməkdədir.

Bu balansın pozulması planetin daha çox istilik toplaması deməkdir.

Mütəxəssislərə görə, qar və buzların əriməsi, aerozol miqdarının azalması və buludların strukturundakı dəyişikliklər bu prosesə təsir edən əsas amillərdir.

Xüsusilə Şimal yarımkürəsində hava çirklənməsinin azalması və daha az əks etdirici buludların yaranması Yerin daha çox istilik udmasına səbəb olub. Cənub yarımkürəsində isə meşə yanğınları və vulkan püskürmələri ilə aerozol səviyyəsi artaraq əksinə, işıq əksini bir qədər artırıb.

Alimlər xəbərdarlıq edirlər ki, bu dəyişikliklər iqlim modellərinə yenidən baxılmasını tələb edir. Əgər bu tendensiya davam etsə, Yer daha çox istilik toplayacaq və iqlim dəyişikliyi daha sürətlə baş verəcək.

# Sözü at, yiyəsi götürsün

(əvvəli ötən sayımızda)

**Sualdan bezən uşaq nəhayət, özündə güc tapıb dedi: "Hər ikisini..." Bu ağıllı cavab aparıcının ürəyindən olmadı...**

...Verilişlərin birində aparıcının dəvət etdiyi qonaq söhbət zamanı "ata", "ana" əvəzinə "papa", "mama" deyirdi. Aparıcı qonağın bu səhvinə düzəliş vermək əvəzinə özü də ona qoşulub "papa", "mama" deyirdi...

### *Dad "belə deyək"lər əlindən*

Əvvəllər danışıqda "deməli" sözü daha çox işlənərdi. İndi də "belə deyək" ifadəsi möhkəmcə dəbə düşüb. Elə dəbə düşüb ki, həmin o "deməli"lər "belə deyək"lərin yanında toya getməliymiş. Dediyim odur ki, indi efirlərdə və ya müxtəlif tədbirlərdə olan danışıqlar zamanı ən çox eşitdiyimiz və eşitdikcə də yorulub bezdiyimiz və yeri gəldi-gəlmədi işlədilən "belə deyək" ifadəsidir. Pis odur ki, "belə deyək" ifadəsini öz danışığında uzun-uzadı və yersiz işlədənlər arasında bir çox aparıcılar, xəbər hazırlayıb efirlərə təqdim edən bəzi əməkdaşlar, eləcə də savadlı hesab etdiyimiz bəzi tanınmış ziyalılar, müxtəlif vəzifə sahibləri də var. Siz efirlərə diqqət yetirsəniz, danışanlara diqqətlə qulaq assanız mənim bu iradlarımı açıq- aydın görəcəksiniz.

Danışığında "belə deyək" ifadəsinə daha çox aludə olan bəzi əməkdaşlar yerlərdən efirə xəbər verərkən şərti olaraq təxminən bu cür danışırlar: "Olduğumuz tədbirdə ... belə deyək, xeyli adam vardı. Gələnlərin arasında...belə deyək, qonaqlar da vardı. Onların hamısı... belə deyək, çox şən görünürdülər."

Və yaxud yersiz və yorucu "belə deyək"lərlə dolu olan başqa bir şərti cümlə: "Bu gün...belə deyək, sərgi salonunda...belə deyək, xüsusi canlanma vardı. Bura...belə deyək, xeyli tamaşaçı gəlmişdi. Onlar rəsmlərə...belə deyək, maraqla baxır və...belə deyək, öz təəssüratlarını bildirirdilər." Məsələn, hansısa bir idarənin və ya bir müəssisənin rəhbəri müsahibə verərkən, yaxud da tədbirdə çıxış edərkən təxminən belə danışır: "Biz...belə deyək, işimizi layiqincə qurmuşuq. Ona görə də...belə deyək, hamılıqla sevinirik və...belə deyək, bu uğuru davam etdirəcəyik."

İndi hörmətli oxuculardan soruşuram: Siz deyin, şərti olaraq misal gətirdiyim həmin cümlələrdən "belə deyək" ifadəsini çıxarsaq nəsə dəyişərmi və yaxud cümlədə nəsə bir pozuntuluq yaranarmı? Deyəcəksiniz ki, əlbəttə yox. Elə isə danışıq zamanı cümləri bədnam "belə deyək"lərlə yükləməyə nə ehtiyac var? Axı, bəzilərinin danışığında özünə möhkəm yer eləmiş həmin "belə deyək"lər cümlələri ağırlaşdırmaqdan, danışığı dartıb uzatmaqdan və beləliklə də dinləyiciləri, həmsöhbətləri yormaqdan, bezdirməkdən savayı heç nəyə yaramır.

### *Yerinə düşməyən ifadələr*

Xəbər zamanı tez-tez istifadə olunan "baş tutdu" ifadəsi də əksər hallarda yerli- yerində, mənasına və mahiyyətinə görə işlədilmir. Məlumdur ki, həlli çox çətin və əlçatmaz olan, uzun müddət həsrətlə gözlənilən, düzələcəyinə ümid olmayan hər hansı bir iş və ya tədbir, nəhayət, düzəlibsə, bu barədə xəbər verilərkən bu halda burada "baş tutdu" ifadəsi yerinə düşür. O ki qaldı, xoş məramla, xoş niyyətlə, heç bir çətinlik-filan olmadan çox asanlıqla həyata keçirilmiş bir iş və ya tədbir barədə xəbər verilirsə burada "baş tutdu" ifadəsini işlətmək tamamilə yersizdir. Çox təəssüf ki, xəbər verilən zaman bəzi hallarda bu ciddi fərqlər nəzərə alınmır.

Dediyimə aid olan belə bir şərti misal gətirək: "Xeyli vaxt idi ki, aramsız yağışlar, güclü sel və daşqınlar çayın üzərində körpü salmağa, tikinti işləri aparmağa heç cür imkan vermirdi. Amma neçə gündən sonra daşqınlar səngidi və burada tikinti işləri nəhayət baş tutdu." Göründüyü kimi, həmin cümlədə "baş tutdu" ifadəsi yerinə düşür. İndi misal gətirəcəyim şərti cümlədə isə "baş tutdu" ifadəsi yersiz işlədilib: "Yeni dərs ili gəlib çatdı. Müəllim və şagirdlərin məktəbə gəlişi baş tutdu". Və yaxud: "Həmişə olduğu kimi, bu dəfə də tamaşaçıların sərgiyə gedişi baş tutdu".Həmin cümlələrdə "baş tutdu"ların yersiz olduğu açıq-aydın görünür. Təəssüf ki, üslub səhvləri ilə əlaqədar bu cür nöqsanlara tez-tez rast gəlirik. Bəzi verilişlərdə onu da görürük ki, dəvət olunmuş bir qonaq və ya müsahib söhbətin gedişində hər hansı bir sözü, bir ifadəni və yaxud hansısa bir fikri səhv deyərkən aparıcı həmin səhvi düzəltməli olduğu halda bilərəkdənmi, ya bilmədən həmin səhvin üstündən keçir. Görünür ya bilmir, ya da məhəl qoymur. Təəssüf ki, bir çox ifadələr də öz təyinatı üzrə deyilmir. Bu baxımdan bəzi aparıcılar, verilişin qonaqları, eləcə də müxtəlif tədbirlərdə çıxış edənlər bir çox sözlərin mənasını və təyinatını bilmədiklərinə görə danışıqlarında səhvə yol verirlər. Burada "dərc" və "nəşr" sözlərini misal göstərmək olar.



Məlumdur ki, qəzetlər, kitablar nəşr, məqalələr və digər janrlı yazılar isə dərc olunur. Amma bəziləri səhv olaraq məsələn: "Filan qəzet və ya kitab dərc olunub", "Filan qəzetdə məqalə nəşr olunub" deməklə "dərc" və "nəşr" sözlərini qarışıq salırlar. Axı, məqalə nəşr olunmaz, dərc olunar. Yaxud kitab dərc olunmaz, nəşr olunar. Təəssüf ki, bu sözləri ayırd edə bilməyən bəzi ziyalılar da var. Təkcə bu deyil. Danışıq zamanı "azarkeş"i "azərkeş", "riayət"i "rayət", "rəiyət", "mədəni"ni "məədəni", "nekroloq"u "nekrooloq", "monoloq"u "monooloq", "ayaq üstə dayanmaq"ı, "ayaq üstə durmaq"ı "ayaqda dayanmaq", "ayaqda durmaq" və sair kimi deyənləri də görürük.

Danışıqda "qarşı" sözü də çox vaxt deyilən fikrə uyğun olaraq işlədilmir və buna görə müsbət bir fikir istər-istəməz öz-özünü inkar edir. Məsələn, şərti olaraq bu cümlələri nümunə göstərək: "Mən sənə qarşı əlimdən gələn yaxşılığı edəcəm". "Onun mənə qarşı böyük hörməti var". "Sənə qarşı olan yüksək diqqət azalmır". "Qarşı" sözünün lazımsız olaraq "yapışdırıldığı" belə cümlələrin sayını xeyli artırmaq olar. Göründüyü kimi, həmin cümlələrdə "qarşı" sözünə qətiyyən ehtiyac yoxdur. Fikrimi şərti olaraq misal gətirdiyim bu iki cümlə ilə çatdırsam daha aydın olar: "O, haqsızlığa qarşı öz səsini ucaldır". "Onun el-obaya qarşı böyük hörməti var". Hər iki cümlədə "qarşı" sözü işlədilib. Amma 2-ci cümlədəki "qarşı" sözü qondarma olmaqla yersizdir. Bir çox danışıqlarda bu cür üslub səhvlərini təəssüf ki, tez-tez eşidirik. Başqa iradlarım da var. Məsələn, necə deyərlər, hay-küylə, onun-bunun sözünü kəsə-kəsə, hər sözünün arasında kəlmə başı "aaaa", "eeee", "əəəə" deyərək səsini uzada-uzada danışan, beləliklə də dinləyicini bezdirən aparıcını və yaxud üzdəniraq "natiqi" necə dinləyəsən? Eləcə də ekrandan tamaşaçılara baxıb göz vurmaq halları hansı etik normalara uyğun gələ bilər?

### *Qulaqları dəng eləyən "sıfır-sıfır"lar*

Efirlərdə hər saatın tamamını və ya anonslarda, reklam çarxlarında vaxtı bildirən rəqəmlərin yanında "sıfır-sıfır" ifadəsinin təkrar olaraq dönə-dönə işlədilməsi tamamilə yersiz olmaqla həm də çox yorucu səslənir. Qulaqları dəng eləyən bu "sıfır-sıfır"lar kimin və ya kimlərin "kəşfidir", kimlərin "icadıdır", efirə kimlər tərəfindən gətirilib, bilmirəm, amma onu bilirəm ki, daim yersiz işlədilən bu "sıfır-sıfır"lar dillərə, ağızlara düşmüş bir bəladır ki, hər dəfə səslənəndə adamı o ki var bezdirir.

Məsələn, təxminən belə deyirlər: "Saat 19 sıfır-sıfırda filan veriliş olacaq". "Yarışlar saat 16 sıfır-sıfırda başlanacaq", "Konsertin vaxtı saat 21 sıfır-sıfıra kimi uzadılıb", "Tədbirə saat 10 sıfır-sıfırdan 15 sıfır-sıfıra kimi gəlmək olar" və sair və ilaxır. Məgər "saat19-da", "saat 16-da", "saat 21-ə kimi", saat "10-dan 15-ə kimi", yəni rəqəmləri "sıfır-sıfır" larsız demək olmazmı? Başqa sözlə desək, həmin yorucu "sıfır-sıfır"ları rəqəmlərin yanına, loru dillə desək böyürünə dürtməyə nə ehtiyac var? Bu vərdişdən yaxa qurtarmaq lazımdır.

**Mən bu yazıda hələlik bəzi məqamlara toxundum. Həmin mövzuda deyiləsi sözlər isə çoxdur.**

**Tofiq Abdullayev,**
**Yazıçı-publisist**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü**

# Karbohidratlar, yağlar və detoks...

**"Sevindirici haldır ki, artıq insanlar sağlam həyat tərzi və düzgün qidalanma maraqlanırlar, bununla bağlı həkimlərə çoxlu suallar verirlər. Lakin bu maraq bəzən sosial şəbəkələrdə bir çoxlarının qeyri-dəqiq, elmi əsaslardan uzaq məlumatlar paylaşması ilə müşayiət olunur. Nəticədə bir çox insanlar bəzi qidalanma davranışlarını "sağlam" hesab etsələr də, əslində bu davranışlar orqanizmə fayda vermək əvəzinə, zərər verə bilir".**

Adalet.az xəbər verir ki, bu fikirləri Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" verilişində açıqlayıb.

Onun sözlərinə görə, ən geniş yayılmış 3 sağlam qidalanma stereotiplərindən biri karbohidratlardır:

"Karbohidratların hamısı eyni deyil. Tam taxıllar, paxlalılar və lifli tərəvəz-meyvələr əsas enerji, lif, B qrup vitaminləri və minerallar mənbəyidir. Problem işlənmiş karbohidratlar və əlavə şəkər ilə bağlıdır. Ümumdünya Səhiyyə Təşkilatı sağlam qidalanmada tam taxıl, tərəvəz, meyvə, paxlalı, qoz-fındıq qəbulunu artırmağı, əlavə şəkəri, doymuş/trans yağları azaltmağı tövsiyə edir.



Yəni, məqsəd "tam kəsmək" yox, düzgün seçim və porsiyadır. Ağ undan tam taxıla keçid (çörək, makaron, düyü) müasir düzgün qidalanma prinsipidir. Hər gün 25-30 g+ lif (paxlalılar, tərəvəz, meyvə, kəpəkli dənlilər) almaq bağırsaq sağlamlığı üçün əvəz olunmazdır. Şirin içkilər və desertlərdə əlavə şəkəri məhdudlaşdırmaq məsləhət görülür". Nazirliyin mütəxəssis-ekspert qeyd edib ki, yağlar lazımi makronutrientdir. A, D, E, K kimi yağda həll olan vitaminlərin sovrulması üçün vacibdir:

"Sağlam qidalanma doymuş/trans yağların azaldılmasını, doymamış yağların (zeytun yağı, qoz-fındıq, balıq, avokado və s.) üstün tutulmasını tövsiyə edir. Yağın "tam sıfırlanması" hormon balansı və qida çatışmazlığı riskini artıra bilər. Əsas olan keyfiyyət və miqdarın nəzarətidir.

ÜST-nin sağlam qidalanma tövsiyələri doymamış yağlara üstünlük verir. Yeməklərdə bitki mənşəli yağlardan "az, amma keyfiyyətli" istifadə tövsiyə olunur. Bundan əlavə, qızartma yox, bişirmə, soba, buxarla bişirmə metodları və həftədə ən azı 1-2 dəfə yağlı balıq (omega-3) qəbulu sağlamlığımız üçün çox faydalıdır".

E.Məmmədov həmçinin bildirib ki, "Detoks" termini reklamdan doğan mifdir:

**"Bədəni zərərli maddələrdən qaraciyər və böyrəklər təbii şəkildə təmizləyir. Xüsusi şirələr/çaylar orqanizmi "təmizləmir", əksinə orqanizm üçün risk yarada bilər. Britaniya Dietoloqlar Assosiasiyası "detoks pəhrizləri"nin iddialarının elmi əsasının olmadığını vurğulayır. Bəs real "detoks" nədir? Kifayət qədər su içmək, lifli qidalar yemək (tam taxıl, tərəvəz, meyvə), fiziki aktivliklə məşğul olmaq və yuxu rejiminə diqqət edərək, alkoqol/şəkər/işlənmiş qidaları məhdudlaşdırmaqdır".**

**Sübhan**

## *Bioloji qocalmanın başladığı yaş açıqlandı*



**Yetkinlik yaşına qədər insan orqanizmi hüceyrənin sağ qalması üçün vacib olan genomun bir hissəsi olan ribosomal DNT funksiyasını aktiv şəkildə saxlayır. Ancaq yetkinlik dövründə onun effektivliyi azalır və qocalmanın molekulyar mexanizmlərini işə salır. Adalet.az xəbər verir ki, almaniyadan olan tədqiqatçılar belə qənaətə gəliblər.**

Alimlər doğumdan 18 yaşa qədər olan 280 nəfərin qan nümunələrini analiz ediblər. Onlar iki parametri qiymətləndiriblər: rDNT nüsxələrinin sayı və onların metilasiya səviyyəsi - gen aktivliyini "söndürən" kimyəvi marker. Məlum olub ki, uşaq və yeniyetmələrdə aktiv (metilləşməmiş) nüsxələrin sayı azalmır, əksinə, bir qədər də artır. Bu o deməkdir ki, hüceyrələr yeniyetməlik dövründə rDNT funksiyasını "gənc" vəziyyətdə saxlayırlar. Yetkinlərdə əks proses müşahidə olunur: yaşla aktiv nüsxələrin sayı azalır, metilasiya səviyyəsi isə yüksəlir. Alimlərin fikrincə, bu cür dəyişikliklər hüceyrə qocalmasının etibarlı biomarkeri rolunu oynayır.

"Bizim məlumatlarımız göstərir ki, gənclərin toxumalarında aktiv rDNT-nin vəziyyəti molekulyar səviyyədə saxlanılır. Bu, hüceyrə gəncliyinin qorunmasının təbii mexanizminin bir hissəsi ola bilər", - müəlliflər qeyd edirlər.

Tədqiqat həmçinin göstərdi ki, rDNT dəyişiklikləri uşaqlarda inkişaf geriliyi ilə əlaqəli deyil və buna görə də erkən patologiyalara səbəb olmur.

**Sübhan**



# BAYAT



№ 58 (918)



*Əlisəmid Kür*

## NƏ OLA-OLA

Çölün dumanında azıb qalasan,
Bir qoyun sürüsü otlayan yerdə.
Əlini dizinə çırpıb qalasan
Ürəyin buz kimi çatlayan yerdə.
Sonrası... sonrası nə ola-ola.

Ocağın da sönə, düşəsən dərdə,
Yanasan, öz tüstün başından çıxa.
Bıçağın sümüyə dirənən yerdə
Cibindən pas atmış bıçağın çıxa.
Sonrası... sonrası nə ola-ola.

Əynində quruya nimdaş köynəyin,
Tənhalıq içində canın sıxıla.
Görəsən sinəndə bir daş göynəyir,
Qəfildən bir quzu sənə qısıla...
Sonrası... sonrası nə ola-ola.

Quru çörəyini böləsən yarı...
İllah da bir yandan duman, çən ola.
Qurbanlıq quzusan, quzu qardaşım!
Bıçağımdan qorxma...
Sonrası sonrası nə ola-ola.

## GECƏLƏR SƏN YATANDAN SONRA

Gecələr sən yatandan sonra
Öpürəm alnından,
Keçirəm yan otağa -
Bir ağ varağa yoldaş olmağa.

Ürəyim atlanır varağın üstə
Sənə xəyanətim - yuxusuz gecə
İndi bax, indi bax,
Məni silkələyən səs qoşulub
Unudub özümü çıxıb gedəcəm.

Gecələri yatmadığım günlər artır -
Sözlərim bir yandan.
Hansı misram oyaq deyilsə,
Yatır mənim əvəzimə.

Üstü açıq yatır narahat sözlər,
Səksənib ayılsan
Üstünü örtərsən misralarımın..

Gecələr sən yatandan sonra
Öpürəm alnından,
Keçirəm yan otağa -
Bir ağ varağa yoldaş olmağa.

## ADAMLAR DƏYİŞİR HAVALAR KİMİ

Çəkilib uzaqdan baxdım özümə, -
Gördüm görkəmim dəyişib,
Üst-başım tamam köhnəlib,
Dabanı yeyilib çəkmələrimin...

Tanrının gözünə dik baxdığımdan
Xəbərim olmayıb üzümə düşən qırışdan
Yaman inanmışam arvad sözünə:
”- Dağa bənzəyirsən sən bu duruşda”.

Güzgüdə özünə baxıb göz vuran
O şux, o kür adam mən deyilmişəm.
Adamlar dəyişir havalar kimi
İlahi, mən niyə dəyişməmişəm?!

Dünyaya piyada gəlib-gedənlər
Odu eee... yanımdan atlanıb keçir.
Ürək qızdırdığım, çörək kəsdiyim
Qəfildən üstümdən atdanıb keçir.

Mən koram... Sən hara baxırsan, Tanrım!
Sənin də oyunun yamannan-yaman.
Haqqın tərəzisi qurulan vaxtı
Kiminə taxt verdin, kiminə palan.

Çəkilib uzaqdan özümə baxdım, -
bir də üzə gülüb,
arxamca daş atanlara...
Yol üstə ilantək qıvrılanlara...
Başımın üstündə qovğalar kimi
Bu yağış adamlar, külək adamlar -
Bu payız oğlanlar, bu qış gözəllər,
Bu külək oğlanlar, kələk oğlanlar,
Bu payız gözəllər, bu xəzəl qızlar,
Dayanıb yolumda qovğalar kimi, -
Adamlar dəyişir havalar kimi, -
Niyə dəyişmədin, Cəfərin oğlu?!

## ADAM CİBİNDƏN ÜŞÜYƏR

Nə baxırsan yoxsul bəyə,
Nə gülürsən bu kişiyə?!.
Ağac içindən oyular, -
Adam cibindən üşüyər...

Pul əl çirkidi... Yalandı.
Malın verən canın verər.
Ağac içindən sıyrılar,
Adam canından çürüyər.

Kasıb qəribdi Vətəndə, -
Qalıb yollarda tövşüyər.
Adam canından sıyrılar,
Adam cibindən üşüyər.

***

Nə atmısan özünü
həsrətin qucağına.
Leysan yağışı düşüb
könlünün ocağına.

Fələk səni qarğıyıb
özü düşüb həvəsdən.
Canında bir qorxu var -
canın çıxır qəfəsdən.

Sənin qayğına qallam,
Ey əlahəzrət zaman.
Ürəyim bombolomboş,
Salam, boşluğa salam.

## Sən - dərzi qız ...

Ömrü parça-parça dağılmış,
misraları yetim,
balaları dərbədər.
Bu yalquzaq ömrümə
hardan gəlib çıxdın,
dərzi qız?..

Baxıb bu dünyaya
nəğmələr oxuyurdun,
təzə-təzə söz tikirdin
köynəklərin yaxalığına.
Ürəyində ev tikirdin,
ev qururdun
yalqız-yalqız
Bu yalquzaq ömrümə
hardan gəlib çıxdın,
dərzi qız?!

Mənə çox şeyləri öyrədib şəhər,
qızdırma içində,
”narkoz” altında.
Mənim ürəyimin çiçək yerindən
bir kafe sökülüb ”Nərgiz” adında.
Sən ki, ürəyində ev tikirdin,
ev qururdun yalqız-yalqız.
Bu yalquzaq ömrümə
hardan gəlib çıxdın, dərzi qız?..

İndi buyur,
dağılan taleyi təzədən qur.
Ömründən təzə parça kəs,
cala ömrümə.
Həsrətimi qayçıla,
dərdlərimi yama.
Mən yalquzaq,
Sən - dərzi qız.
Yana-yana, dərzi qız, yana-yana.

***

Bu ürək mənim deyil ki...
Sənindi.
Hərdən qəm əkəsən,
dərd becərəsən...

Ürəyim Sənindi -
işlə damarlarıma -
bəlkə qan verəsən,
qan köçürəsən?!
Ayrılıq çox şeylər
öyrətdi mənə.

Bacarsan
ürəyimin şəklini çək, -
as yaxannan...

Bu ürək mənim deyil ki...
Sənindi..
Bilənlərin nə vecinə,
bilməyənlərin nə qulağına?!.

## QAN-TƏR İÇİNDƏ

Əqrəbləri itmiş saat kimiyəm,
Vaxt ölür, çökür içimdə.
Cin çapmış at kimiyəm,
Qan-tər içindəyəm, anam,
Qan-tər içində.
Zaman dolaşıq nər qovğasında
Şeytan-mələk davasında
Ürəyim əlimdən gedir,
Çırpınır qollarım qoynumda,
Gecəm qan-tər içində,anam,
Günüm qan-tər içində.
Bu əlim,bu da lal dilim,
Sözü xəmir kimi yoğuran dilim,
Cadar-cadar, dilim-dilim
Söz əkib-becərən dilim,
Sözüm qan-tər içində,anam,
Dilim qan-tər içində,
Alnımın qırış yerindən
Taleyin çaparı keçir.
Bu yurdun süyər yerindən
Bir ölüm qatarı keçir,
Elim qan-tər içində, anam,
Obam qan-tər içində.
Toxdayıb, səbrimdən asıldım,
Buğlanıb, ruhumdan asıldım,
Can hamı, qəbrimə qısıldım,
Söndüm qan-tər içində, anam,
Öldüm qan-tər içində.

## KENTAVR

Bir gecə vağzalın yanından keçəndə
şəhərdə qəfildən işıqlar söndü.
Kürəyində yük daşıyan adamlar mənə
KENTAVRLARI xatırlatdı...
Bir də qulaqlarıma at kişnərtisi gəldi...

Dərdin arxasınca dördnala çapan
Bədəni at, başı adam,
Bu yarıat, yarıadam
Qaçmağa hallı adam
hara gedir, Yaradan?!

Sözünün dalında dağ kimi durub,
Hər gün bir sevdayla döyüşə gedir.
Dalına atdığı şələyə baxmır.
Xəndəyə yıxılmır, tələyə baxmır,
Özüylə söyüşə-söyüşə gedir.
At kimi yeriyir qəmin üstünə
Çapır, dördnala çapır,
Hara gedir qəm gətirir
Bir gün çörək tapır,
bir gün də tapmır...

”Mersedes” gözəllər keçir yanından
Vaxtı yox onlara gözucu baxa.
Faytona qoşulmuş ata boylanır,
Bu yarıat, yarıadama
ana boylanır
ata boylanır.

Kentavr şəhərdən baş aça bilmir.
Dəyənək qorxusu çıxmır canından.
Bu köçkün kentavr,
qaçqın kentavr
Polisin əlindən qaça da bilmir.

Bu qovur, o qovur,
Göydə Allah qovur, yerdə bəndəsi
Kəpənək yuxusu qaçıb gözündən
Hələ kütə gedir onun kündəsi.
- Hara gedirsən, KENTAVR?
- Kimdən qaçırsan, KENTAVR?
Başın bədənindən ayrı,
Bədənin başından ayrı,
Özün-özündən qaçırsan,
Gedirsən qəmin üstünə
söyüşə-söyüşə,
Yaşamaqçün, ölməməkçün
Atlar örüşə gedir,
Kentavrlar - döyüşə!

## ÖMRÜN ÇİÇƏK VAXTI

Çox şeyə tələsdim...
Sevməyə belə,
Qoşuldum hər nəğmə səsinə axdım.
İndi ürəyimi tutsam da dilə
Keçir sevgi yaşım -
Ömrümün çiçək vaxtı.

Keçir, elə keçir yel atlı sevgim,
Dönüb arxasınca baxa bilmirəm -
Vallah, sevməyi də bacarmıram heç.

Ürəyim qınamaz doğmanı yadı,
Mənim sevgi payım bura qədərmiş.
Məhəbbət haqqında yazdıqlarımın
Hamısı bəxtimə düşən kədərmiş.

Daha ayrılığın yoxdur qorxusu,
İstəyin mənsiz də tək-tənha çapar.
Bizim sevgimizin ömründən uzun
Kölgəni sürüyüb arxanca apar
- Keçir sevgi yaşım...

## HƏR PAYIZ BELƏCƏ

Sarala-sarala solan yarpaqlar
Düşür üzüqoylu torpağın üstə,
Kirpiyin, yanağın, dodağın üstə
Ömrünü sakitcə başa vururlar.

Ora bax, çinarın qızıl yarpağı
İndicə qopacaq,
Havada quşlarla bir az uçacaq,
Sonra yorularaq qonacaq yerə.

Əlvida, ağaclar!
əlvida -
Payızın külək əliylə
Yaşıl yarpaqların itən ömrünə.

Yarpaqlar güvənmir ağaca heç vaxt
Küləyə gedərlər, bada gedərlər.
Bir fəsil ömrünü uzatmaq üçün
Səksənən ağac
Verər yarpaqları güdaza bütün.
Ağacın dərdini yarpaqlar çəkir,

Çəkirlər - torpağa dönənə qədər.
Hər payız yarpaqlar köçəndən sonra
”Ağaclar ölür ayaqüstə”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 39 (2462) 17 oktyabr 2025-ci il

# İNDİKİ GƏNCLƏRİ HEÇ KİM QINAMASIN





**Gənclik insan ömrünün ən gözəl və ən yaddaqalan anlarıdır. Və bu illərdə insan hər şeyə nail ola bilir. Yəni təhsil alır, öyrənir və axırda da bir işin qulpundan yapışır. Əlbəttə, hər dövrün özünəməxsus gəncliyi olub. Yəni o dövr, o zaman həmin gənclərə bu və ya digər dərəcədə sirayət edir. Məsələn, bizim 70-ci illərdə olan gəncliyimizlə indiki gənclərin arasında yerlə göy qədər fərq var. O vaxt bizim bir qayğımız vardı: imtahanları verək və tətilə yollanaq. Təbii ki, biz də tələbə olanda kitab oxuyurduq, tədbirlərə gedirdik və sonra da imtahan verib rahatca qiymət alırdıq.**

Amma bugünki gənclik tamamilə başqa bir durumdadır. Onların bir, iki qayğısı yoxdur, onların sıxıntıları və problemləri bizim dövrlə müqayisədə qat-qat daha çoxdur. Və bu gənclər cavan yaşlarında həyatın ən sərt üzünü görürlər. Ancaq onlar həyatın ən sərt üzünü görsə də, buna qarşı mücadilə və mübarizə aparırlar. İndiki gənclərin əsas problemi də ondan ibarətdir ki, tələbə olanda ikiqat çətinlik yaşamağa məcburdur. Başqa sözlə demiş olsaq, ali məktəblərin çoxunda tələbə yataqxanaları yoxdur və olsa da çox azdır. Aydındır ki, belə bir vəziyyətdə həmin gənclər ayda ən azı 150-200 manat kirayə xərci verməyə məcburdurlar. Bəs, bunu onlar hardan tapsınlar?

Heç də hər adamın ailəsi imkanlı deyil. İmkanı olmayanlar isə çıxış yolu axtarır, kimdənsə kömək istəyir və müxtəlif çətin yollarla o kirayə haqqını tapıb düzəldir və üstəlik də hər il bir ətək təhsil haqqı üçün pul verirlər. Əlbəttə, Azərbaycan gəncliyi bu gün demək olar ki, hər cür çətinliyə və hər bir sıxıntıya tam hazır vəziyyətdədir. Yəni bu gənclərin ən böyük müəllimi həyatın özüdür. Həyat onları öz məngənəsində sıxır, imtahana çəkir və sanki onları bir daha sınaqdan keçirir. Mən gənclər tanıyıram ki, gündüz təhsil alır, axşamlar isə müxtəlif yerlərdə işləyirlər. Bu gənclər bir çox halda işləməklə yanaş, çətin vəziyyətdə olan valideynlərinə də kömək edirlər.

Onu da qeyd edək ki, indiki gənclər kitab oxuyanda görürlər ki, kitabda yazılanlarla həyatda olanlar bir-birini tamamlamır. Və bir-birini tamamlamayan işlərə görə o gənclər elə özləri bu çətinlikdən və həyatın burulğanından çıxa bilirlər və işıqlı yola davam edirlər.

Bugünki gəncləri heç kim qınamasın. Çünki bəzi hallarda hansısa yaşlı adama metroda, avtobusda bir gənc yer verməyəndə onu qınayırlar və deyirlər ki, bunun tərbiyəsinə bir bax, yaşlı adam ayaq üstə qalıb, o cavan isə əyləşib. Amma biz bilmirik ki, yerini başqasına verə bilməyən o gəncin çiynində hansı ağır yük var. Və bu gənc hansı xəstəliklə mücadilə edir. Bir dəfə belə bir gənci qınayanda o, ətrafdakılara dedi ki, niyə mənə nifrətlə baxırsınız, mən onkoloji xəstəyəm, ağır müalicələr götürmüşəm və müalicələr də elə bir effekt vermir. Bu sözlərdən sonra onu qınayan adamların hamısı susdu və elə bil ki, qurbağa gölünə daş atdılar. O günü metronun ”Xalqlar dostluğu” stansiyasının çıxacağında bir yaşlı insanın vəziyyəti pisləşmişdi. İki gənc tez ona yaxınlaşdı, kömək göstərdilər. Gənclərdən biri tez qaçıb yaxınlıqdakı köşkdən bir şüşə su aldı, yaşlı insanın sifətini su ilə yudu. Və sonra da cibindən dəsmalını çıxarıb onun çöhrəsini quruladı. Bir müddətdən sonra həmin yaşlı insan özünə gəldi və uşaqlara təşəkkür elədi ki, nə yaxşı mənə vaxtında kömək göstərdiniz, nəfəs ala bilmirdim. Az qalmışdım öləm, Allah sizi qorusun!

Bu gün Azərbaycan gəncliyi sözün həqiqi mənasında Vətənini, xalqını, millətini, torpağını çox böyük məhəbbətlə sevir. Onların çoxu ilə ünsiyyətdə olanda görürük ki, bunlar bizim dövrün gəncliyindən daha çox əziyyət çəkiblər və daha çox da Vətənə xidmət ediblər. Bilirsiniz İkinci Qarabağ savaşından sonra nə qədər gənclərimiz sağlamlığını itirib? Düzdür, onlar Vətəni qorudular, qazi oldular, amma onların gənc yaşlarında bəzisi əlini, bəzisi qolunu, bəzisi də qılçını itirdi. Amma onların Vətən məhəbbəti hər şeydən güclü oldu.

Mən gənc xanım tanıyıram ki, bax, o əlini, qolunu, gözünü və qılçını Qarabağ savaşında itirmiş gənclərimizə öz sevgilərini bildirir və hətta onlarla ailə qururlar. Halal olsun belə qızlarımıza ki, Vətəni sevən və onun yolunda sağlamlığını itirən gəncləri sevindirirlər. Bu gənclər hər cür mükafata, hər cür sevgiyə, hər cür diqqətə layiqdir. Bəlkə də dünyada Azərbaycan gəncləri qədər mərd, döyüşkən və vətənpərvər gənclər çox azdır. Çünki bizim bu gənclər tək Vətəni müharibədə işğalçılardan azad etməyiblər, həm də Vətənin iqtisadiyyatına, elminə, mədəniyyətinə, idmanına öz töhfələrini veriblər. O gənclər ki dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında qızıl medal qazanıblar və Azərbaycan bayrağını qaldırıb və Azərbaycan himnini səsləndiriblər.

Sözün həqiqi mənasında bizim gənclər çox fəxr ediləsi və qürur duyulası uşaqlardırlar. Bir dəfə metroda bir gənclə söhbət elədim. Gördüm ki, çox yorğundur. Soruşdum niyə belə yorğunsan? Dedi ki, axşam işdə olmuşam, indi də dərsə gedirəm. Amma həyatın çətinlikləri məni heç vaxt qorxutmayıb. Çünki Ostrovskinin bir romanını oxumuşam ”Polad necə bərkidi”, bax, o romandan sonra heç bir çətinlikdən qorxmuram. Həyatın çətinlikləri bizi sıxa-sıxa, vura-vura gələcəyə hazırlayır. Əgər bir həyatın çətinliklərini, əzab-əziyyətini yaşamasaydıq 2020-ci ildə 44 günlük İkinci Qarabağ savaşında ermənilərə qalib gəlib ərazimizin iyirmi faizini geri qaytarmaz və ərazi bütövlüyümüzü tam təmin edə bilməzdik. Bu günün özündə də işləməyimə və oxumağıma baxmayaraq, yenə Vətənimizin dar günü olsa əlimə silah alıb onun uğrunda son nəfəsimə qədər vuruşmağa hazıram.

**Bax, Azərbaycan gəncliyi bu gün belə düşünür, belə işləyir və belə yaşayır. Yəni onlar üçün Vətən, xalq, millət madiyyatdan, var-dövlətdən daha öncədir. Çünki Vətən və dövlət olmayandan sonra o insanların yaşamağı da bir şey deyil. Amma nə yaxşı ki bizim müstəqil dövlətimiz və belə mübariz, döyüşkən, cəsur gənclərimiz var!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# "Əli Səmid Kür də istedadının qədrini bilsəydi, canına yazığı gəlsəydi..."

**"Bir dəfə yekəqarın dostlarımızdan biri soruşdu ki, bizim istedadlar niyə öz qədrlərini bilmirlər? Cavab verdim ki, öz qədrini bilən istedad deyil, bacarıqdır, fərasətdir. İstedad öz qədrini bilməyəndir. Çünki istedad qədrdən çox yuxarıda olan bir dəyərdir. İstedadın qədrə ehtiyacı yoxdur. Bir də sənin kimilərlə eyni dünyada yaşamaqdan ötrü istedad niyə özünə əziyyət verib qədrini bilməlidir? İstedad qədri bilinsə də öz işini görəcək, bilinməsə də".**



Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib.

Onun sözlərinə görə, çünki istedad qiymətləndirmənin nəticəsi olaraq var olan bir şey deyil: "Qiymətləndirilən şey bacarıqdır. Qiymətləndirilmədikdə zibilə dönür. Bizdə ölən istedadlı adamların arxasınca tez-tez belə bir söz deyirlər: Canına yazığı gəlmirdi. Ay millət, canına yazığı gələn adamdan şair olmaz, rəssam olmaz, müsiqiçi olmaz. Ümumiyyətlə, yaradıcı adam olmaz. Yaradıcılıq can alan işdir. Sizi yaradıcılığın imitasiyasıyla məşğul olub özünün, arvad-uşağının, katibəsinin, sürücüsünün zadın qədrini bilən, özüylə bərabər bütün nəslinin canına yazığı gələn adamlarla aldadıblar. Əli Səmid Kür də istedadının qədrini bilsəydi, canına yazığı gəlsəydi ölüsüylə dirisinin bir fərqi olmayan yüzlərlə pis şairdən biri olacaqdı. Halbuki bu gün bütün ədəbiyyat mühiti bilir ki, əsl şair ölüb. Əsl şairdən geriyə əziz xatirə qalmır, qorxu, əzab, dəhşət, vahimə qalır".

**Vasif ƏLİHÜSEYN**

# Türkiyənin görməli olduğunuz ən gözəl yerləri

**Dünya turizmi haqqında danışanda ilk ağıla gələn Türkiyə olur. Bu gün Türkiyə dünya turizminin mərkəzinə çevrilib. Bunun müxtəlif əsaslı səbəbləri var. Türkiyənin hər bir şəhəri özünəməxsus mədəni, təbii və tarixi gözəlliyə malikdir. Burda gəzilib görüləcək, dəyər veriləcək o qədər yer var ki  Hətta bir neçə dəfə getdiyiniz şəhərdə getmədiyiniz və görmədiyiniz nə qədər gözəlliklər olduğunu heç düşünmüsünüzmü? Əsrlərə dayanan tarixi, zəngin mətbəxi, təbiəti, dənizi və dağları**

Bu qədər gözəlliyin bir arada olması illərdir ki, Türkiyəni dünya, o cümlədən biz Azərbaycanlılar üçün maraqla səyahət ediləcək ölkəyə çevirməsi heç təəccüblü deyil.

Türkiyənin memarlıq abidələri, təbii gözəllikləri və tarixi qalıqları kifayət qədər diqqət çəkici olması ilə yanaşı, həmçinin təbii mənzərələri ilə də könül oxşayır. Yamyaşıl otların arasında Sümela Manastrından Pamukkaləyə qədər Türkiyənin hər yerindən diqqət çəkən möhtəşəm mənzərələrini Sizə təqdim edirik. Türkiyənin bu mənzərələri xəyal olacaq qədər gözəldir...

### *İstanbul deyiləndə ağıla ilk gələn - "KIZ KULESİ"*

İstanbul boğazının Üsküdar sularında kiçik bir ada üzərində olan Qız Qülləsi qalası, Bizans dövrünə aiddir. İstanbulun ən məşhur simvollarından biri olan bu qaladan tarixi yarımadanın möhtəşəm silueti ilə birlikdə günün batmasını izləməkdən doya bilməyəcəksiniz.

Şəhərin bütün stresini alan mənzərəni uzaqdan seyr etməklə doymayanlar Salacakdan gəmiyə minib qülləni ziyarət edə bilərlər.

Bir sözlə əgər İstanbula yolunuz düşsə burda günün batmasını seyr etmədən şəhərdən ayrılmayın.

### *Yamyaşıl təbiətin qucağında yüksələn Sümela Monastırı! - Trabzon*

Tarixi 386-cı illərə təsadüf edən Sümela Manastırı, Trabzon Maçka mahalındakı Altındərə Vadisinə baxan dik qayalıqların üzərində inşa edilmişdir. Hazırda bir çox filmlərin mövzusu olan Sumela Manastırı, yerli və xarici turistlərin tez-tez səyahət etdiyi yerdir.

### *Mardin Evleri (Mardin)*

Mardinə yolunuz düşdüyü zaman həyatınıza kiçik bir fasilə verə bilərsiniz - Mardin Evleri (Mardin).

Tarixin qapılarını açmağa hazırsınızmı? Mardin evlərinin mənzərəsi Mezopotamiya düzənliyinin sükunəti ilə böləgənin min illik tarixini bir arada təqdim edir. Bu evlərin ən böyük özəlliyi, asanlıqla müxtəlif formaya salına bilən sarı ahəng daşlarından hazırlanmasıdır. Bir-birinə bağlı küçələri olan evlərin qapı, pəncərə və asma qatlarından başqa taxtadan istifadə olunmamışdır. Bir sözlə səyahət planınıza özünəməxsus unikal strukturu olan Mardin evlərini də əlavə edin!

### *Uçhisar Kalesi (Nevşehir)*

Qayaların oyma-işləmə prosesi min ildən artıq bir dövrü əhatə edir - Uçhisar Keləsi (Nevşehir).

Kapadokya - oxşarı olmayan və xüsusi atmosferi ilə ziyarətçilərində bambaşqa bir dünyaya gəldiyi düşüncəsini yaradan misilsiz məkandır. Uçhisar qalası Kapadokanın ən uzaq məsafəsində yerləşir.

Buranın böyük özəlliyi məkanın ən yüksək zirvəsi olmaqla yanaşı strateji baxımdan da əhəmiyyətli olmasıdır. Kapadokya turlarına qatılıb Həsən və Erciyes dağlarının gözəlliyindən zövq alaraq bu bölgənin tarixi havası ilə nəfəs ala biləcəksiniz.

### *Qar kimi ağ appaq təbii bir məkan - Pamukkale Travertenləri (Dənizli)*

Tarixi 14 min il əvvələ təsadüf edən Pamukkalə travertinləri UNESCO Dünya Mirası siyahısında yer alıb. Günün istənilən vaxtında günəşin istisindən asılı olaraq rəngini dəyişərək fərqli mənzərələr alan Pamukkalədə travertinlərə daxil olmaq mümkündür. Burada xüsusi diqqət edəcəyiniz ayaqqabınızı çıxarmaqdır.

Bir də Dənizliyə gedərkən əvəzolunmaz mənzərələri çəkmək üçün fotoaparatınızı götürməyi unutmayın.

### *Hündürlüyü 2150 metrə çatan NEMRUT DAĞI*

Yolunuzu Adyamana salsanız mütləq dünyada yeganə olan bir yerə səyahət edin. Burada günün batmasını izləmək üçün Nemrut Dağına dırmansanız peşman olmayacaqsınız.

Adıyamanın Kahta mahalındakı dağın hündürlüyü təxminən 2150 metrə çatır. Nemrut Dağı ətəklərinə tikilmiş imperiyanın padşahı I Antioch bu dağın zirvəsində bir birindən gözəl abidələr və heykəllər tikdirib. Şərq, qərb və şimal istiqamətlərinə yayılan bu qalıqların Hellenistik dövrünə aid olduğu bildirilir. Görənləri heyran edən mənzərəyə sahib Nemrut Dağı, UNESCO Dünya Mirası Siyahısında yer alıb. Dağın zirvəsindən bir dəfə günün batdığını izləsəniz mənzərənin şişirdilmədiyini başa düşəcəksiniz.



### *Kemerin mavi çimərlikləri ilə tanınan bayram şəhəri - Tekirova (Antalya)*

Məşhur çimərliklərin ən populyarı da Olimposdur. Olimposun və ətrafındakı digər kəndlərin nadir gözəllikləri də dillərə dastandır. Ancaq Antalyada bundan daha çox şey var!

Məsələn, Aralıq dənizini seyr edən və üçbucağa oxşar forması ilə diqqət çəkən Tahtalı Dağı. Tekirova, görənləri heyran edir.

### *Gözəlliyi ilə göz oxşayan Kızkalesi (Mersin)*

**Bizanslılar tərəfindən inşa edilən bu qala Mersin Erdemli mahalında özünə aid olan bir adanı tutur. Çimərlikdən sadəcə 300 metr məsafədə yerləşən əsrarəngiz qala onu görənləri heyran edir. Necə düşünürsünüz qala tam bir Aralıq dənizi şahzadəsi kimi görünmürmü? Bir sözlə yolunuzu Türkiyəyə salsanız dünyanın yeddi möcüzədən ibarət olmadığını anlayacaqsınız. Türkiyədə bu möcüzələrdən çoxdur. Sadəcə bu gözəllikləri gəzmək və tarixə şahidlik etmək lazımdır.**

**Sübhan**

## *Xalq artisti: "Heç kəs deyə bilməz ki, yalan danışıram"*



**Xalq artisti Ağadadaş Ağayev oğulları ilə münasibətindən danışıb.**

Adalet.az xəbər verir ki, 4 oğul atası olan xalq artisti övladlarını böyütməkdə etdiyi səhvləri də dilə gətirib:

"Bir ata kimi ideal ata olmuşam. Bütün gücümü səfərbər edib, maddi və mənəvi hər dəstəyi etmişəm. Heç kəs deyə bilməz ki, yalan danışıram. Özlərinin xəbəri olmadan onlar üçün ev almışam. Öz toylarında evin açarın vermişəm ki, cavansınız, gedib sərbəst, rahat yaşayın. Əslində bi rata övladına belə humanist və doğru addım atırsa, onun zərərli tərəfləri də çoxdur. Çünki oğul övladı öz ayaqları üzərində möhkəm dayanmağı bacarmalıdır. Etiraf edirəm ki, bu qədər dəstəyim onların zəif böyüməsinə səbəb oldu. Əgər işlərin əllərindən çıxsa, onlar yenidən ayağa qalxa bilməzlər. Onlara ya Ağadadaş lazım olacaq, ya da Ağadadaşın quru adı. Bilirsiniz, bir gənc oğlan 35 yaşına kimi öz həyat bazasını yarada bilmirsə, o, sürənənlər sinfinə düşür".

## *Könül Kərimova: "Yerlərini səhv salıblar"*



**Əməkdar artist Könül Kərimova bayağı ifaçıların məşhurlaşmasında televizyaları günahlandırıb.**

Adalet.az xəbər verir ki, K. Kərimova bayağı mahnı ifaçılarının efirə dəvət edilməsini qınayıb:

"Bayağı mahnı ifaçıları hər zaman olub. Sadəcə, hər kəsin öz yeri var idi. İndi yerləri səhv salıblar. Ona görə də onlar da çaşıb. Elə düşünürlər ki, nəsə bilirlər. Onlara riayət edib, öz yerlərini göstərsək, hər şey yerinə düşəcək.

Müğənninin duet ortağı Cabbar Musayev isə "1970-1980-ci illərdə də bunlar var idi. Aydınçık var idi, ona qulaq asırdım. Bütün Azərbaycan onu dinləyirdi. Ancaq ayağının altına gül səpib, onu televiziyaya gətirən yox idi. İndi Aydından da zəif ifaçıları şamlarla, güllərlə elə reklam edirlər ki... Oxuya bilməyənlərin bəxti onda gətirib ki, insanların çoxunun musiqi duyumu yoxdur" fikirlərini söyləyib.

## *Arzu Mirzəyeva: "Vəfa ən çox qalmaqal yaşayan müğənnidir"*



**Gənc ifaçı Arzu Mirzəyeva ən çox qalmaqal yaşayan həmkarının adını açıqlayıb.**

Adalet.az bildirir ki, müğənni proqramların birində daha çox Vəfa Şərifovanın həmkarları ilə qalmaq yaşadığını söyləyib:

"Məncə daha çox Vəfa Şərifova həmkarları ilə qalmaqal yaşayıb. Bəzən də özü qalmaqal yaradıb.

Həmişə Afət Fərmanqızına söz atır. Uzun müddət də Şəbnəm Tovuzlu ilə küsülüdür. Düşünürəm ki, bunlar hamısı gündəm üçündür. Bildiyim qədərilə bir çox həmkarları ilə problem var. Ancaq ən çox Şəbnəm və Afət xanımla qalmaqalı ilə yadda qalıb".

**Əntiqə**

Aqil Abbas Xalq artisti, tarzən

**Ramiz Quliyevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Aqil Abbas şair

**Əlisəmid Kürün**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu şair

**Əlisəmid Kürün**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 250**
Çapa imzalanmışdır: 16.10.2025